# Xalq qəzeti

Xalqın qəzeti!

№ 32 (30726) 13 fevral 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


### Azərbaycan pozuculuq meydanı ola bilməz



Səhifə ⇨ 10

# Azərbaycanın Somali ilə ortaq maraqları tərəfdaşlığa çevrilir

## Somali Prezidenti Hasan Şeyx Mahmudun Azərbaycana rəsmi səfəri

## Rəsmi qarşılanma mərasimi



**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun fevralın 12-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Somali Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Somali Prezidenti Hasan Şeyx Mahmudu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Somali Prezidentinə raport verdi.

Somali Federativ Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

# Ölkəmiz qlobal Cənubla qlobal Şimal arasında mötəbər körpüyə çevrilib

## Prezident İlham Əliyevin Davosda Çinin CGTN telekanalına verdiyi müsahibə



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibə verib. Dövlətimizin başçısının müsahibəsi fevralın 11-də bu televiziya kanalında yayımlanıb. AZƏRTAC həmin müsahibənin geniş variantını təqdim edir.**

**Aparıcı:** Cənab Prezident, Sizinlə yenidən Davosda görüşmək böyük şərəfdir.

**Prezident İlham Əliyev:** Sizi görməyə çox şadam. Mən əvvəlki görüşümüzü xatırlayıram. Sizin auditoriya ilə söhbət etmək imkanına görə sizə təşəkkür edirəm.

**Aparıcı:** Siz sağ olun, Cənab Prezident. Çoxqütblü dünyada biz öz arzularımızı və planlarımızı necə görürük? Əminəm ki, daimi dəyişikliklər baş verir, ancaq təməl aspektlər də var. Siz bu məsələləri necə görürsünüz?

**Prezident İlham Əliyev:** Ölkəmiz üçün son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası oldu. Biz bunu beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həyata keçirdik. Demək olar ki, 30 il ərzində bu, bizim milli ideyamız idi və biz hədəfimizə nail olmaq, ədaləti bərpa etmək üçün bütün səylərimizi səfərbər etdik. Əfsuslar olsun ki, beynəlxalq hüququn normaları işləmədi və beynəlxalq təşkilatlar yardımçı olmadılar. Çünki çoxsaylı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr, sadəcə, kağız üzərində qalmışdı. Biz bunu özümüz həll etməli, ədaləti özümüz bərpa etməli olduq. Bu, bir daha onu nümayiş etdirir ki, indi dünyanın həqiqətən də beynəlxalq öhdəliklərə tam hörmət edilməsinə ehtiyacı var.

(ardı 3-cü səhifədə)

# Azərbaycan – ABŞ: nikbinlik notları

## *Prezident İlham Əliyev Tramp Administrasiyasından gözləntiləri açıqladı*



**Prezident İlham Əliyev Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində bir çox məqamlara dair fikirlərini bölüşməklə yanaşı, ABŞ-da hakimiyyət dəyişikliyi kontekstində ölkəmizin Vaşinqtonla münasibətlərinin perspektivindən söz açıb. Dövlətimizin başçısı Prezident Donald Trampın yürüdəcəyi siyasətlə bağlı düşüncələrini dilə gətirib və eyni zamanda, ABŞ-ın yeni administrasiyasına yanaşmada ayrı-ayrı dövlətlərin qeyri-müəyyənliklərinə dair mövqeyini açıqlayıb.**

Prezident İlham Əliyevin üzərində dayandığı ilk məqam budur ki, bizim Birləşmiş Ştatlara münasibətdə heç bir qeyri-müəyyənliyimiz yoxdur. Ölkəmizin lideri bunu  ona görə əminliklə vurğulayır ki, Azərbaycan özünün balanslı siyasət xəttinə sadiqdir. Bu xətt rasional düşüncəyə və praqmatizmə əsaslanır. Milli maraq və mənafelərin qorunmasına da, həmçinin.

Dünyanın normal düşüncə mərkəzləri mövcud məqamı yetərincə ciddi dərk edir və qiymətləndirirlər. Onlar yaxşı anlayırlar ki, Azərbaycan məkrli oyunlarda iştirakdan uzaqdır, yalnız qarşılıqlı faydaya və əməkdaşlığa söykənmiş bərabərtərəfli münasibətlərin qurulmasının tərəfdarıdır. Deməli, bu yolla getməyənlər narahat olmalıdırlar. Ona görə də dövlətimizin başçısı Trampın hakimiyyətə gəlməsi ilə məhz Avropa liderlərinin qeyri-müəyyənliklə üzləşdiklərini vurğulayıb. Axı “Köhnə qitə”də liderlik institutu iflasa uğramış durumdadır.

Bəli, Avropada liderlik institutu böhran yaşadığına görədir ki, qitə ABŞ-ın əvvəlki administrasiyasının qızışdırdığı Rusiya – Ukrayna müharibəsində alətə çevrilib. Avropa dövlətləri həmin administrasiyanın təkidi ilə Ukraynaya dəstəyin timsalında anti-Rusiya “müqəddəsliyi” uydurub və özlərini ona inandırıblar. Əlbəttə, müharibənin aparılması üçün dəstəyi ABŞ-dan almaqla.

İndi Tramp Rusiya ilə bağlı fərqli yöntəm müəyyənləşdirdiyindən, hazırda Avropa Moskva ilə baş-başa qalmış durumdadır. Qeyri-müəyyənlik, eyni zamanda, bundan qaynaqlanır və meydana belə bir sual çıxır: “Köhnə qitə” Rusiyaya qarşı mübarizəni davam etdirsin, ya yox? Tramp Amerikasının öz dəst-xəttinin mövcudluğu şəraitində savaşa davam fəlakətdir, onu durdurmaq isə rüsvayçılıq. Seçim Avropanın liderlərinindir.

(ardı 7-ci səhifədə)

## Qarşılıqlı inam və etimada əsaslanan dostluq nümunəsi



Səhifə ⇨ 9

## USAID-in Ermənistanı




Səhifə ⇨ 8

## Ukrayna: tərəflər hiddətlənir, döyüşlər şiddətlənir



Səhifə ⇨ 15

## Nəqliyyat probleminin həlli paytaxtın modernləşdirilməsinə növbəti töhfə olacaq



Səhifə ⇨ 12–13

## Regionu qanlı münaqişəyə sürükləyən separatizm




Səhifə ⇨ 8

# Azərbaycanın Somali ilə ortaq maraqları tərəfdaşlığa çevrilir

## Təkbətək görüş



Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə təkbətək görüşü olub.

## Sənədlərin mübadiləsi mərasimi

**Fevralın 12-də Azərbaycan Respublikası ilə Somali Federativ Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun iştirakı ilə mübadiləsi mərasimi olub.**



“Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Somali Federativ Respublikasının Prezidentinin Ofisi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu”nu Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Somali Prezident Aparatının rəhbəri Abdihakim Mohamed Yusuf mübadilə etdilər.



"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Somali Federativ Respublikasının Energetika və Su Ehtiyatları Nazirliyi arasında yaşıl enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Somalinin energetika və su resursları naziri Abdullahi Bidham Varsame mübadilə etdilər.

“Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Somali Federativ Respublikasının Təhsil, Mədəniyyət və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş”i Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Somalinin xarici işlər naziri Əhməd Moalim Fiqi mübadilə etdilər.

“Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında Saziş”i Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Somalinin müdafiə naziri Əbdülkadir Mohamed Nur mübadilə etdilər.

## Prezidentlərin geniş tərkibdə görüşü



Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə lanç əsnasında geniş tərkibdə görüşü olub.

## Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər



**Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Dəvətimi qəbul edərək ölkəmizə rəsmi səfər etdiyinizdən olduqca məmnunam. Bu, tarixi səfərdir və ölkələrimiz arasında ikitərəfli münasibətlərin tarixində ilkdir. Əminəm ki, səfər ölkələrimiz arasında sıx dostluq münasibətlərində yeni səhifə açacaq. Bu gün Prezidentlə görüşümüz zamanı biz qarşılıqlı maraq doğuran kifayət qədər böyük sayda məsələləri artıq müzakirə etdik. Bu gün müzakirələrimizi nümayəndə heyəti üzvlərinin iştirakı ilə davam etdirəcəyik.

Bu gün imzalanmış sənədlər ikitərəfli əlaqələrimizi çox sahələrdə inkişaf etdirməkdə qarşılıqlı iradəmizi aydın şəkildə nümayiş etdirir. Əminəm ki, hazırda Bakıda imzalanmış bütün razılaşmalar həyata keçiriləcək və münasibətlərimizi daha yüksək səviyyəyə qaldıracaq.

Biz regionlarımızda geosiyasi vəziyyəti, ölkələrimizin üzləşdiyi çağırışları geniş şəkildə müzakirə etdik, ölkələrimizin ərazi bütövlüyünə və suverenliyinə qarşılıqlı dəstəyimizi, eləcə də terrorçuluğa və ekstremizmə qarşı mübarizədə ortaq mövqeyimizi bir daha vurğuladıq. Əlbəttə, hər bir ölkə üçün siyasi sabitlik inkişafı təmin edən ilkin şərtdir. Mən 1990-cı illərdən və bu əsrin əvvəlindən tutmuş beynəlxalq səviyyədə tanınmış ərazilərimizin erməni işğalından azad edilməsinə qədər Azərbaycanın üzləşdiyi ağır dövr barədə cənab Prezidentə məlumat verdim.

Mən, həmçinin Azərbaycana sərmayələrin cəlb edilməsində və müsbət işgüzar mühitin yaradılmasında təcrübəmizi bölüşdüm. Müzakirə etdiyimiz və edəcəyimiz sahələr sırasında, düşünürəm ki, ən vaciblərindən biri təhsil sahəsidir. Bu gün həmin sahədə artıq ilkin nailiyyətlərimiz var. Somalidən bir sıra tələbə Azərbaycanda Heydər Əliyev adına təqaüd əsasında təhsil alır. Bu gün imzalanmış sənəd onların sayını artırmaq imkanını yaradacaq. İlkin mərhələdə on tələbə, sonra isə onların sayı daha çox ola bilər. Bir sözlə, onların universitetlərimizdə müasir təhsil proqramlarına çıxış əldə etmək imkanı olacaq və belə fürsət Somalinin iqtisadi inkişafına fayda verəcək.

Biz, həmçinin Somalidə sərmayə imkanlarını müzakirə etdik. Bildiyiniz kimi, cənab Prezidentin səfərindən əvvəl Azərbaycanın böyük nümayəndə heyəti bir həftə öncə Somaliyə səfər etmiş, əsasən, səfərin hazırlanması və eyni zamanda, gələcəkdə güclü iqtisadi, siyasi və mədəni əlaqələrin qurulması üzərində çalışmışdır. Düşünürəm ki, həmin proses davam etməlidir. Düşünürəm ki, Prezidentin rəsmi səfəri nəticəsində biz digər heyəti konkret hədəf və məqsədlərlə sərmayə sahələrini müəyyən etmək, eləcə də Azərbaycanın sərmayələri qəbul oluna biləcək və faydalı olacaq konkret layihələri qeyd etmək üçün Somaliyə ezam etməliyik. Məsələn, bu sahələr infrastruktur, liman qurğuları və kənd təsərrüfatı ola bilər. Cənab Prezident kənd təsərrüfatında böyük potensialın olduğu barədə mənə məlumat verdi. Mən, həmçinin Azərbaycanda özünü təmin edən kənd təsərrüfatının yaradılması ilə əlaqədar hədəflərimiz barədə məlumat verdim. Bir sözlə, hesab edirəm ki, biz bu sahədə kifayət qədər nəzərəçarpan əməkdaşlıq qura bilərik.

Müdafiə əməkdaşlığımızın mühüm sahələrindən biridir. Bu gün sənəd imzalandı və sabah cənab Prezident Azərbaycanın müdafiə imkanlarının, o cümlədən müdafiə sənayesinin bəzi elementləri ilə tanış olacaq. Hazırda nümayəndə heyətlərinin görüşü zamanı biz bu imkanları birmənalı şəkildə müzakirə edəcəyik. Azərbaycan müdafiə avadanlığının əksər hissəsini istehsal edərək, güclü müdafiə sənayesi potensialını yaradıb. Həmin avadanlıq həm bizə lazımdır, həm də müasir müdafiə avadanlığına malik olan 10-a yaxın ölkənin mühüm ixracatçısına çevrilmək imkanıdır. Burada təlimlər də var, çünki İkinci Qarabağ müharibəsi və sonradan antiterror əməliyyatı hərbi qulluqçularımızın yüksək peşəkarlığını nümayiş etdirdi. Onlar altı və ya yeddi müdafiə xəttinə, müxtəlif müdafiə istehkam infrastrukturuna baxmayaraq, təxminən otuz il işğal altında olan ərazimizi çox mürəkkəb coğrafi relyef şəraitində azad edərək, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qısa müddət ərzində tam bərpa edə bildilər. Beləliklə, sabah, həmçinin xüsusi təyinatlılarımız cənab Prezidentə təqdim olunacaq. Bir sözlə, düşünürəm ki, müdafiə sahəsində əməkdaşlıq, təlimlər və potensial qaydada müdafiə avadanlığının birgə istehsalı, Azərbaycandan Somaliyə onun təchizatı əməkdaşlığımızın mühüm sahələrindən biri olmalıdır.

Mən, həmçinin dövlət xidmətləri sahəsində işbirliyinin əhəmiyyətini vurğulamaq istərdim. Əslində, bu gün imzalanmış razılaşmalardan biri həmin sahəni əhatə edir. Azərbaycanda artıq uğurla işləyən sistem – ASAN dövlət xidmətləri sistemi bir çox beynəlxalq mükafatlara layiq görülüb. Ən mühüm mükafat isə Azərbaycan xalqının verdiyi qiymətdir. Çünki Azərbaycanda ASAN xidmətlərin bəyənilmə reytinqi 100 faizə yaxındır. Bu, həqiqətən göstərir ki, həmin xidmət insanların həyatını daha da asanlaşdırır. Bilirəm ki, Prezidentin proqramında həmin xidmət mərkəzlərindən birinə səfər var və əgər siz qərar qəbul etsəniz, bəyənsəniz, biz sizin ölkədə oxşar sistemi qura bilərik.

Təbii ki, tərəfdaşlığımızın mühüm sahəsi beynəlxalq təsisatlarda qarşılıqlı dəstəkdir. Bilirəm ki, xarici işlər nazirlərimiz çox tədbirlərdə görüşərək həmin məsələləri müzakirə ediblər. Biz BMT, İslam Əməkdaşlığı Təşkilatı və digər beynəlxalq qurumlarda bir-birimizə dəstəyi birmənalı olaraq davam etdirəcəyik. Çünki hər iki ölkə üçün arxalanacağımız tərəfdaşlara və dostlara malik olmaq çox vacibdir.

Cənab Prezident, Azərbaycana bir daha xoş gəlmisiniz və mən sizə xoş səfər arzu edirəm.

Sonra Somali Prezidenti bəyanatla çıxış etdi.

### Prezident Hasan Şeyx Mahmudun bəyanatı

– Cənab Prezident, çox sağ olun. Münasibətlərimizin tarixində ilk dəfə Azərbaycana səfər etmək, Azərbaycana səfər edən ilk Somali Prezidenti olmaq mənim üçün həqiqətən də böyük şərəfdir.

Qardaş Azərbaycanın paytaxtı Bakıda olmaqdan, hörmətli qardaşım və dostum Prezident İlham Əliyevlə səmərəli müzakirələr aparmaqdan böyük şərəf və qürur hissi duyuram. Səmimi qəbula və qonaqpərvərliyə görə Zati-alinizə minnətdarlığımı bildirirəm. Mənim və nümayəndə heyətimin fikrincə, bugünkü görüşümüz çox məhsuldar keçib və bu, Somali-Azərbaycan münasibətlərində yeni eranın başlanğıcı deməkdir.

Bu səfər, sadəcə, diplomatik əməkdaşlıq deyil. Bu, həqiqətən iki qardaş ölkələrimiz arasında tərəfdaşlıq üzrə səmərəli və strateji müttəfiqliyin başlanğıcı deməkdir. Somali və Azərbaycanın inkişaf, təhlükəsizlik və tərəqqi ilə bağlı baxışları üst-üstə düşür. Bu gün biz, əsasən, tərəflər arasında daha sıx əməkdaşlığın dərinləşdirilməsinə sadiqliyimizi bildirdik. Mən, həmçinin Azərbaycan xalqını öz suverenliyini və ərazi bütövlüyünü qoruduğuna görə təqdir etmək istərdim.

Son üç onillikdə bir çox oxşarlıqlarımız mövcuddur. Xüsusilə, 1990-cı illərdə Azərbaycan müəyyən çətinliklərlə üzləşəndə, Somali də belə çətinliklərlə üzləşib. Xoşbəxtlikdən, Əlhəmdülillah, Azərbaycan xalqı dünyanın bu hissəsində sabit və firavan bir ölkə kimi qalib gəlməyə müvəffəq olub.

Biz Azərbaycanın qazandığı təcrübəni bölüşmək istərdik və Sizin praktik təcrübənizi öyrənməyə hazırıq. Cənab Prezident, qeyd etdiyiniz bütün əməkdaşlıq sahələri hər ikimiz və xüsusilə də Somali üçün çox faydalıdır. Somali çətin dövrdən çox parlaq gələcəyə keçid edən ölkədir. Somali zəngin resursları və böyük potensialı olan ölkədir. Lakin şərait inkişaf etməyə imkan verməyib. Azərbaycan kimi yaxşı tərəfdaşlarla ölkəmizin potensialı üzə çıxacaq və o, proqnozlaşdırılabilən olacaq. Azərbaycandan öyrənə biləcəyimiz digər əsas sahələr proqnozlaşdırılabilən siyasət və proqnozlaşdırılabilən inkişaf siyasətidir.

Bu gün imzaladığımız sazişlər Azərbaycanın təcrübəsindən istifadə etmək üçün strukturlu çərçivə rolunu oynayır, həmçinin ölkələrimiz və xalqlarımız üçün yeni imkanlar açır. Bu müqavilələrdən başqa, bizim bugünkü əməkdaşlığımız ölkələrimiz arasında möhkəm iqtisadi və diplomatik münasibətlərin əsasını qoyur. Somali Azərbaycanın enerji, infrastruktur, təhlükəsizlik və təhsil sahələrində liderliyini yüksək qiymətləndirir. Azərbaycanla bilik mübadiləsi və investisiya tərəfdaşlığı böyük fayda əldə edə biləcəyimiz sahələrdir.

Eynilə, Azərbaycan Somaliyə Afrikanın inkişaf edən bazarlarına, xüsusilə də ticarət və logistika sahələrində qapı kimi baxa bilər. Somalinin Hind okeanında və Qırmızı dənizdə strateji olaraq yerləşməsi ölkələrimiz üçün iqtisadi faydaların paylaşıla və araşdırıla biləcəyi qiymətli strateji ərazidir.

Cənab Prezident, bu gün, sadəcə, başlanğıcdır. Somali və Azərbaycan təkcə iqtisadi artım və təhlükəsizlik üçün baxışı bölüşmür. Biz xalqlarımız üçün daha yaxşı gələcək yaratmaq naminə möhkəmlik, qətiyyət və ambisiya ruhunu bölüşürük.

Zati-aliləri cənab Prezident, mən nümayəndə heyətlərinin səfərləri, ticarət mübadiləsi yolu ilə əlaqələrimizin daha da möhkəmlənməsini arzu edirəm. Somalinin texniki heyətləri Azərbaycana səfər etməyə və Azərbaycan hökumətinə, Azərbaycanın özəl sektoruna Somalidə mövcud olan və yeni yaranan imkanları təqdim etməyə hazırdır.

Cənab Prezident, bir daha Sizə minnətdarlığımı bildirirəm və Azərbaycan hökumətinə göstərdiyi səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirir, xalqlarımız arasında daha möhkəm, əmin gələcəyin olmasını arzulayıram.

İnşallah, Sizi müəyyən bir vaxtda Somalidə qarşılamağa ümid edirik.

Çox sağ olun, cənab Prezident.

***AZƏRTAC***

# Ölkəmiz qlobal Cənubla qlobal Şimal arasında mötəbər körpüyə çevrilib

*(əvvəli 1-ci səhifədə)*



**Aparıcı:** Aydındır. Cənab Prezident, Sizcə çoxqütblü dünyada Azərbaycanın yeri haradadır?

**Prezident İlham Əliyev:** Biz ən başdan, müstəqilliyimiz bərpa ediləndən bəri olduğumuz yerdəyik. Biz güclü iqtisadiyyat, yeri gəlmişkən, özünü təmin edən iqtisadiyyat qurduq. Ümumi daxili məhsula (ÜDM) nisbətdə xarici borcun səviyyəsi çox aşağıdır, cəmi 6,9 faizdir. Buna əsaslanaraq biz regionda bağlantılar yaradan genişmiqyaslı layihələr həyata keçirmişik və aid olduğumuz Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmuşuq. Əlbəttə ki, milli maraqlarımızı, həyat tərzimizi və müstəqil siyasətimizi qəti şəkildə müdafiə etmişik və çoxlu uğur qazanmışıq. Mən deyərdim ki, dünya xəritəsində nisbətən yeni olan Azərbaycanın öz milli maraqlarını müdafiə edən və bütün dünyada yaxşı əlaqələr quran ölkə kimi nümunəsi onu göstərir ki, cəmiyyətdə sabitlik, birlik varsa, siz öz maraqlarınızı müdafiə edə bilərsiniz.

**Aparıcı:** Cənab Prezident, Azərbaycanın hüdudlarından kənara baxdıqda ölkənizi çox proaktiv beynəlxalq oyunçu kimi görmək mümkündür. Məsələn, siz Ümumdünya Ticarət Təşkilatına üzv olmaq istəyirsiniz. Yeri gəlmişkən, bununla bağlı son vaxtlar Çinlə müzakirələr aparırsınız. Siz, həmçinin qlobal iqlim sammitinə ev sahibliyi etdiniz. Bu, nəhəng bir tədbir idi və bu siyahını davam etdirmək olar. Azərbaycanın proaktiv yanaşmasını görmək olar. Əminəm ki, cənab Prezident, Sizin planlarınız var və Siz irəliləməklə bağlı ətraflı düşünürsünüz.

**Prezident İlham Əliyev:** Sözsüz ki, bizim hədəfimiz Azərbaycanın dünyanın siyasi və iqtisadi xəritəsində öz yerini tutmasından ibarət idi. Təxminən 200 ölkəni bir araya gətirən İqlim konfransına ev sahibliyi etmək böyük çağırış, böyük məsuliyyət, eyni zamanda, böyük nailiyyət idi. Azərbaycanın şaxələnmiş xarici siyasətinin daha bir nümayişi ondan ibarət idi ki, bizim namizədliyimiz bütün iştirakçı dövlətlər və qurumlar tərəfindən dəstəkləndi.

**Aparıcı:** Təbriklər.

**Prezident İlham Əliyev:** Demək olar ki, təqribən 200 ölkə və beynəlxalq təşkilat Azərbaycanın namizədliyini yekdilliklə dəstəklədi. Bundan əvvəl biz 120 ölkəni birləşdirən, BMT Baş Assambleyasından sonra ikinci böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına 4 il ərzində uğurla sədrlik etdik. Bu onu göstərir ki, bizim dostluğa, əməkdaşlığa, heç bir ölkənin daxili işlərinə qarışmamağa əsaslanan siyasətimiz həqiqətən də beynəlxalq arenada dəstəklənir. Ona görə də biz belə qlobal, beynəlxalq bir tədbirə ev sahibliyi edə bilərik.

**Aparıcı:** Bir çoxları Ümumdünya Ticarət Təşkilatına daxil olmaqla bağlı müzakirələrinizi diqqətlə izləyir. Bu, böyük bir prosesdir, elə deyilmi?

**Prezident İlham Əliyev:** Bəli.

**Aparıcı:** İndi elə bir vaxt gəlib çatıb ki, proteksionizm daha da intensivləşib. Siz, həmçinin bəzi iqtisadiyyatların tarif alətindən istifadə etdiyinin, hətta bəzən digər iqtisadiyyatlara qarşı vahid tariflərin tətbiqinin şahidi olursunuz, eyni zamanda, qlobal təchizat zənciri müəyyən mənada pozulur. Nə üçün məhz indi Azərbaycan Ümumdünya Ticarət Təşkilatına daxil olmağın bu qədər vacib olduğunu düşünür?

**Prezident İlham Əliyev:** Əslində, bunun cavabı elə sizin sualınızdadır. Biz hələ də Ümumdünya Ticarət Təşkilatının üzvü deyilik, baxmayaraq, uzun illərdir, deyərdim, bir neçə onilliklərdir ki, danışıqların aktiv mərhələsindəyik. Bu prosesin məntiqi yekunlaşmamasının səbəbi sırf sizin dediklərinizdir. Proteksionizm, ikili standartlar, tariflər - bütün bunlar Ümumdünya Ticarət Təşkilatının təməl dəyərlərinə ziddir. Biz görürük ki, ölkələr öz bazarlarını qorumaq üçün tarifləri tətbiq edir, proteksionizm üsullarından istifadə edirlər və bu da Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə tamamilə ziddir.

Buna görə də biz danışıqlar prosesindəyik. Lakin, eyni zamanda, biz üstünlükləri və zəif tərəfləri ciddi qiymətləndiririk. Bizi narahat edən məqamlardan biri bizim indi müzakirə etdiyimiz mövzudur. Digəri isə ondan ibarətdir ki, bizim sənayemiz və ixrac potensialımız bunun üçün yaxşı hazır olmalıdır. Çünki bu vaxtadək bizim ixracın əsas hissəsi qazıntı enerji növləridir. Bunun üçün Ümumdünya Ticarət Təşkilatına üzv olmaq lazım deyil. Ölkə əmtəələrini bazarda satır.

Beləliklə, bazarlarını bütün dünyaya açmaqla Ümumdünya Ticarət Təşkilatına üzv ölkələr rəqabəti artıracaq. Lakin, eyni zamanda, onlar yerli istehsalçıların maraqlarına ziyan vura bilərlər. Beləliklə, biz bu prosesi balanslaşdırırıq və gələcək danışıqlar prosesində maksimum müsbət şərtləri əldə etməyə çalışırıq. Mən artıq demişəm ki, Azərbaycanın iqtisadiyyatı özünü təmin edir. Bizim ÜDM-ə münasibətdə ən aşağı səviyyəli xarici borcumuz var. Bizim konvertasiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir. Beləliklə, hər hansı əlavə bir imtiyaz lazım deyil. Biz malik olduqlarımızı itirmək istəmirik. Lakin, eyni zamanda, təşkilata qoşulma ilə bağlı bütün təkliflərimiz, – istər ikitərəfli əlaqələr istiqamətində ölkələrlə danışıqlar prosesində, istərsə də ümumilikdə təşkilatla bağlı, - qəbul olunarsa, hesab edirəm ki, proses daha da rəvan gedər.

**Aparıcı:** Mənim bildiyimə görə, son xəbərlərə əsasən Azərbaycanın danışıqlar komandası Çinin danışıqlar komandası ilə təmasdadır, o cümlədən yanvar ayında. Mən hər iki tərəfdən müsbət reaksiya görürəm.

**Prezident İlham Əliyev:** Bəli, bu, həqiqətdir. Çünki bildiyiniz kimi, ötən il Çin və Azərbaycan rəsmi olaraq strateji tərəfdaş oldular. Ötən yay mənim Çinin Sədri ilə görüşümdən sonra strateji tərəfdaşlıq üzrə müvafiq Bəyannamə qəbul edildi və bu, bizim ikitərəfli əlaqələrdə çox mühüm siyasi addımdır. Strateji tərəfdaşlıq çox yüksəksəviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir və biz təkcə Ümumdünya Ticarət Təşkilatına deyil, müxtəlif beynəlxalq təşkilatlara qoşulma məsələsi daxil olmaqla Çin ilə tərəfdaşlığımızın genişləndirilməsini arzulayırıq.

**Aparıcı:** Sizinlə artıq növbəti suala gəldik, cənab Prezident. Biz Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında müşahidəçi qismində olduğunu görürük. Bu arada Siz BRICS-in üzvü olmaq üçün fəal addımlar atırsınız. Beləliklə, təhlükəsizlik, ticarət, iqtisadi inkişaf və hər kəs üçün uduşlu bir vəziyyət nöqteyi-nəzərindən Qlobal Cənubla bağlı olan müzakirələri necə görürsünüz?

**Prezident İlham Əliyev:** Əslində, Şanxay Əməkdaşlıq Təşkilatına gəldikdə, ölkəmizin statusu müşahidəçi deyil, dialoq üzrə tərəfdaşdır. Bu, həmin beynəlxalq təşkilatla daha da yaxın olmaq üçün güclü qarşılıqlı iradənin nümayişidir. Əlbəttə ki, beynəlxalq təşkilatlarla işləyəndə və ya onlarla daha yaxın olmaq istəyəndə siz təşkilatın tərkibinə, üzv ölkələrinə nəzər salırsınız. Şanxay Əməkdaşlıq Təşkilatının və BRICS-in bütün üzv dövlətlərinin Azərbaycanla çox yaxşı və dost münasibətləri var. Bundan başqa, bizim coğrafi mövqeyimiz, Cənubi Qafqaz və Xəzər regionunda vahid məqsədlərə töhfəmiz nöqteyi-nəzərindən əhəmiyyətli olacaq. Əlbəttə ki, Çin və Mərkəzi Asiya ölkələri ilə üzərində fəal iş apardığımız məsələlər, həmçinin bağlılıq layihələridir. Çünki Azərbaycan artıq müasir nəqliyyat infrastrukturu ilə Şərqdən Qərbə gedən yol üzərində yerləşir. Beləliklə, biz praktiki nəticələr nöqteyi-nəzərindən çoxlu töhfə verə bilərik.

Əlbəttə ki, istənilən təşkilata qoşulmaq siyasi addımdır, lakin həmin iqtisadiyyat ölkələri daha da birləşdirən praktiki infrastruktur layihələri ilə dəstəklənməlidir. Qlobal Cənubun bir hissəsi olaraq biz Qlobal Cənubun maraqlarını müdafiə etmişik və yeri gəlmişkən, COP29-a qayıdaraq bizim ideyalarımızdan biri Qlobal Cənubla Qlobal Şimal arasında daha möhkəm körpülər qurmaq idi. Çünki COP29-a ev sahibliyi edən ölkə kimi biz gördük ki, iqlim məsələlərinə gəldikdə, hər iki tərəf müəyyən səviyyədə bir-birinə etibar etmir və söhbət təkcə iqlimdən getmir.

**Aparıcı:** Bundan əlavə, boşluq xeyli böyükdür.

**Prezident İlham Əliyev:** Elədir.

**Aparıcı:** İndiyədək daha nələri müşahidə etmisiniz?

**Prezident İlham Əliyev:** Əslində, biz iqlim dəyişikliyi ilə bağlı məsələlərlə dərindən məşğul olmağa başlayanda iqlim dəyişikliyi səbəbindən ekzistensial təhlükə ilə üzləşən ölkələrdə yüksək dərəcədə narazılığın olduğunu gördük. Biz hamımız bundan əziyyət çəkirik, o cümlədən Azərbaycan. Lakin elə ölkələr var ki, - xüsusilə kiçik ada dövlətləri, - onların mövcudluğuna təhlükə var. Bəzən onların məsələsi gündəliyə daxil olmur, biz isə bunu etdik. Bakıda keçirilən COP29-da ən mühüm tədbirlərdən biri inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə görüşü idi. Orada Azərbaycan bu ölkələrə əməli dəstək göstərmək üçün çox iddialı gündəlik irəli sürdü. Aydın məsələdir ki, böyük aktorların birgə yanaşması olmadan həmin ölkələri və iqlim məsələləri ilə məşğul olmaq üçün maddi ehtiyatları olmayan ölkələri dəstəkləmək çətin olacaq. Düşünürəm ki, üzərinə bu yükü götürən ölkələrin məsuliyyəti daha çox iş görməkdir. Qlobal Cənub tamamilə obyektiv olaraq dünyanın ən zəngin ölkələrindən daha çox dəstək gözləyir.

**Aparıcı:** Cənab Prezident, Sizin xüsusilə qeyd etdiyiniz kimi, maliyyədə boşluq var idi. Maliyyədəki bu boşluq, xüsusilə inkişaf etmiş iqtisadiyyata malik ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrə bundan əvvəl verilərək yerinə yetirilməmiş vədlərlə bağlı idi. Lakin görünür ki, dünya daha çox ziddiyyətli olur, daha çox parçalanır. Bunu bəziləri etimad çatışmazlığı da adlandırırlar. Bu keçid dövründə, siyasi etimadın azala biləcəyi bir vaxtda bir Lider ölkəsi üçün necə qərar qəbul edir? Düşünürəm ki, söhbət ciddi təzyiq və ətraflı dəyərlənmədən gedir.

**Prezident İlham Əliyev:** Zənnimcə, Azərbaycanın müxtəlif mühitlərdə özünü rahat hiss etməsinin əsas amillərindən biri ondan ibarətdir ki, biz üzərimizə düşənlərlə əlaqədar artıq xeyli iş görmüşük. Biz sabit iqtisadiyyat qurmuşuq, sabit siyasi sistemimiz var, insanların yaşayış səviyyəsini yaxşılaşdıran çoxlu sosial proqramlar həyata keçiririk, yoxsulluq səviyyəsini təxminən 5 faizə endirməyə nail olmuşuq və müxtəlif beynəlxalq aktorlarla güclü tərəfdaşlıq və əlaqələrlə biz müəyyən vasitəçi rolunu oynayırıq.

Mən artıq Çinlə olan strateji tərəfdaşlıq Bəyannaməmizlə bağlı danışdım. Lakin, eyni zamanda, biz Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalamışıq. Türkiyə, Özbəkistan və Rusiya ilə müttəfiqlik bəyannaməsi imzalamışıq. Şaxələnmiş bu xarici siyasət istiqaməti, sadəcə, siyasətə deyil, mahiyyətə əsaslanır. Hər bir sahədə bizim əməli nəticələrimiz, əməkdaşlıq proqramlarımız var. Digər ölkələr kimi bizim də xarici siyasətimiz, sadəcə olaraq, daxili siyasətimizin davamıdır. Azərbaycanın təkcə Mərkəzi Asiya, Xəzər və Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada regional sabitliyə, regional sülhə verdiyi töhfə artıq qlobal, beynəlxalq aktorlar tərəfindən yüksək qiymətləndirilir.

Bizim mövqeyimiz ondan ibarətdir ki, əgər hər bir ölkə diqqətini, sadəcə, öz gündəminə yönəltsə, başqa ölkənin işlərinə müdaxilə etməyə çalışmasa, münaqişələr, narazılıqlar, müharibələr olmaz. Bütün dünyada hələ də qeyri-sabit vəziyyətin olmasının və qan tökülməsinin yeganə səbəbi ondan ibarətdir ki, imperialist keçmişi olan ölkələr, sadəcə olaraq, müdaxilə etməyə, dominantlıq etməyə, diktə etməyə davam etmək istəyir və bu, təbii olaraq, müqavimətə gətirib çıxarır.

Biz özümüzü daxili işlərə müdaxilədən qorumağa müvəffəq olduq. Lakin heç də hər bir ölkə bunu etmək üçün potensiala malik deyil. Əgər ölkə iqtisadi cəhətdən asılıdırsa, o zaman sözsüz ki, onun müqavimət göstərmək və öz milli maraqlarını müdafiə etmək üçün daha az imkanı olacaq. İqtisadiyyat hər şeyin əsasını təşkil edir. İdeologiya, iqtisadiyyat və milli ideyalar - bunlar hamısı birlikdə Azərbaycanı bizim layiq olduğumuz yerə gətirib çıxardı.

**Aparıcı:** Cənab Prezident, Siz Dünya İqtisadi Forumunun ilk günündən burada olduğunuza görə, artıq qarşıdakı bir neçə həftə və aylarla bağlı ciddi qeyri-müəyyənliyin və narahatlığın olduğunu hiss edə bilərsiniz. Məsələn, Vaşinqtonda administrasiya dəyişikliyi ilə əlaqədar insanlar onun yürüdəcəyi siyasətin necə ola biləcəyi barədə düşünürlər. Siz bununla əlaqədar qeyri-müəyyənliklərə və idarəçilik üslubuna necə baxırsınız?

**Prezident İlham Əliyev:** Mənim müşahidələrimə görə, əsas qeyri-müəyyənlik Avropa liderləri arasındadır. Azərbaycana gəlincə, bizdə heç bir qeyri-müəyyənlik yoxdur. Biz Prezident Trampın ABŞ-a rəhbərlik etdiyi zamanı xatırlayırıq və son 4 ildə Bayden administrasiyasının Azərbaycana ədalətsiz yanaşması səbəbindən əlaqələrimizin tamamilə korlanmasından fərqli olaraq, bizim əlaqələrimiz çox uğurla inkişaf edirdi. Beləliklə, Prezident Trampla birgə işləməklə bağlı əvvəlki təcrübəmiz çox müsbət idi. Biz gözləyirik ki, ABŞ-Azərbaycan münasibətlərində itirilmiş illər hesab etdiyimiz bu 4 il artıq tarixə qovuşacaq və biz yenidən başlayacağıq.

Lakin Avropa liderləri arasında ciddi qeyri-müəyyənlik və deyərdim, ciddi narahatlıq var. Səbəbi isə çox sadədir. Biz hamımız onların bəzilərinin son 4 ildə cənab Tramp prezident olmadığı dövrdə ona necə münasibət göstərdiyini bilirik. Hamımız onların əksəriyyətinin budəfəki prezident seçkilərində kimi dəstəklədiyini bilirik. Əgər biz bunu biliriksə, sözsüz ki, Prezident Tramp bunu daha yaxşı bilir. Artıq mən deyərdim, ilk diskvalifikasiya var. Bu, Kanadanın Baş naziridir. Prezident Trampın onun barəsində dediyi cəmi bir kəlmə kifayət etdi ki, o, istefa versin.

Bu, yalnız müəyyən siyasi proseslər səbəbindən baş vermədi. Bu, ona görə baş verdi ki, bəzi Qərb liderləri Prezident Trampa qarşı çox ədalətsiz idilər və sözsüz ki, onlar narahatdırlar, indi onların buna görə cavabdeh olmasının vaxtı gəlib çatıb. Bu, mənim fikrimdir. Ola bilsin mən yanılıram. Lakin mən ABŞ-da dəyişikliklə bağlı narahat olmaq üçün başqa ciddi səbəb görmürəm. Düşünürəm ki, dünya daha təhlükəsiz ola bilər. Prezident Trampın ilk prezidentliyi dövründə ABŞ heç bir müharibəyə başlamadı. Əgər ABŞ-ın ən azı bir neçə onilliklər ərzində tarixinə nəzər salsaq, bu, nadir bir təcrübə idi. Azərbaycana gəlincə, biz əminik və nikbin fikirdəyik.

**Aparıcı:** Siz, sözsüz ki, müşahidəçi kimi Çinlə ABŞ arasında qarşılıqlı əlaqələri necə görürsünüz? Cənab Trampın ABŞ-ın 47-ci prezidenti kimi andiçmə mərasimindən əvvəl Çin və ABŞ prezidentləri telefonla danışdılar. Onlar dünyanın təhlükəsizliyi və inkişafı naminə necə əməkdaşlıq edə biləcəkləri barədə danışdılar. Dünyanın böyük iqtisadiyyatına malik iki ölkəsi arasında qarşılıqlı əlaqələri necə görürsünüz?

**Prezident İlham Əliyev:** Bəli, bu, dünya üçün çox yaxşı bir xəbər idi ki, Çin və ABŞ rəhbərləri yenidən təmasdadırlar.

**Aparıcı:** Siz onların ikisini də kifayət qədər yaxşı tanıyırsınız?

**Prezident İlham Əliyev:** Sədr Sini daha yaxşı tanıyıram, çünki onunla dəfələrlə görüşmüşəm. Prezident Trampla rəsmi görüşüm olmayıb, sadəcə, bir-birimizin əlini sıxmışıq. Bununla belə, bu, dünya, dünya iqtisadiyyatı, sabitlik üçün yaxşı bir işarə, siqnaldır. Çünki Çin və ABŞ dünyanın iki ən böyük iqtisadiyyatına malik aparıcı ölkələrdir. Əlbəttə ki, müxtəlif məsələlərdə onların arasında konsensusun olması, qarşıdurmanın deyil, əməkdaşlığın olması sözsüz ki, bütün ölkələrin xeyrinə olacaq. Ona görə də biz həmin telefon danışığı barədə xəbər aldıqda bundan məmnun olduq. Ümidvarıq ki, bu sıx tərəfdaşlıq prosesi davam edəcək.

**Aparıcı:** Xatırlayıram ki, bir neçə il bundan əvvəl, elə Dünya İqtisadi Forumunda mən, Cənab Prezident, Sizin Orta Dəhlizin potensialı barədə ətraflı şəkildə danışdığınız panel sessiyaya moderatorluq etmək şərəfinə nail olmuşdum. Həmin ili xatırlayırsınız, elə deyilmi?

**Prezident İlham Əliyev:** Bəli, əlbəttə.

**Aparıcı:** Siz region və region hüdudlarından kənar siyasi və biznes liderləri ilə birlikdə idiniz.

**Prezident İlham Əliyev:** Bəli.

**Aparıcı:** İllər keçdi və bu, baxışdan reallığa çevrilir.

**Prezident İlham Əliyev:** Doğrudur.

**Aparıcı:** Sizinlə yanaşı, bir çox tərəfdaşlarınız, o cümlədən Çin bu yolun əhəmiyyətini daha da artırdı. Orta Dəhlizin əhəmiyyəti Sizcə nədədir? Çin və sözsüz ki, digər tərəfdaşların da iştirakı ilə bu, bir növ regionu canlandırıb. Bu, parçalanmadan narahat olan dünyaya necə alternativ təklif edir?

**Prezident İlham Əliyev:** Bəli, bu, sözsüz ki, alternativ təklif edir. Bu, biznes imkanlar təmin edir. Çünki Azərbaycanın Orta Dəhlizlə bağlı mövqeyi, sadəcə, tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Bizim hədəfimiz özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır. Əlbəttə ki, sizin istinad etdiyiniz paneldən bəri bu sahədə, o cümlədən Çin-Azərbaycan münasibətlərində bir çox hadisələr baş vermişdir. Artıq qeyd etdiyimiz kimi, biz strateji tərəfdaşıq, lakin, eyni zamanda, Orta Dəhlizin Azərbaycan seqmentinin infrastrukturu təkmilləşdirilmişdir. Hazırda biz görürük ki, bu təkmilləşdirilmiş infrastruktur gələcək 3-5 il üçün kifayət etməyəcək.

**Aparıcı:** Bəli, mən görürəm, Sizin həmişə yeni məqsədləriniz var.

**Prezident İlham Əliyev:** Bəli, elədir ki, var. Çünki bizim hədəfimiz ticarət limanında 15 milyon ton yükaşırma qabiliyyətinə malik olmaq idi və bu da onilliklər ərzində yetərli olardı. Lakin indi biz ola bilsin ki, növbəti 5-6 ildə 25 milyon ton yük qəbul etməyi gözləyirik. Beləliklə, biz hazırda dəniz ticarət limanımızın və dəmir yolu infrastrukturumuzun genişləndirilməsini maliyyələşdiririk.

Biz Mərkəzi Asiyada bağlantı layihələrinin də əsasən Çin hökuməti tərəfindən maliyyələşdirildiyini bilirik. Xəzər dənizinə digər bir marşrut Azərbaycana gedən digər marşrutdur və biz buna mütləq hazır olmalıyıq. Əminəm ki, Sədr Si Cinpinin “Bir kəmər, bir yol” təşəbbüsü bütün ölkələr üçün əlavə imkanlar yaradacaq. Bir daha söhbət bağlantıdan, biznes imkanından, sabitlik və təhlükəsizlikdən gedir. Çünki biz hamımız bir-birimizdən asılı oluruq. Bizi birləşdirən vacib infrastruktur layihələri var. Bu, ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr istiqamətində bir sıra məsələlərin həlli üçün yaxşı bir mühitdir.

**Aparıcı:** Çin yaşıl texnologiya sahəsində sürətlə inkişaf edir və əlbəttə ki, öz təcrübəsini dünya ilə bölüşür. Mən onu da anlayıram ki, Sizin çox aktiv yaşıl gündəliyiniz var. Məsələn, Çinlə birlikdə müəyyən elektrik stansiyalarının üzərində iş gedir. Zəngin qazıntı enerji növlərinə malik olan ölkənizin, iqtisadiyyatınızın yaşıl enerjiyə baxışı necədir?

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, qazıntı enerji növlərinə malik olan ölkələrin məsuliyyəti əldə etdikləri gəlirləri yaşıl texnologiyaya və yaşıl enerjiyə investisiya etməkdən ibarətdir. Biz məhz bunu edirik. Biz investorlar üçün yaxşı investisiya mühitini yaratdıq. Bizim 2027-ci ilə qədər olan hədəfimiz 2 giqavat həcmində Günəş və külək elektrik enerjisini hasil etməkdir. 2030-cu ilə qədər isə bu hədəf 6 giqavatdır. Bu, Azərbaycanda enerji sahəsində bir inqilab olacaqdır. Onu da qeyd etmək istəyirəm ki, bu layihələrə sərmayə yatıran xarici şirkətlər olan investorlar, o cümlədən Azərbaycandan olan yerli şirkətlər Çin texnologiyasından istifadə edirlər. Günəş panelləri Çində istehsal olunur. İndi bizim heyətlərimiz enerjinin tədarükü imkanları üzərində işləyirlər və biz ən yaxşı batareyaların Çində istehsal olunduğunu müəyyən etmişik. Mən bu möhtəşəm uğur münasibətilə Çin istehsalçılarını təbrik edirəm. Çünki burada söhbət məhsulun keyfiyyəti və qiymətindən gedir. Heç kim bu rəqabəti apara bilmir.

**Aparıcı:** Bu, xüsusilə Qlobal Cənub ölkələri üçün vacibdir.

**Prezident İlham Əliyev:** Bəli. İndi Çin şirkətləri təkcə xidmət və texnologiyaların təmin edilməsində yox, həmçinin Azərbaycana investisiya yatırmaqda maraqlıdırlar və bu proses artıq gedir. COP29-da biz Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Xəzər dənizinin dibi ilə enerji kabelinin çəkilməsi barədə bir müqavilə imzaladıq. Beləliklə, biz Mərkəzi Asiya ilə Azərbaycanı və potensial olaraq Çini enerji kabeli ilə bir-biri ilə bağlayacağıq. Digər bir layihədə belə bir kabel xətti Qara dənizin dibi ilə Azərbaycandan Avropaya uzanacaq.

Bu, növbəti bir bağlantı layihəsidir. Bu, yaşıl enerji üçün bir dəhlizdir və onun nəhəng potensialı var. Çünki Azərbaycanın külək və Günəş enerjisi potensialı artıq bəllidir və bu, bizim təsəvvürə gətirə biləcəyimizdən qat-qat artıqdır. Beləliklə, bizə bazarlar, texnologiya və əməkdaşlıq lazımdır. Çünki qonşu ölkələr arasında əməkdaşlıq olmadan bu layihələrin icrası mümkün deyil. Beləliklə, potensial buradadır və siz qeyd etdiyiniz kimi, Azərbaycan yaşıl keçiddə çox fəal rol oynayır.

**Aparıcı:** Bu necə olur, prosesin hər bir mərhələsində Azərbaycan və Çin bir-biri ilə təmasda olur. Bu heyrətamizdir, elə deyilmi?

**Prezident İlham Əliyev:** Bəli.

**Aparıcı:** Hər iki ölkə həmişə bir-birini öz planlarına daxil edir.

**Prezident İlham Əliyev:** Bu, həqiqətən də ciddi geosiyasi sinerjiyə çevrilib.

*(ardı 4-cü səhifədə)*

# Ölkəmiz qlobal Cənubla qlobal Şimal arasında mötəbər körpüyə çevrilib

*(əvvəli 3-cü səhifədə)*

**Aparıcı:** İndi qeyd edilmiş strateji tərəfdaşlıq hər şeyi təkmilləşdirir.

**Prezident İlham Əliyev:** Bəli, elədir ki, var. Həmçinin bu yaxınlarda biz Çin vətəndaşlarını viza almaq tələbindən azad etdik. Beləliklə, indi Çin vətəndaşları heç elektron viza üçün də müraciət etmək məcburiyyətində deyillər. Ümidvarıq ki, tezliklə Azərbaycan vətəndaşları da bu fürsətdən yararlanacaq. Beləliklə, bu, turistlərin sayını, xalqlar arasında təmasları artıracaq və əlbəttə ki, ictimai diplomatiya öz rolunu oynayacaq. İndi biz rəsmi diplomatik kanallardan istifadə edirik - siyasi, iqtisadi, ticari, investisiya, bağlantı. Lakin ictimai diplomatiya buna çoxlu töhfə verəcəkdir.

**Aparıcı:** Sonda iki sualım var. Birincisi, Çin iqtisadiyyatı ilə bağlıdır. Bildiyiniz kimi, cənab Prezident, Azərbaycan və Çin xüsusilə iqtisadi-ticari sahədə bir-biri ilə sıx əməkdaşlıq edirlər. Çin iqtisadiyyatı keçid dövrünü yaşayır. O, yeni inkişaf nöqtələrini axtarır və eyni zamanda, böyük potensiala malikdir. Çin iqtisadiyyatının cari vəziyyəti haqqında nə düşünürsünüz və Qlobal Cənub iqtisadiyyatı olaraq Siz Çində bu iqtisadiyyatın xüsusiyyətində nəyi görürsünüz?

**Prezident İlham Əliyev:** Mən bildiyimə görə, - mən yeni planlar haqqında dərindən məlumatlı deyiləm, lakin bizim müşahidə etdiklərimizə əsasən, - Çin iqtisadiyyatı çox sabitdir və bu, qlobal iqtisadiyyatın mühüm bir amilidir. Qazıntı enerji növləri üzrə sabit qiymətlərə ehtiyacı olan Azərbaycan kimi ölkə üçün Çin iqtisadiyyatı da mühüm bir amildir. Çin iqtisadiyyatı sürətlə inkişaf etdikcə, qazıntı enerji növünə olan tələbat daha da artır. Odur ki, biz Çin iqtisadiyyatının həmişə inkişaf etməsi nöqteyi-nəzərindən maraqlıyıq. Lakin bu, asan deyil. Çünki iqtisadiyyatınız ildən-ilə artdıqca, müəyyən bir təməl həcmə nail olunur və ondan sonra iqtisadiyyatın artırılmasına davam etmək o qədər də asan olmur.

**Aparıcı:** Gözləntilər də çox böyük olur.

**Prezident İlham Əliyev:** Bəli, gözləntilər çox böyükdür. Lakin mən əminəm ki, istedadlı Çin xalqı bir həll yolunu tapacaqdır. Əminəm ki, onlar artıq yeni inkişaf nöqtələrinə çatıblar, çünki sizin ölkəniz texnologiyada liderdir və Azərbaycanda bir çox Çin şirkətləri öz xidmətlərini və texnologiyasını təmin edir. Bizim indicə müzakirə etdiyimiz kimi, yaşıl texnologiya sahəsində heç kim sizinlə rəqabət apara bilməz. Dünyanın müxtəlif yerlərindən olan, müxtəlif şirkətləri təmsil edən investorlarımız bu tutumları quraşdırmaq üçün Çin texnologiyasını seçirlər.

**Aparıcı:** Cavabınız üçün təşəkkür edirəm. Son sualım. Deyə bilərəm ki, dünya çox sürətlə dəyişir. Lakin cənab Prezident, hər dəfə Sizinlə danışanda mənə elə gəlir ki, ölkəniz çox güclü təməl üzərində dayanıb. Mənə maraqlıdır, bu, təkcə özünüz barədə yox, bu gün olan liderlik haqqında nəyi bildirir? Xüsusilə bütün bu dəyişikliklərin baş verdiyi bir vaxtda.

**Prezident İlham Əliyev:** Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır.

Lakin bizə gəldikdə, iyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma biz ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Beləliklə, ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız.

**Aparıcı:** Təşəkkür edirəm, cənab Prezident. Bildiyiniz kimi, bu il Dünya İqtisadi Forumundan dərhal sonra Çin Yeni İli qeyd olunacaq. İstərdim ki, Siz öz çinli dostlarınıza və böyük Çin xalqına bu münasibətlə ürək sözlərinizi deyərək, bizi bu şərəfə nəsib edəsiniz. Çin Yeni İlidir, ona Bahar bayramı da deyilir. Bu il ilan ilidir və insanlardan çevik olmasını tələb edir. Bu, bir ənənədir.

**Prezident İlham Əliyev:** Mən Çin xalqını Çin Yeni İli münasibətilə təbrik etmək və bütün dostlarımıza tərəqqi, sülh, sabitlik və səadət arzulamaq istəyirəm. Çin və Azərbaycan 6-7 ay bundan əvvəl strateji tərəfdaş oldular. Bu, hətta bundan daha da yaxşı dost olmaq üçün bizim qarşılıqlı iradəmizi nümayiş etdirən yüksəksəviyyəli tərəfdaşlıqdır. Fürsətdən istifadə edərək, çinli dostlarımızı Azərbaycanı ziyarət etməyə dəvət edirəm. Onlara bunu etmək üçün artıq viza tələb olunmur. Sadəcə, bilet alıb gələ bilərlər və Azərbaycanın necə inkişaf etdiyini görə bilərlər və özlərinə yeni dostlar qazana bilərlər. Əminəm ki, xalqlararası təmaslar ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxın edəcək. Yeni İliniz mübarək olsun!

**Aparıcı:** Çox sağ olun, cənab Prezident. Ümid edirəm ki, bu il Azərbaycan xalqı üçün də möhtəşəm bir il olacaqdır.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Aparıcı:** Çox sağ olun.

***AZƏRTAC***

# Somali Prezidenti Fəxri xiyabanda



**Ölkəmizdə rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud fevralın 12-də Fəxri xiyabanda xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələri yad edilib, məzarları üstünə gül dəstələri qoyulub.

# Somalidə də "ASAN xidmət" brendi tətbiq ediləcək



**Fevralın 12-də Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev qonağa Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış "ASAN xidmət" mərkəzləri və sosial innovasiyalar istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.**

Ali qonağa "ASAN xidmət" modeli ilə bağlı təqdimat edilib. Hazırda Azərbaycanın intellektual brendinin 20-dən çox ölkəyə ixrac edildiyi diqqətə çatdırılıb.

Hasan Şeyx Mahmud Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılan "ASAN xidmət"in onda yüksək təəssürat yaratdığını və əhalinin dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsində mühüm rol oynadığını vurğulayıb. Həmçinin o, "ASAN xidmət"in dövlət xidmətlərinin göstərilməsi sahəsində ən yüksək peşəkarlıq və səmərəlilik səviyyəsi olduğunu, burada vətəndaşların işlərini sürətləndirmək üçün yaxşı imkanların yaradıldığını bildirib. Somali Prezidenti Azərbaycan təcrübəsi əsasında ölkəsində dövlət xidmətləri mexanizminin yenilənməsinə və bununla bağlı verilən dəstəyə görə Azərbaycan Prezidentinə minnətdarlığını ifadə edib.

Həmçinin ali qonağa "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, Səyyar ASAN xidmət, "ABAD" publik hüquqi şəxsin fəaliyyəti ilə əlaqədar ətraflı məlumat verilib.

Qeyd edək ki, bu gün Azərbaycan Respublikası ilə Somali Federativ Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun iştirakı ilə mübadiləsi mərasimi olub.

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Somali Federativ Respublikasının Prezidentinin Ofisi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Somali Prezident Aparatının rəhbəri Abdihakim Mohamed Yusuf mübadilə ediblər.

# E.Ş.Bağırovun Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elnur Şəmistan oğlu Bağırov Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 fevral 2025-ci il**




# Ukraynaya növbəti humanitar yardım

**Bu gün Ukraynaya elektrik avadanlıqlarından ibarət humanitar yardımın ikinci hissəsi Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb.**

Azərbaycan Prezidenti İlham Əliyevin 5 fevral 2025-ci il tarixli sərəncamına əsasən, sözügedən yardımın təşkili məqsədilə bir milyon dollar manat ekvivalentində vəsait ayrılıb və yardımın birinci hissəsi 7 fevralda göndərilib.

Jurnalistlərə açıqlamasından Energetika Nazirliyinin şöbə müdiri Ələsgər Həsənov bildirib ki, adıçəkilən sərəncam çərçivəsində iki hissədə göndərilmiş humanitar yükə ümumilikdə 52 min metrdən çox elektrik kabeli və naqil, habelə 17 ədəd transformator daxildir. Onun sözlərinə görə, Ukrayna tərəfindən daxil olmuş müraciətə əsasən, qeyd edilən avadanlıqlar müharibədən zərər çəkmiş ərazilərin elektrik enerjisi ilə dayanıqlı təchizatının bərpası üçün nəzərdə tutulur.

Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuri Qusevin bildirib ki, İrpen şəhərinin bərpa olunmasında, xəstəxananın və məktəbin yenidən qurulmasında Azərbaycanın böyük dəstəyi var: "Azərbaycan Prezidenti İlham Əliyevə, Energetika və Xarici İşlər nazirliyinə enerji sistemimizin bərpası üçün göstərilən humanitar yardıma görə minnətdarlığımızı bildiririk. Biz bunu çox yüksək qiymətləndiririk və Azərbaycandan aldığımız dəstəyi heç vaxt unutmayacayıq. Azərbaycandan olan dostlarımız və tərəfdaşlarımızla birlikdə yeni layihə üzərində çalışırıq. Layihənin bu il başlayacağını gözləyirik. Bu, Laçın şəhəri ilə qardaşlaşmış şəhər olan İrpendə uşaqlar üçün incəsənət, idman məktəbi və digər sosial infrastrukturla bağlı layihədir. Ötən il İrpen şəhərinin meri Azərbaycana səfər edib və biz Azərbaycanın bəzi regionları ilə daha geniş regionlararası əməkdaşlıq edəcəyimizə ümidvarıq. Yaşasın Ukrayna, yaşasın Azərbaycan!"

Xatırladaq ki, mövcud vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən Ukraynaya göstərilmiş yenidənqurma və humanitar məqsədli yardımların ümumi məbləği 40 milyon dolları keçib. Bugünədək elektrik avadanlıqları qismində 134 ədəd transformator və komplekt transformator məntəqəsi, 70-ə yaxın generator, habelə təxminən 3,4 milyon metr elektrik kabeli və naqil humanitar yardım kimi Ukraynaya yola salınıb.

***XQ***

# "ASAN xidmət": ən yüksək peşəkarlıq




**"ASAN xidmət" əla təcrübədir və biz onun fəaliyyəti ilə bağlı çoxlu məlumat əldə edə bildik. Bu, dövlət xidmətlərinin göstərilməsi sahəsində ən yüksək peşəkarlıq və səmərəlilik səviyyəsidir. Burada vətəndaşların işlərini sürətləndirmək üçün yaxşı imkanlar yaradılıb".**

Jurnalistlərə bu müsahibəsinin davamında Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud deyib: "Biz somalili olaraq azərbaycanlı qardaşlarımızın və Azərbaycan hökumətinin atdığı addımları yaxından izləmək qərarına gəldik. Azərbaycan rəhbərliyi Somaliyə öz ictimai xidmətində yeniliklər yaratmaqda dəstək verəcəyini vəd etdi. Biz bunu mümkün qədər tez etmək niyyətindəyik. Somali bərpaolunan və sürətlə inkişaf edən bir ölkədir. Bizim bu cür xidmətlərə ehtiyacımız var və ona görə də düşünürəm ki, Azərbaycanın təcrübəsindən yararlanacağıq".

# Hasan Şeyx Mahmud Zəfər parkında

**Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud fevralın 12-də Bakıda Zəfər parkını ziyarət edib. Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.**



Somali Prezidenti parkdakı Zəfər abidəsinin önünə əklil qoydu.

Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi. Bildirildi ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Xatırladaq ki, 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə parkın açılışı olub.

# Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin (bundan sonra – Agentlik) Aparatının işçilərinin say həddi 214 ştat vahidi, regional bölmələrinin işçilərinin say həddi 105 ştat vahidi müəyyən edilsin.

4. Müəyyən edilsin ki:

4.1. Agentlik Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – Xidmət) hüquqi varisidir, onun bütün hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir;

4.2. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı təsdiq edilənədək Xidmətin strukturuna daxil olmayan tabeliyindəki qurumlar fəaliyyətini davam etdirirlər və onların strukturu, işçilərinin say həddi, vəzifə maaşları, əməyin ödənilməsi sistemi, xidmətkeçmə ilə bağlı hüquq və vəzifələri bu Fərmanın 5.1-ci bəndi icra olunanadək dəyişməz qalır;

4.3. ölkədə dövlət əyar nəzarətini və qiymətli metalların, qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi, habelə emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətini, həmçinin emal edilməmiş almazın idxalına və ixracına rəy verilməsini Agentlik bilavasitə və tabeliyindəki qurumlar vasitəsilə həyata keçirir.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Agentliyin təklifləri əsasında, onun strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanı ilə ləğv edilmiş Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidmətinin əmlakının Agentliyin balansına verilməsini üç ay müddətində təmin etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. Xidmət üçün nəzərdə tutulmuş büdcədənkənar vəsaitin qalıq hissəsinin Agentliyə verilməsini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə təmin etsin;

6.2. Agentliyin cari ildə fəaliyyətinin təşkili üçün zəruri maliyyələşməni təmin etsin;

6.3. Agentliyin fəaliyyətinin təşkili üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

7. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529) aşağıdakı dəyişikliklər edilsin:

7.1. preambuladan "əyar," sözü çıxarılsın;

7.2. 10-cu hissə ləğv edilsin;

7.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə I – "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturu"nun 6-cı hissəsi ləğv edilsin;

7.4. həmin Fərmanla təsdiq edilmiş Əlavə II – "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə" üzrə:

7.4.1. 1-ci hissədə ", qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və dövriyyəsi sahələrində" sözləri "sahəsində" sözü ilə əvəz edilsin;

7.4.2. 7-ci hissə üzrə:

7.4.2.1. 7.5-ci bənd ləğv edilsin;

7.4.2.2. 7.11-ci bənddən "qiymətli metallar və qiymətli daşlara nəzarət," sözləri çıxarılsın;

7.4.3. 8-ci hissə üzrə:

7.4.3.1. 8.53-cü bənddən "ölkədə əyar nəzarəti," sözləri çıxarılsın;

7.4.3.2. 8.56-cı bənd ləğv edilsin;

7.4.3.3. 8.67-ci bənddən "qiymətli metallar və qiymətli daşlar üzrə dövlət tənzimlənməsi," sözləri çıxarılsın;

7.4.4. 9.7-ci bənd ləğv edilsin;

7.4.5. 18.5-ci bənddən ", əyar nəzarəti və qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və dövriyyəsi" sözləri çıxarılsın.

8. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1590 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu"nun 4-cü hissəsi ləğv edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1954 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1-ci bənddən "inhisarçılığın qarşısının alınması, haqsız rəqabətin aradan qaldırılması, istehlakçıların hüquqlarının qorunması, dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin) satın alınması," sözləri çıxarılsın;

9.2. 2.0.13-cü, 2.0.19–2.0.22-ci yarımbəndlər ləğv edilsin;

9.3. 3-cü hissə üzrə:

9.3.1. 3.0.14-cü yarımbənddən ", dövlət satınalmaları" sözləri çıxarılsın;

9.3.2. 3.0.21-ci yarımbənddə "və təbii inhisar subyektlərinin məhsullarının" sözləri "məhsulların" sözü ilə əvəz edilsin;

9.3.3. 3.0.82–3.0.85-ci və 3.0.87–3.0.91-4-cü yarımbəndlər ləğv edilsin;

9.3.4. 3.0.91-5-ci yarımbənddə "qurumlar" sözü "qurum" sözü ilə əvəz edilsin;

9.4. 5.5.6-cı yarımbənddən ", Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri çıxarılsın.

10. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 665, № 7, maddə 806, № 8, maddə 938) 3-cü hissəsi ləğv edilsin.

11. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" 2009-cu il 24 iyun tarixli 116 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 20 fevral tarixli 111 nömrəli, "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2015-ci il 4 may tarixli 516 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2016-cı il 28 aprel tarixli 888 nömrəli və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 597 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 318 nömrəli Fərmanı) 1-ci hissəsində "5651" rəqəmləri "5332" rəqəmləri ilə əvəz edilsin və həmin hissədən ", Nazirlik yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Aparatının işçilərinin say həddi 214 ştat vahidi, yerli bölmələrinin işçilərinin say həddi 105 ştat vahidi" sözləri çıxarılsın.

12. "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 8, maddə 957) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

12.1. 2.1-ci bənddən "antiinhisar, haqsız" sözləri çıxarılsın və həmin bənddə "nəzarətini və tənzimləməsini" sözləri "siyasətini və tənzimləməsini, habelə ölkədə dövlət əyar nəzarətini və qiymətli metalların, qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi, eləcə də emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətini" sözləri ilə əvəz edilsin;

12.2. 2.3-cü bənddən hər iki halda "və strukturuna daxil olmayan tabeliyindəki qurumlar" sözləri və "(nizamnamələri)" sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 fevral 2025-ci il**

---

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Əsasnaməsi

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik) rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət siyasətini və tənzimləməsini, habelə ölkədə dövlət əyar nəzarətini və qiymətli metalların, qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi, eləcə də emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət, ölkədə dövlət əyar nəzarəti və qiymətli metalların, qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi, habelə emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində (bundan sonra – müvafiq sahə) dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və həmin siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.2. rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət tənzimləməsini həyata keçirmək;

2.1.3. müvafiq sahədə dövlət nəzarətini və əlaqələndirməni həyata keçirmək;

2.1.4. aidiyyəti dövlət orqanları ilə birlikdə dövlətin qiymət-tarif siyasətinin həyata keçirilməsində iştirak etmək;

2.1.5. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.6. müvafiq sahənin inkişafı üçün tədbirlər görmək.

### 3. Agentliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.1.2. müvafiq sahədə inkişaf konsepsiyalarının və dövlət proqramlarının hazırlanmasını və həyata keçirilməsini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin etmək;

3.1.3. müvafiq sahədə dövlət tənzimləməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair təklifləri aidiyyəti üzrə təqdim etmək;

3.1.4. rəqabət qanunvericiliyinin tələblərinə riayət olunmasına dövlət nəzarətini həyata keçirmək, inhisarçılıq və haqsız rəqabət fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması, təsərrüfat subyektləri və müştərilərin mənafelərinin pozulmasına gətirib çıxaran və ya gətirib çıxara bilən hərəkətlərin qarşısının alınması ilə bağlı rəqabət qanunvericiliyi ilə səlahiyyətlərinə aid edilmiş tədbirlər görmək;

3.1.5. rəqabət qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada hüquqi şəxslərin, o cümlədən dövlətə və bələdiyyəyə məxsus olan hüquqi şəxslərin yaradılmasına, yenidən təşkilinə və ləğv edilməsinə razılıq vermək;

3.1.6. iqtisadi təmərküzləşmələrlə bağlı müvafiq ərizələri rəqabət qanunvericiliyinə uyğun olaraq araşdırmaq, araşdırmanın nəticələrinə əsasən təmərküzləşmələrə şərtli və ya şərtsiz razılıq vermək, yaxud razılıq verilməsindən imtina etmək;

3.1.7. rəqabətin vəziyyətini araşdırmaq, təsərrüfat subyektlərinin hökmran mövqeyini müəyyən etmək və müvafiq bazarda payı qanunvericiliklə müəyyən edilmiş həddən çox olan hökmran mövqe tutmuş təsərrüfat subyektlərinin fəaliyyətində rəqabətli mühitin təmin edilməsi üçün təkliflər vermək;

3.1.8. dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, habelə tənzimləyici qurumlar tərəfindən iqtisadiyyatın müəyyən sahələrində fəaliyyət göstərən təsərrüfat subyektlərinə subsidiya və digər dövlət yardımlarının verilməsini və tənzimləmə tədbirlərinin rəqabətə təsirini mütəmadi olaraq qiymətləndirmək;

3.1.9. təsərrüfat subyektləri ilə xarici ölkələrin hüquqi və fiziki şəxsləri arasında bağlanılan sazişlərin, təmərküzləşmələrin və (və ya) həmin subyektlərin xaricdəki fəaliyyətinin daxili bazarda rəqabəti məhdudlaşdırmasına gətirib çıxardığı hallarda tədbirlər görmək;

3.1.10. qiymət manipulyasiyası, qiymət ayrı-seçkiliyi və qiymətlərin dempinqinə qarşı rəqabət qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.11. rəqabət qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada, bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti metodlarını (araşdırma və yoxlama) həyata keçirmək, təhlil və monitorinqlər aparmaq, o cümlədən qiymət artımına təsir göstərən inhisarlaşma, rəqabətin məhdudlaşdırılması, bazarların bölüşdürülməsi, razılaşdırılmış qiymətlərin tətbiq edilməsi hallarının qarşısının alınması məqsədilə hər bir məhsul bazarı üzrə monitorinqlər aparmaq;

3.1.12. rəqabət qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması barədə verilmiş qərarlar və göstərişlər icra olunmadıqda, həmin qərar və göstərişlərin məcburi icrasını təmin etmək məqsədilə məhkəmədə iddia qaldırmaq;

3.1.13. rəqabət qanunvericiliyini pozan bazar subyektləri maliyyə sanksiyasını vaxtında ödəmədiyi və ya qismən ödədiyi halda maliyyə sanksiyasının, yaxud onun ödənilməmiş hissəsinin məcburi qaydada ödənilməsi üçün tələbin məcburi icraya yönəldilməsi haqqında qərar qəbul etmək;

3.1.14. rəqabət qanunvericiliyinin pozulmasına yol verilməklə bağlanılmış sazişlərin və müqavilələrin ləğvi və ya dəyişdirilməsi, həmçinin bazarın digər subyektləri ilə sazişlərin və müqavilələrin məcburi qaydada bağlanılması, habelə razılıq alınmadan həyata keçirilən və rəqabəti məhdudlaşdıran təmərküzləşmələrə yol vermiş təsərrüfat subyektlərinin (maliyyə institutlarına münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə razılaşdırmaqla) bölünməsi haqqında göstəriş icra edilmədikdə, onların tam və ya qismən etibarsız hesab edilməsi (etibarsızlığının təsdiq edilməsi) və nəticələrinin tətbiq edilməsi, yaxud məcburi qaydada bağlanılması barədə iddia ilə məhkəməyə müraciət etmək;

3.1.15. Agentlik tərəfindən aparılan araşdırmalar və yoxlamalar zamanı bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinin pozulması əlamətləri müəyyən edildikdə, həmin subyektlər barəsində rəqabət qanunvericiliyinin tələblərinə uyğun olaraq iş qaldırmaq, işin nəticələrinə uyğun olaraq maliyyə sanksiyaları tətbiq etmək və icrası məcburi olan göstərişlər vermək;

3.1.16. rəqabət, istehlakçıların hüquqlarının müdafiəsi, texniki tənzimləmə, metrologiya, uyğunluğun qiymətləndirilməsi, standartlaşdırma və akkreditasiya haqqında qanunvericiliyin pozulması ilə əlaqədar təsərrüfat subyektinə verilmiş lisenziyanın və ya icazənin qüvvəsinin dayandırılması üçün onu vermiş dövlət orqanına (qurumuna) təqdimat göndərmək;

3.1.17. təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək, onların müştərilərin mənafeyinə və rəqabətə mənfi təsir göstərə bilən hərəkətlərinin qarşısının alınması və aradan qaldırılması üçün rəqabət qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.18. təbii inhisar subyektlərinin fəaliyyətinin rəqabət qanunvericiliyinə müvafiq olaraq həyata keçirilməsinin monitorinqini aparmaq və təbii inhisar subyektlərinin siyahısına dair təkliflər vermək, bu məqsədlə təsərrüfat subyektlərindən texniki-iqtisadi və digər göstəriciləri almaq, iqtisadi və hüquqi əsaslandırmaları əldə etmək, eləcə də təsərrüfat subyektlərinin təbii inhisar subyektlərinin siyahısına daxil edilmələri ilə bağlı müraciətlərinə baxmaq;

3.1.19. təbii inhisar subyektləri tərəfindən qiymətləri tənzimlənməyən məhsullar üzrə rəqabət qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə uyğun gəlməyən və iqtisadi cəhətdən əsaslandırılmamış qiymətlərin real iqtisadi göstəricilərə uyğunlaşdırılması barədə göstərişlər vermək;

3.1.20. təbii inhisar subyektlərinin dövlət nəzarətində olan hərəkətlərinin həyata keçirilməsinə və sosial xarakterli fövqəladə mühit rejiminin mövcudluğu səbəbindən təbii inhisar subyektlərinin müraciəti əsasında müəyyən ərazidə, yaxud dövrdə digər bazar subyektinin müvəqqəti fəaliyyət göstərməsinə razılıq vermək;

3.1.21. təbii inhisar sahəsində dövlət tənzimləməsini həyata keçirmək, o cümlədən təbii inhisar subyektlərinin hər biri üçün tətbiq edilməli olan tənzimləmə üsullarını rəqabət qanunvericiliyinə uyğun müəyyənləşdirmək və tətbiq etmək;

3.1.22. dövlət tərəfindən qiymətləri tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısına, o cümlədən təbii inhisar subyektlərinin məhsullarının qiymətlərinin tənzimlənməsinə, habelə tənzimlənən qiymətlərin formalaşdırılmasına dair təkliflər vermək, daxil olmuş təkliflərə rəy vermək, onların tətbiqi qaydalarına nəzarət etmək;

3.1.23. "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada antidempinq, kompensasiya və mühafizə tədbirləri üzrə araşdırmanı həyata keçirmək;

3.1.24. maliyyə-sənaye qruplarının fəaliyyətinə "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada nəzarət etmək;

3.1.25. maliyyə-sənaye qruplarının yaradılmasına dair müqavilələrə, həmin müqavilələrin şərtlərində və ya qrup iştirakçılarının tərkibində edilən dəyişikliklərlə bağlı müraciətlərə rəqabət qanunvericiliyinin tələblərinə uyğunluq barədə rəy vermək;

3.1.26. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun və texniki normativ hüquqi aktların tələblərinə cavab verməyən, insanların həyat və sağlamlığı, ətraf mühit üçün təhlükə yaradan malların (işlərin, xidmətlərin) istehsalının, idxalının, satışa çıxarılmasının, satışının (yerinə yetirilməsinin), realizə edilməsinin və ya istifadəsinin qarşısının alınması ilə bağlı tədbirlər görmək;

(ardı 6-cı səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Əsasnaməsi

(əvvəli 5-ci səhifədə)

3.1.27. istehlakçıların hüquqlarını məhdudlaşdıran şərtlərin müqaviləyə daxil edilməsinin qarşısının alınması ilə bağlı tədbirlər görmək;

3.1.28. istehlakçıların çəkidə (ölçüdə), qiymətdə, hesablaşmalarda aldadılması, mallar barədə istehlakçılara tam və düzgün məlumat verilməməsi, satış şərtlərinin pozulması barədə alıcıların müraciətlərinə baxmaq və tədbirlər görmək;

3.1.29. özgənin əmtəə və ya xidmət etmə nişanlarından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan qeyri-qanuni istifadə olunmasına qarşı qanunla səlahiyyətlərinə aid edilmiş tədbirlər görmək, o cümlədən aşkar edilmiş nöqsanların aradan qaldırılması ilə bağlı aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdimat vermək;

3.1.30. qida məhsulları, həmçinin baytarlıq və fitosanitar nəzarətində olan yüklər istisna olmaqla, malların saxlanılması və ya satışı zamanı mal qonşuluğuna, temperatur rejiminə, satılmış malların dəyişdirilməsi və ya geri qaytarılması qaydalarına əməl olunmasına nəzarət etmək;

3.1.31. qiymət intizamına, o cümlədən qiymətləri dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) təqdim olunması zamanı qiymət intizamına riayət edilməsinə və qiymətlərin düzgün tətbiqinə nəzarət etmək;

3.1.32. dövlət satınalmaları zamanı rəqabət qanunvericiliyinin tələblərinə riayət olunmasına nəzarət etmək, bütün təchizatçıların satınalmalarda iştirakı üçün bərabər rəqabət mühitinin yaradılması məqsədilə tədbirlər görmək;

3.1.33. dövlət satınalmaları zamanı maliyyə vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsi, dövlət satınalmalarının "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində nəzərdə tutulmuş prinsiplər əsasında həyata keçirilməsi, dövlət satınalmaları haqqında qanunvericiliyin pozulmasının qarşısının alınması üçün tədbirlər görmək;

3.1.34. maliyyə vəsaiti hesabına satınalma predmetinin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satın alınmasına və satınalma müqavilələrinin icrasına nəzarət etmək, mübahisəli məsələləri araşdırmaq və nəticəsindən asılı olaraq həmin Qanunda nəzərdə tutulmuş qaydada tədbirlər görmək;

3.1.35. dövlət satınalmalarının vahid internet portalının operatoru funksiyalarını yerinə yetirmək;

3.1.36. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada satınalan təşkilatın qərarlarını təsdiq etmək;

3.1.37. satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərtilə satınalma predmetinin həcminin (miqdarının) "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq artırıb-azaldılmasına razılıq vermək;

3.1.38. dövlət satınalmaları üzrə illik hesabatları hazırlamaq;

3.1.39. açıq məkanda reklam istisna olmaqla, reklam subyektlərinin fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək;

3.1.40. dövlət ilkin kəmiyyət vahidləri etalonlarını və dövlət kəmiyyət vahidlərinin etalonlarını təsdiq etmək, habelə onların əldə olunmasını, qorunub saxlanılmasını, dövlət ilkin kəmiyyət vahidləri etalonlarından kəmiyyət vahidlərinin və dövlət kəmiyyət vahidi etalonlarından kəmiyyət vahidlərinin ötürülməsini təşkil etmək;

3.1.41. keçirilən sınaqların müsbət nəticələri əsasında standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında qərar qəbul etmək, bu barədə sertifikatlar vermək, tipi təsdiq edilmiş standart nümunələrin və ölçmə vasitələrinin dövlət reyestrini aparmaq;

3.1.42. dövlət metroloji nəzarəti, habelə ölçmə vasitələrinin kalibrlənməsi fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.43. müqavilə əsasında ölçmə vasitələrinin kalibrlənməsi işlərini aparmaq, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanı vurmaq hüququ vermək;

3.1.44. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq standartlaşdırma üzrə normativ sənədlərin vahid dövlət reyestrinin aparılmasını və nəşrini təmin etmək;

3.1.45. standartların hazırlanmasını, qəbulunu, tətbiqini və standartların tətbiqi ilə bağlı əlaqəli xidmətləri təşkil etmək;

3.1.46. "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya üzrə prinsip və qaydalara riayət edilməsini, uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiyanı həyata keçirmək, habelə uyğunluğu qiymətləndirən qurumların dövlət reyestrini aparmaq;

3.1.47. texniki tənzimləmə sahəsində malların sınağı üçün laboratoriya sisteminin inkişafı ilə bağlı təkliflər vermək;

3.1.48. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədilə texniki reqlamentlərin layihəsinin ekspertizasını həyata keçirmək;

3.1.49. insanların həyat və sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına yaratdığı təhlükənin dərəcəsindən asılı olaraq, malların (işlərin, xidmətlərin) yüksək, orta, aşağı risk qruplarının təyin edilmiş meyarlar üzrə təsnifatını müəyyənləşdirmək;

3.1.50. uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin reyestrini aparmaq, habelə texniki reqlamentdə müəyyən edilmiş əsas tələblərin təmin edilməsi məqsədilə istinad edilmiş standartların siyahısını təsdiq və dərc etmək;

3.1.51. tanınmış xarici mənşəli uyğunluq sənədlərinin reyestrini aparmaq;

3.1.52. dövlət əyar nəzarəti, qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi sahəsində qanunla müəyyən edilmiş hallarda və qaydada yoxlamalar aparmaq;

3.1.53. emal edilməmiş almazın ixracına və idxalına rəy vermək;

3.1.54. malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizalar keçirmək və belə ekspertizaların nəticələrinə uyğun olaraq, malın mənşə ölkəsini təsdiq edən sertifikat vermək;

3.1.55. daxili ticarət və xidmət sahələrində dövlət siyasətinin formalaşdırılmasında, habelə daxili ticarətin və istehlak bazarının inkişafı ilə bağlı tədbirlər görülməsində aidiyyəti dövlət orqanları ilə birlikdə iştirak etmək;

3.1.56. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə aparılan araşdırmalar, monitorinqlər, yoxlamalar, ekspertizalar və onların nəticələri ilə bağlı görülən işlərə dair məlumatları təhlil etmək və vahid informasiya bankı yaratmaq;

3.1.57. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri aşkarlandıqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.58. sahibkarlıq fəaliyyəti (ictimai iaşə, turizm və mehmanxana (o cümlədən mehmanxana tipli digər obyektlər) fəaliyyəti istisna olmaqla) subyektləri və onların vəzifəli şəxsləri tərəfindən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirmək;

3.1.59. Agentliyin fəaliyyət istiqamətləri üzrə göstərilən xidmətlərin rəqəmsallaşdırılmasını təmin etmək;

3.1.60. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək, pozulmasının qarşısını almaq;

3.1.61. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.1.62. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.63. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.64. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.65. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək və Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.66. Agentliyin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən fəaliyyət istiqamətləri üzrə daxil olan təklifləri ümumiləşdirmək və tədbirlər görmək;

3.1.67. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.68. Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.69. müvafiq sahəyə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasını təmin etmək;

3.1.70. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.71. fəaliyyətinin nəticələri barədə, o cümlədən ölkədə istehlakçıların hüquqlarının müdafiəsi vəziyyəti haqqında ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə hesabat təqdim etmək;

3.1.72. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. müvafiq sahədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.1.3. beynəlxalq tədbirlərdə, o cümlədən forumlarda, konfranslarda, sərgilərdə və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda keçirilməsini təşkil etmək;

4.1.4. müvafiq sahədə beynəlxalq və xarici əməkdaşlığı həyata keçirmək, danışıqlar aparmaq və ya danışıqlar aparılmasında iştirak etmək, beynəlxalq müqavilələrin layihələrini hazırlamaq və ya hazırlanmasında iştirak etmək, verilmiş səlahiyyətlərə uyğun olaraq onları imzalamaq, imzalandıqdan sonra icrası üçün tədbirlər görmək, həmin təşkilatlarda müəyyən edilmiş qaydada ölkəni təmsil etmək, xarici dövlətlərin təcrübəsini öyrənmək;

4.1.5. fəaliyyət istiqamətləri ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrasına nəzarət etmək və həmin müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görmək;

4.1.6. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.7. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair rəy vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər, araşdırmalar, yoxlamalar, ekspertizalar və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq;

4.1.8. strukturuna daxil olmayan tabeliyində qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün təkliflər vermək;

4.1.9. müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, ictimai əsaslarla işçi qruplar və komissiyalar yaratmaq;

4.1.10. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.11. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə qeyri-normativ metodiki və təlimat xarakterli göstərişlər, məsləhətlər və izahlar vermək;

4.1.12. maliyyə-sənaye qruplarından, təbii inhisar subyektlərindən fəaliyyətləri haqqında qanunla müəyyən edilmiş hesabat və məlumatları, o cümlədən təbii inhisar subyektlərinin investisiya layihələrini almaq;

4.1.13. dövlət satınalmaları sahəsində elmi-texniki, iqtisadi və normativ hüquqi məlumat bazalarını yaratmaq, məsləhət xidmətlərinin göstərilməsini təşkil etmək;

4.1.14. vəzifə və hüquqlarının həyata keçirilməsi ilə bağlı məhkəməyə müraciət etmək və məhkəmədə öz adından iştirak etmək;

4.1.15. fəaliyyət istiqamətlərinə aid məsələlərlə əlaqədar müqavilələr bağlamaq, strukturuna daxil olmayan tabeliyindəki qurumların fəaliyyət istiqamətləri üzrə göstərdiyi xidmətlərə görə alınan xidmət haqlarından daxil olan vəsaitdən istifadəni təmin etmək;

4.1.16. fəaliyyət istiqamətləri üzrə aidiyyəti dövlət orqanlarına (qurumlarına) təkliflər vermək;

4.1.17. istifadəsində olan dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

4.1.18. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.) Agentliyin vahid sistemini təşkil edir. Agentlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Agentliyin strukturu, onun Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Agentliyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr rəhbərlik edir. Sədr Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır və Azərbaycan Respublikasının Prezidenti qarşısında hesabatlıdır.

5.4. Sədrin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən birinci müavini və 3 (üç) müavini vardır. Sədrin birinci müavini və müavinləri vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

5.5. Sədr:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Agentliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Agentliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrinin, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini (və ya əsasnamələrini) təsdiq edir, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Agentliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.4. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.5. Agentliyin Aparatının işçilərini (sədrin müavinləri istisna olmaqla), habelə strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini və müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.6. Agentlik sədrinin müavinləri istisna olmaqla, Agentliyin digər işçilərinə, strukturuna daxil olan qurumların rəhbərlərinə və onların müavinlərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri verir, habelə xüsusi fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.5.7. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla Agentlik işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.8. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.9. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Agentlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.10. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxsləri, habelə beynəlxalq təşkilatlarla münasibətdə Agentliyi təmsil edir, danışıqlar aparır və verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.11. Agentliyin səlahiyyətlərinə aid edilən məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.12. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir;

5.5.13. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.5.14. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.15. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsini təmin edir.

5.6. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.7. Sədr öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti olaraq icrasını birinci müavininə və ya müavinlərindən birinə həvalə edə bilər.

5.8. Agentlikdə sədrdən (Kollegiyanın sədri), onun birinci müavini və müavinlərindən, Agentliyin digər rəhbər işçilərindən ibarət Kollegiya yaradılır. Agentliyin Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilər.

5.9. Kollegiya üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

5.10. Agentliyin Kollegiyası öz iclaslarında Agentliyin fəaliyyəti ilə bağlı məsələlərə baxır və müvafiq qərarlar qəbul edir.

5.11. Agentliyin Kollegiyası qərar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Agentliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Agentliyə tapşırılmış konkret normativ hüquqi aktlar;

5.11.3. bir neçə qurumun fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;

5.11.5. sədrin təşəbbüsü ilə Agentliyin Kollegiyasının müzakirəsinə çıxarılan, bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktlar;

5.11.6. bu Əsasnamənin 5.11.1–5.11.5-ci yarımbəndlərinə uyğun olaraq Agentliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklərin edilməsi.

5.12. Agentliyin Kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Agentliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Agentliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Agentliyin Kollegiyasının üzvləri və sədr arasında fikir ayrılığı yarandıqda, sədr bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verərək öz qərarını həyata keçirir. Agentliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Prezidentinə çatdıra bilərlər.

5.14. Agentliyin Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının), habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

5.15. Agentlikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura yaradıla bilər.

5.16. Agentlikdə sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Agentliyin və ya onun struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

**Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir**

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin**

**S T R U K T U R U**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Aparatı (şöbələr və sektorlar).

2. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin regional bölmələri.

## Qarabağın qara təqvimi

**Ötən yazılarımızın birində Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinə və bu regiona çoxsaylı ermənilərin köçürülməsinə səbəb olmuş Türkmənçay müqaviləsinin dəhşətli fəsadları barədə söz açmışdıq. Onu da əlavə etmişdik ki, həmin sənədin törətdiyi yaraları hələ də sağalda bilmirik. Ancaq o yaralar sağalmasa da, zaman keçdikcə qaysaq bağlayırdı.**

# Regionu qanlı münaqişəyə sürükləyən separatizm



## 1988-ci il fevralın 13-də Xankəndi xəyanət meydanına çevrildi

Xalqımıza və Türk dünyasına düşmən olan siyasi dairələrin əlində alətə çevrilmiş ermənilər həmin yaranın qaysağını 1988-ci il fevralın 13-də məhz Azərbaycan ərazisində – gorbagor olmuş DQMV-nin mərkəzi Xankəndi şəhərində (o dövrdə Stepanakert adlanırdı) qopartmışdılar. Müasir tarixə öz iyrəncliyi ilə yazılan həmin aksiya "Qarabağ məsələsi ilə əlaqədar ermənilərin ilk nümayişi" adı ilə yaddaşlarda qaldı.

XX yüzilliyin tarixinə ən uzunömürlü və faciəli münaqişələrdən biri kimi daxil olmuş Ermənistan – Azərbaycan konflikti barədə dəqiq faktları, səbəbləri və nəticələri özündə əks etdirən yüzlərlə mənbə var. Ancaq biz bu sətirləri qələmə almaq üçün ən mötəbər mənbəyə – President.az saytına müraciət etdik. Orada yazılıb ki, 1980-ci illərin sonlarında Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış bu münaqişə Azərbaycana qarşı hərbi təcavüzlə nəticələnib.

Belə ki, Kremlin milli ayrı-seçkilik siyasətindən bəhrələnən ermənilər türk xalqının böyük oğlu Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu vəzifələrdən istefa verməsini öz çirkin niyyətlərini reallaşdırmaq üçün fürsət bilərək, ölkəmizə qarşı açıq ərazi iddialarına başlamışdılar. Bədnam qonşularımız həm də SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək ermənicəsinə fəallaşmışdılar. Belə ki, məhz Moskvada cızılmış ssenarilərin icrasına srart verən haylar Azərbaycan ərazisində – 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçmişdilər.

Bu "münbit şəraitdə" – 1987-ci ilin sonlarında Ermənistan SSR-in Qafan rayonunda azərbaycanlıların öz tarixi torpaqlarından qəddarlıqla deportasiyası prosesi başlanmış, 1988-1989-cu illərdə Ermənistanın müxtəlif şəhər və rayonlarında yaşayan azərbaycanlılar da eyni aqibətlə üzləşmişdilər. Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovulmuş, onlardan 216 nəfər vəhşicəsinə qətlə yetirilmiş, 1154 nəfər isə yaralanmışdır. Həmin zərərdidələr erməni zorakılığından öz həyatlarını xilas etmək üçün Azərbaycana sığınmaq məcburiyyətində qalmışdılar.

O da xüsusilə vurğulanmalıdır ki, azərbaycanlılar 1988-ci ilə qədər Ermənistan ərazisində kompakt şəkildə yaşayıblar. Ancaq Sovet hakimiyyəti Dağlıq Qarabağ ərazisində yaşayan ermənilərdən fərqli olaraq, azərbaycanlıların yığcam məskunlaşdığı ərazilərə Ermənistan SSR daxilində muxtar status vermək istəmirdi.

Qərəz, 1988-ci il fevralın 13-də DQMV-nin mərkəzi Xankəndi şəhərində Qarabağ məsələsi ilə əlaqədar ermənilərin ilk nümayişi keçirilib. Fevralın 16-dan martın 2-dək DQMV-də müxtəlif mitinqlər təşkil edilib. Fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin erməni əsilli deputatları vilayətin Ermənistan SSR-ə birləşdirilməsi təklifinin lehinə səs veriblər (azərbaycanlı və digər millətlərdən olan deputatlar iclasda iştirak etməyiblər). Fevralın 21-də isə Sov.İKP MK "Dağlıq Qarabağ hadisələri haqqında" qərar qəbul edib. Həmin sənəddə DQMV XDS-nin qərarı "millətçi elementlər tərəfindən təhrik edilmiş" aksiya adlandırılıb. Buna baxmayaraq, fevralın 22-də Xankəndi – Ağdam şosesi üzərində yerləşən Əsgəran qəsəbəsi yaxınlığında ermənilər DQMV-nin Xalq Deputatları Sovetinin yuxarıda qeyd olunan qərarına etiraz edən dinc azərbaycanlı nümayişçilərə atəş açıblar. Nəticədə iki azərbaycanlı gənc şəhid olub. Martın əvvəllərində Dağlıq Qarabağı Ermənistana birləşdirməyi qarşısına məqsəd qoyan "Qarabağ" təşkilatı maneəsiz şəkildə Yerevanda, "Krunk" təşkilatı isə Xankəndidə fəaliyyətə başlayıb.

…Ermənilərdən alət kimi istifadə edən qüvvələrin dəstəyi ilə 1988-ci il fevralın 13-də Xankəndi şəhərində keçirilən ilk siyasi aksiyanın fəsadları necə sürətlə artmışdısa, nəticədə region barıt çəlləyinə çevrilmiş, çoxsaylı soyqırımı və dağıntılar törədilmişdi. Rəsmi məlumatlarda bildirilir ki, 1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb ocağı, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılmışdı.

SSRİ rəhbərlərinin milli ayrı – seçkilik siyasətinin nəticəsi olan bu insident sonradan dövlətlərarası münaqişə xarakteri almışdı. Ona görə də beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid mənbəyinə çevrilən Ermənistan – Azərbaycan münaqişəsi beynəlxalq təşkilatlar çərçivəsində ciddi müzakirələrə səbəb olmuş, problemlə bağlı bir sıra mühüm sənədlər qəbul edilmişdi.

Çox təəssüf ki, beynəlxalq təşkilatların həmin sənədlərin hamısı 2020-ci ilin sentyabrınadək kağız üzərində qalmışdı. Bundan sonra isə dünya ictimaiyyəti Azərbaycanın yaratdığı yeni reallıqlarla üzləşmişdir. Həmin reallıqlar artıq Ermənistanın kiməsə ərazi iddiaları irəli sürməsini tamamilə mümkünsüz etmişdir.

İndi artıq Ermənistanda hamı anlayır ki, bu ölkənin son beş ildə üzləşdiyi bütün bədbəxtliklərin təməli 1988-ci il fevralın 13 – də Qarabağ xanının kəndində – hayların Stepanakert adlandırdığı Azərbaycan şəhərində qoyulmuşdur. Bu yerdə bir hind məsəli yada düşür: "Oturduğu budağı kəsənlərə yeni budaq göstərən tapılmaz".

***İttifaq MİRZƏBƏYLİ***

---

# USAID-in Ermənistanı

## *Faktlar və rəqəmlər ölkənin gələcək fəlakətinin ayaq səsləridir*

**Prezident Donald Tramp Administrasiyasının ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) fəaliyyətinə son qoymaq qərarı Vaşinqtonun xarici siyasət strategiyası üzrə əsaslı dəyişikliyin yaranacağını göstərir. Nəzərə alaq ki, "soyuq müharibə"nin ən qızğın çağında yaradılmış USAID Amerika demokratiyasının nümayiş xarakterli layihəsi idi. Agentliyin illik 40 milyard dollarlıq büdcəsi bütün dünyada irimiqyaslı layihələrin həyata keçirilməsinə imkan yaratmışdı. Trampın komandası isə qurumun fəaliyyətini "solçu radikal" gündəmi və əsassız vəsait israfının təşviqi aləti qismində gördü ki, bu, onun Dövlət Departamentinin tərkibinə daxil edilməsinə gətirdi.**




Onu da nəzərə alaq ki, Con Kennedinin dövlət başçılığı dönəmində Birləşmiş Ştatların "yumşaq güc" aləti kimi yaradılmış agentlik 60 il ərzində ölkənin dünyadakı təsirinin əsas mexanizmlərindən birinə çevrilmişdi. Bu mexanizm Ermənistanda da işləyib. Nəinki işləyib, hətta çox böyük layihələr reallaşdırıb, müstəqillik illərində ölkəyə 3,3 milyard dollardan çox sərmayə yatırıb. Buna görə deyə bilərik ki, qurumun ləğvi ilə bağlı qərar ölkədə ictimai sektora mənfi təsir göstərəcək. Deməli, Ermənistanda vətəndaş cəmiyyətinin əhəmiyyətli dərəcədə yenidən formatlaşdırılması zərurəti yaranacaq.

Bəli, USAID Ermənistanda 1992-ci ildən fəaliyyət göstərir və vətəndaş cəmiyyətinin ən böyük donorlarından birinə çevrilib, kibertəhlükəsizlikdən tutmuş, demokratik institutların inkişafına qədər geniş sahələrdə maliyyələşmə aparıb. 2024-cü ilin sentyabrında verilən qərara görə, onun Ermənistan üzrə illik büdcəsi 120 milyon dollardan 250 milyon dollara qədər artırılmalı idi. Bu artım özündə Amerikapərəst yanaşmaların formalaşmasına sistemli yanaşmanı gücləndirməyi hədəf seçirdi.

***

USAID-in Ermənistanın siyasi arenasındakı əsas tərəfdaşı Seçkilər və Siyasi Proseslərin Gücləndirilməsi üzrə Konsorsium olub. O, 20,7 milyon dollar məbləğində ən böyük maliyyəni alıb. Təşkilat ölkədə seçkilərin şəffaflığının artırılmasına çalışmaqla yanaşı, faktiki olaraq, Qərb modelinə əsaslanan yeni siyasi mədəniyyət formalaşdırıb.

USAID-in xətti ilə Ermənistanda iqtisadiyyat sektoruna müxtəlif təşkilatlar nəzarət ediblər. Bunlardan biri büdcəsi 10,4 milyon dollar olan Aqrobiznes və Kənd İnkişaf Mərkəzi Amerika texnologiyalarının və standartlarının tətbiqi ilə kənd təsərrüfatını modernləşdirməyə çalışıb. 7,1 milyon dollarla ikinci yerdə dayanan "Enterprise Incubator Foundation" adlı qurum isə "Silikon vadisi" modeli əsasında startaplar üçün ekosistem yaradaraq texnologiya sektorunun inkişafının Qərb modelinin dirijoruna çevrilib.

***

USAID-in Ermənistanda xüsusi diqqət yetirdiyi sahələrdən biri media idi. Bu istiqamətdə başlıca tərəfdaş 7,5 milyon dollar qrantla "Internews Network" olub. Təşkilat 819 min dollarla maliyyələşdirilən Araşdırmaçı Jurnalistlər qeyri-hökumət təşkilatı və 175 min dollar qrantla İctimai Jurnalistika Klubu kimi kiçik qrant alanlar da daxil olmaqla, media orqanları və təşkilatları şəbəkəsi yaradıb. "Internews Network"dan "E-V-N" xəbərlər fondu və "Faktor TV" də dəstək alıb. Habelə, USAID 2023-cü ildə Ermənistanda 15 milyon dollar dəyərində ayrıca beşillik mediaya dəstək proqramı da işə salıb ki, bu, qurumun ölkədə mövcud sahəyə yatırdığı ən böyük investisiyası sayılır.

Yerli idarəetməyə gəldikdə, burada USAID-ə partnyor təşkilat olaraq İcmaların Maliyyə Məmurları Assosiasiyası fəaliyyət göstərib. Qurum vətəndaşları idarəetməyə cəlb etmək proqramı üçün 4,8 milyon dollar vəsait alıb. İkinci yerdə 3,6 milyon büdcə ilə "Project Harmony" təşkilatı dayanıb ki, onun vəzifəsi Qərb təhsil standartlarının tətbiqinin təşviqinə əsaslanıb, həmçinin təhsil proqramlarına və kibertəhlükəsizliyə diqqət yetirib.

Ermənistanda beynəlxalq təşkilatların USAID proqramlarında iştirakı hallarında da rast gəlinib. Belə ki, UNICEF uşaqların müdafiəsi sahəsində layihələr üçün 3,5 milyon ayırıb. Şərq-Qərb İdarəetmə İnstitutu isə 3 milyon qrantla Amerika modelinə uyğun məhkəmə islahatlarının təşviqi ilə məşğul olub. Hər il 3,2 milyon dollar vəsait alan Ermənistan Amerika Universiteti isə ölkədə ABŞ ali təhsilinin forpostu olub.

***

USAID-in fəaliyyətinin təhlili təsir sahələri üzrə maraqlı faktları ortaya qoyur. Deməli, əsas podratçı "CH2M HILL" adlı təşkilat 49,2 milyon dollar dəyərində müqavilələrlə infrastrukturun modernləşdirilməsi adı altında ənənəvi Rusiya təsir zonasında yerləşən su təchizatı sistemləri və nəqliyyat qovşaqları da daxil olmaqla, strateji əhəmiyyətli obyektlərə çıxış əldə edib.

14,2 milyon dollar vəsait yatırımı ilə fərqlənən digər qurum "MANAGEMENT SYSTEMS INTERNATIONAL" məqsədyönlü şəkildə dövlət idarəçiliyinin transformasiyası üzərində işləyib, Qərb idarəetmə modellərini tətbiqini həyata keçirib ki, bu da Rusiya idarəetmə təcrübəsindən və standartlarından uzaqlaşmağı asanlaşdırıb. Mövcud mənada "TETRA TECH ES"-in fəaliyyəti xüsusi diqqətə layiqdir. Təşkilat 17,9 milyon dollarla enerji sektorunda enerji bazarının liberallaşdırılması konsepsiyasını irəli sürüb. Onun strategiyası Rusiyanın enerji şirkətlərinin rolunun əhəmiyyətli dərəcədə azalmasına hesablanıb. Ən əsası isə qurum Qərb texnologiyalarından istifadə ilə yeni modul tipli atom elektrik stansiyası layihəsinin lobbiçiliyini həyata keçirib. Məqsəd nüvə enerjisi sahəsində uzun illər davam edən Rusiya–Ermənistanın əməkdaşlığını aradan qaldırmaq olub.

Bundan başqa, 9,4 milyon dollar büdcəyə malik "DEXIS INTERACTIVE LLC" və 10,8 milyon dollarlıq büdcə ilə "CHEMONICS INTERNATIONAL" Ermənistanda hökumət strukturlarının rəqəmsallaşdırılması və özəl sektora dəstək vasitəsilə erməni biznesinin Qərb standartlarına və texnologiyalarına istiqamətlənməsinə töhfə verib. "DELOITTE CONSULTING" özünün 6,8 milyon dollarlıq büdcəsi ilə maliyyə sistemində Amerika modelinə uyğun islahatların aparılması üzərində işləyib.

Belə nəticətə gəlmək mümkündür ki, USAID-in iqtisadi yardımının arxasında da çoxsəviyyəli təsir sistemi qurmaq vəzifəsi dayanıb ki, bu, əsas sektorların modernləşdirilməsi yolu ilə Rusiyanın Ermənistandakı mövcudluğunu ardıcıl olaraq azaltmağa köklənmiş strategiyadır.

***

Bəli, son illərdə USAID əsas sektorlar sayılan infrastruktur, dövlət idarəçiliyi, enerji və demokratik institutlar üzrə irimiqyaslı proqramlar vasitəsilə Ermənistandakı mövcudluğunu əhəmiyyətli dərəcədə genişləndirmişdi. Rəsmi bəyan edilmiş məqsədlərə iqtisadi inkişaf və əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması daxil olsa da, agentliyin faktiki strategiyası Amerikanın regionda təsirini sistemli şəkildə gücləndirməyə yönəlmişdi. Qrant alanların geniş şəbəkəsi USAID-ə Ermənistan cəmiyyətinə hərtərəfli təsir göstərməyə, Amerika dəyərlərini və bütün əsas sahələrdə Birləşmiş Ştatlar gündəmini irəli sürməyə imkan vermişdi. İndi agentliyin bağlanması bu təşkilatların bir çoxunun mövcudluğunu şübhə altına alıb.

Bir daha bildirək ki, USAID-in yoxluğu Ermənistanda vətəndaş cəmiyyətinin mənzərəsini əhəmiyyətli dərəcədə dəyişəcək. Şübhəsiz, qurumdan qidalanan bir çox təşkilatlar alternativ maliyyə mənbələri tapmaq zərurəti ilə üzləşəcəklər. Bu, həm də Amerikanın regionda təsirinin azalması və başqa geosiyasi oyunçuların potensialının güclənməsi deməkdir.

Digər tərəfdən, USAID-in bağlanması ABŞ-ın xarici siyasət strategiyasında daha dərin dəyişikliyi simvollaşdırır. Vətəndaş cəmiyyəti vasitəsilə demokratik dəyərlərin təbliğinə əsaslanan "yumşaq güc" dövrü öz yerini daha praqmatik yanaşmaya verirsə, mövcud durum Ermənistan üçün problemdir. Əlbəttə, ölkədə kənar maliyyədən daha az asılı müstəqil və davamlı vətəndaş cəmiyyəti institutları da inkişaf edə bilər. Ancaq bu, yalnız nəzəri baxışdır. Çünki Ermənistanın özünün hansısa potensialı yoxdur.

Sonda bu qənaətə gəlirik ki, USAID Ermənistanı özündən asılı hala salmaqla, ölkəni rəzil günə qoyub. Özü də bu rəzillik yalnız Qərbpərəst Nikol Paşinyan administrasiyasının ayağına yazılacaq hal deyil. Belə nəticəyə gəlirik ki, ölkədə hakim mövqe tutan heç bir siyasi qüvvə ölkənin, sözün əsl mənasında, müstəqilliyi barədə düşünməyib. Nəticə göz önündədir. USAID-li Ermənistan nə qədər rəzil idisə, bu təşkilatsız Ermənistan daha fəlakətlidir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Qarşılıqlı inam və etimada əsaslanan dostluq nümunəsi

## *Bugünkü Azərbaycan – Çin münasibətləri belə qiymətləndirilir*

**İkinci Qarabağ müharibəsi dövrü sübut etmişdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin təkcə siyasi fəaliyyəti, diplomatik təmasları və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi atdığı addımlar deyil, həm də istənilən KİV təmsilçisinə verdiyi müsahibə də beynəlxalq aləmdə özünəməxsus əks-səda yaradır. Əgər həmin müsahibə dünyanın ən qüdrətli ölkələrindən birini təmsil edən mətbuat vasitəsinə verilibsə, onda əks-sədanın dalğaları daha da çoxalır və uzunmüddətli olur.**

**Çin və Azərbaycan 6-7 ay bundan əvvəl strateji tərəfdaş oldular. Bu, hətta bundan daha da yaxşı dost olmaq üçün bizim qarşılıqlı iradəmizi nümayiş etdirən yüksək səviyyəli tərəfdaşlıqdır. Fürsətdən istifadə edərək, çinli dostlarımızı Azərbaycanı ziyarət etməyə dəvət edirəm. Onlara bunu etmək üçün artıq viza tələb olunmur. Sadəcə, bilet alıb gələ bilərlər və Azərbaycanın necə inkişaf etdiyini görə bilərlər və özlərinə yeni dostlar qazana bilərlər. Əminəm ki, xalqlararası təmaslar ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxın edəcək.**

***Azərbaycan Prezidenti İlham Əliyevin Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibəsindən***

**Davos, 20 yanvar 2025-ci il**

Cənab Prezidentin bu il yanvarın 20-də Davos İqtisadi Forumu çərçivəsində dost və strateji tərəfdaşımız olan Çin Xalq Respublikasının CGTN televiziya kanalına verdiyi müsahibədə bu baxımdan xüsusi önəm kəsb edir. Çünki dövlət başçımız həmin müsahibədə problemlərlə dolu olan XXI əsrin az qala bütün çağırışlarına münasibət bildirmişdi.

Yeri gəlmişkən, onu da xatırladaq ki, Azərbaycan Prezidentinin Davosda keçirdiyi bütün görüşlər kimi, verdiyi müsahibələr də qarşı tərəfin təşəbbüsü ilə baş tutmuşdu. Yəni Azərbaycan lideri heç zaman hansısa jurnalistə müsahibə vermək istəyində olmayıb. Bu məqsədlə müraciət



edənləri isə heç zaman cavabsız qoymur. Bu faktı ona görə xatırladırıq ki, az qala dünyanın bütün problemlərindən söhbət gedən həmin müsahibənin təşəbbüskarı da, layihə rəhbəri də, müəllifi də Çin tərəfi idi.

Şəxsən bir oxucu kimi, məni daha çox məmnun edən məqam cənab Prezidentin öz müsahibəsində lider məsələsinə toxunarkən səsləndirdiyi fikirlər idi. Çünki bugünkü dünya mərhum şair Oqtay Rzanın bir şeirində dediyi kimi "yaman yiyəsizdir". Daha doğrusu, anamız Yer kürəsinin bu qədər münaqişə, müharibə və digər problemlərlə əlbəyaxa olmasının əsas səbəbi ədalətli lider kasadlığıdır. Biz bunu dünya mədəniyyətinə və siyasətinə danılmaz və möhtəşəm töhfələr vermiş fransız xalqının lidersizlik ucbatından yaşadığı məşəqqətlərdə də görürük, Rusiya tərəfindən Cənubi Qafqaza gətirilərək dövlət bəxş edilmiş ermənilərin sabahının qaranlıq dalana dirənməsində də...



Dövlət başçımız Çin televiziyasına verdiyi müsahibədə bu məsələyə xüsusi önəm verdiyini dilə gətirdi: "Ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır".

Bu arqumentlərin təsdiqi bütün dünyanın gözü qabağında olduğuna görə konkret faktları sadalamağa ehtiyac hiss etmirik. Onsuz da hamı Emmanuel Makronun fransızların başına gətirdiklərini də görür, Nikol Paşinyanın ermənilərin başına gətirdiklərini də.

O ki qaldı adıçəkilən müsahibədə gündən-günə daha da yüksələn Azərbaycan – Çin dostluq və tərəfdaşlıq münasibətlərinə, çəkinmədən deyə bilərik ki, cənab Prezidentin bu istiqamətdə söyləyə biləcəyi fikirlər, faktlar, arqumentlər bir məqaləyə sığışdırıla biləcək qədər deyil. Dövlət başçımız bu məsələ ilə bağlı olan sualı cavablandırarkən dedi ki, Çin iqtisadiyyatı çox sabitdir və bu, qlobal iqtisadiyyatın mühüm bir amilidir: "Qazıntı enerji növləri üzrə sabit qiymətlərə ehtiyacı olan Azərbaycan kimi ölkə üçün Çin iqtisadiyyatı da mühüm bir amildir. Çin iqtisadiyyatı sürətlə inkişaf etdikcə, qazıntı enerji növünə olan tələbat daha da artır. Odur ki, biz Çin iqtisadiyyatının həmişə inkişaf etməsi nöqteyi-nəzərindən maraqlıyıq".

Prezident əmin olduğunu söylədi ki, gözləntilər çox böyükdür: "Çünki sizin ölkəniz texnologiyada liderdir və Azərbaycanda bir çox Çin şirkətləri öz xidmətlərini və texnologiyasını təmin edir. Bizim indicə müzakirə etdiyimiz kimi, yaşıl texnologiya sahəsində heç kim sizinlə rəqabət apara bilməz. Dünyanın müxtəlif yerlərindən olan, müxtəlif şirkətləri təmsil edən investorlarımız bu tutumları quraşdırmaq üçün Çin texnologiyasını seçirlər".

Təbii ki, bu gün dünyanın bütün qütblərini təmsil edən beyin mərkəzləri planetimizin əsas güc mərkəzlərindən olan Amerikla Birləşmiş Ştatlarındakı sonuncu prezident seçkilərinin nəticələrinin müzakirəsini dayanmadan davam etdirirlər. Bir az da dəqiq desək, hamı cənab Donald Trampın ikinci müddətə prezident seçilməsinin dünyamıza hansı yenilikləri gətirəcəyini gözləyir. Çin televiziyasının əməkdaşı da Azərbaycan Prezidenti ilə müsahibəsində həmin gözləntiləri yada salmışdır.

Dövlət başçımızın cavabı belədir ki, biz Prezident Trampın ABŞ-a rəhbərlik etdiyi zamanı xatırlayırıq və son 4 ildə Bayden administrasiyasının Azərbaycana ədalətsiz yanaşması səbəbindən əlaqələrimizin tamamilə korlanmasından fərqli olaraq, bizim əlaqələrimiz çox uğurla inkişaf edirdi: "Beləliklə, Prezident Trampla birgə işləməklə bağlı əvvəlki təcrübəmiz çox müsbət idi. Biz gözləyirik ki, ABŞ-Azərbaycan münasibətlərində itirilmiş illər hesab etdiyimiz bu 4 il artıq tarixə qovuşacaq və biz yenidən başlayacağıq".

Bəzi Qərb liderlərinin son illər Prezident Trampa qarşı çox ədalətsiz mövqe nümayiş etdirdiklərini xatırladan İlham Əliyev dedi ki, onlar indi narahatdırlar, indi onların buna görə cavabdeh olmasının vaxtı gəlib çatıb: "Bu, mənim fikrimdir. Ola bilsin mən yanılıram. Lakin mən ABŞ-da dəyişikliklə bağlı narahat olmaq üçün başqa ciddi səbəb görmürəm. Düşünürəm ki, dünya daha təhlükəsiz ola bilər. Prezident Trampın ilk prezidentliyi dövründə ABŞ heç bir müharibəyə başlamadı. Əgər ABŞ-ın ən azı bir neçə onilliklər ərzində tarixinə nəzər salsaq, bu, nadir bir təcrübə idi. Azərbaycana gəlincə, biz əminik və nikbin fikirdəyik".

Ancaq çinli mətbuat təmsilçisi Cənubi Qafqazın şəksiz və şəriksiz liderindən təkcə Pekin – Bakı münasibətləri barədə deyil, ABŞ – Çin münasibətlərinin sabahı barədə də nə isə eşitmək istədi və eşitdi: "Sədr Sini daha yaxşı tanıyıram, çünki onunla dəfələrlə görüşmüşəm. Prezident Trampla rəsmi görüşüm olmayıb, sadəcə, bir-birimizin əlini sıxmışıq. Bununla belə, bu, dünya, dünya iqtisadiyyatı, sabitlik üçün yaxşı bir işarə, siqnaldır. Çünki Çin və ABŞ dünyanın iki ən böyük iqtisadiyyatına malik aparıcı ölkələrdir. Əlbəttə ki, müxtəlif məsələlərdə onların arasında konsensusun olması, qarşıdurmanın deyil, əməkdaşlığın olması, sözsüz ki, bütün ölkələrin xeyrinə olacaq. Ona görə də biz həmin telefon danışığı barədə xəbər aldıqda bundan məmnun olduq. Ümidvarıq ki, bu sıx tərəfdaşlıq prosesi davam edəcək".

... Yadımdadır, Azərbaycan Prezidenti iki il qabaq da bu televiziyaya müsahibə vermişdi və bütün dünya siyasətçilərini məmnun edən təvazökarlıq nümunəsi yaradaraq demişdi ki, qlobal arenada Çinin gördüyü işlər beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməlidir: "Siz bunu qlobal miqyasda edirsiniz. Biz isə bunu daha çox regional miqyasda edirik. Ancaq bizim fəlsəfəmiz eynidir və uğurludur. Baxın, Çin dünyada ən çox uğur qazanmış ölkələrdəndir və dünyanın aparıcı iqtisadiyyatlarındandır. Siz buna öz əməyiniz, xalqınızın və ölkə rəhbərliyinin müdrikliyi və nəticəyönümlü səyləriniz sayəsində nail olmusunuz".

Mən isə bu sətirlərin müəllifi olaraq, iki il əvvəl Azərbaycan – Çin münasibətləri haqqında yazmağa başlayanda xatırlatmışdım ki, Bakı– Pekin dostluğu barədə düşünərkən "Heydər Əliyev xoşbəxt azərbaycanlıdır" – kəlamını mütləq işlətmək lazımdır. Çünki bugünkü Azərbaycan – Çin strateji əməkdaşlığının təməlində məhz Heydər Əliyev müdrikliyi dayanır.

***İ.QAÇAYEV***

# Mərkəzi Seçki Komissiyasında



**Məzahir Pənahovun sədrliyi ilə fevralın 12-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

Əvvəlcə Komissiyanın 10 fevral tarixli iclasının protokolu təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Maraqlı subyektlərin də qatıldığı iclasda müraciətlərlə bağlı aparılan müzakirələr zamanı əvvəlcə ərizəçilərin özlərinin bilavasitə iştirakı ilə reallaşdırılan hərtərəfli, obyektiv və şəffaf araşdırma prosesi barədə ətraflı məlumat verilib. Qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlərin geniş müzakirəsi nəticəsində Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin tələblərinə uyğun müvafiq qərarlar qəbul edib.

Media mənsublarının da iştirak etdiyi iclasda, həmçinin cari məsələlərə də baxılıb.

***XQ***

# III MDB Oyunları Təşkilat Komitəsinin iclası



**Fevralın 12-də Azərbaycan Prezidentinin 2024-cü il 10 iyul tarixli Sərəncamı ilə yaradılan III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin ilk iclası keçirilib. Baş nazirin müavini, Təşkilat Komitəsinin sədri Samir Şərifovun rəhbərliyi ilə keçirilən iclasda Oyunlara hazırlıqla bağlı məsələlər ətraflı müzakirə edilib.**

İclasda qeyd olunub ki, III MDB Oyunları 23 idman növü üzrə təşkil edilməklə, "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" olan Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində sentyabrın 28-dən oktyabrın 8-dək müddətdə keçiriləcək. Gəncədə 8, Mingəçevirdə 4, Qəbələdə 4, Şəkidə 3, Göygöldə 2, Yevlaxda 1 və Xankəndidə 1 idman növü üzrə yarışlar təşkil ediləcək.

Oyunlarda iştirak etmək üçün MDB ölkələrinin idman heyətləri ilə yanaşı, bir sıra digər ölkələrin idmançılarının da Azərbaycan Hökumətinin dəvəti əsasında iştirakları gözlənilir.

İclasda idman obyektlərinin hazırlığı, nəqliyyat və logistika məsələləri, iştirakçıların yerləşdirilməsi, könüllülərin cəlb olunması, akkreditasiya prosesi, oyunların mediada yayımı, açılış və bağlanış mərasimlərinə hazırlıq və digər məsələlər üzrə geniş təqdimatlar edilib.

Azərbaycan Prezidentinin lll MDB Oyunları ilə bağlı Tədbirlər Planının həyata keçirilməsini təmin etmək məqsədilə Təşkilat Komitəsinin qarşısında qoyduğu vəzifələrin icrası və digər aidiyyəti məsələlər üzrə müvafiq tapşırıqlar verilib, qurumlar arasında əlaqələndirmənin təmin olunması ilə bağlı konkret vəzifələr müəyyənləşdirilib.

Sonda Təşkilat Komitəsinin sədri Samir Şərifov Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən idman sahəsində Birinci Avropa Oyunlarına, İslam Həmrəylik Oyunlarına və digər böyük tədbirlərə yüksək səviyyədə ev sahibliyini qeyd edərək, III MDB Oyunlarının da ölkəmizdə peşəkarlıqla və layiqincə keçirilməsi üçün səfərbər olmağın zəruriliyini Təşkilat Komitəsinin üzvlərinin diqqətinə çatdırıb.

***XQ***

# Azərbaycan–BƏƏ humanitar əməkdaşlığı

**Əbu-Dabi şəhərində Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin üçüncü iclası keçirilib.**



Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, BƏƏ tərəfindən isə xarici işlər nazirinin siyasi məsələlər üzrə müavini xanım Lana Zəki Nusseybə rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli siyasi, iqtisadi, enerji, humanitar əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb. Çoxtərəfli formatda, xüsusilə beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlığı Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflərin Konfransı (COP) çərçivəsində qarşılıqlı koordinasiya və əməkdaşlıq yüksək qiymətləndirilib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıblar.

***XQ***

# “Sülh göyərçini” barışın səmtini itirib

## *Yaxud Hayastan baş nazirinin daxili auditoriyaya ünvanladığı tezislərə sözardı*

**“Armenpress”də Nikol Paşinyanın məqaləsinin dərc olunması onun Fransaya səfəri ilə üst-üstə düşməsi təsdadüfi sayıla bilməzdi. Axı, o, “boss”un hüzuruna “sarsılmaz siyasi iradəyə” malik, həm də “sülhpərvər” lider kimi getməyi düşünürdü. Ermənistan baş nazirinin “Sülh üçün bütün ilkin şərtlər mövcuddur” sərlövhəli məqaləsi faktların və tarixlərin təhrifi ilə yanaşı, siyasi populizmdən məişət səviyyəli qeybətə qədər ritorika ilə zəngindir. Bu zaman Paşinyan sülh danışıqlarında iki ölkənin bugünədək əldə etdiyi uğurları alt-üst etmək, ağrımayan başına dəsmal bağlamaq taktikasını seçib. Özünü oxuculara yenə “sülh göyərçini” obrazında təqdim etməyə çalışan hayların baş nazirinin barışığa aparan doğru yolun səmtini səhv saldığı aşkar sezilməkdədir.**

*

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan baş naziri Nikol Paşinyanın məqaləsində irəli sürdüyü iddialarla bağlı şərhində qeyd edir ki, ölkəmizin Ermənistana qarşı hücuma hazırlaşdığı və Qərbi Azərbaycan İcmasının məqsədləri ilə bağlı iddiaları, eləcə də bir çox digər əsassız fikirləri reallığı təhrif etmək, eləcə də dünya ictimaiyyətini diqqətini yayındırmaq məqsədini daşıyır: “Paşinyan ölkəsinin Azərbaycana qarşı təcavüzə hazırlığını inkar edir, əksinə, Qərbi Azərbaycan İcmasının fəaliyyətinin, guya, aqressiv mənasını əsas gətirərək ölkəmizə qarşı əks ittiham irəli sürür. Bununla da, o, Ermənistan ordusunun sürətlə yenidən silahlanmasına haqq qazandırmağa çalışır. Bu barədə yazır: “Ermənistan ordusunda aparılan islahatların Azərbaycanla əlaqəsi varmı? Bəli və yox. Yox, çünki yuxarıda izah etdiyim kimi, Ermənistanın Azərbaycana qarşı hər hansı hərbi əməliyyat keçirmək planı, niyyəti və məqsədi yoxdur. Bəli, çünki Ermənistanın təhlükəsizliyinə təhdidlər Azərbaycanın özündə formalaşır”.

Yəni, Paşinyanın sözündən belə çıxır ki, Azərbaycan Ermənistana hücum etmək barədə düşünür və buna hazırlıq görür. Rəsmi Bakı ən yüksək tribunalardan, həm də dəfələrlə bəyan edib ki, Azərbaycanın heç bir ölkənin torpağında gözü yoxdur. Bakının sülhə və əməkdaşlığa uzatdığı əlini min cür bəhanə ilə geri çevirən İrəvan ilkin şərtlərin mahiyyətini təhrif etməkdən çəkinmir.

Şərhdə daha sonra deyilir ki, İrəvan yenidən rəsmi Bakının dörd tələbinə, yəni beynəlxalq məhkəmələrdə iddialardan qarşılıqlı imtinaya, üçüncü dövlətlərin silahlı qüvvələrinin sərhəddə yerləşdirilməsindən imtinaya, ATƏT-in Minsk qrupunun buraxılmasına razılığa, ən əsası isə Ermənistan konstitusiyasından Azərbaycana ərazi iddialarının çıxarılmasına dair tələbinə məhəl qoymadan, sazişin imzalanmasına heç bir maneə olmadığını iddia edir: “Ermənistanın otuz ilə yaxın Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlayan işğalçı dövlət olması və azərbaycanlılara qarşı etnik təmizləmə aktları törətməsi fonunda bu tələblər tamamilə ədalətlidir. İrəvan bu cinayətlərə görə peşman olmaq əvəzinə, tamamilə qeyri-adekvat təkliflər də irəli sürür. Guya, Ermənistan keçmiş işğalçı deyil, paritet əsasında sülhün zəruriliyi qənaətinə gəlmiş nəcib rəqibdir: “Ermənistan Respublikası Azərbaycana qarşılıqlı silah nəzarəti mexanizmlərinin yaradılması və sərhəd insidentlərinin birgə araşdırılması üçün yazılı təklif təqdim edib və Azərbaycandan müsbət cavab gözləyir”.

Söhbət hansı cavabdan gedə bilər? Məgər Ermənistanın şərti sərhəddə yerləşdirdiyi Avropa İttifaqının yarıhərbi missiyasının “tərəflər arasında gərginliyin aradan qaldırılmasına töhfə vermək” yönündə məlum “fəaliyyəti” onun təklifini heçə endirmirmi?

*

Azərbaycan XİN rəsmisinin şərhində konkret olaraq vurğulanır ki, hərbi potensiala sahib olmaq hüququnu müdafiə edən baş nazir 30 illik işğaldan əlavə, üçtərəfli bəyanata əsasən üzərinə götürdüyü öhdəliklərə baxmayaraq, 44 günlük müharibə bitdikdən sonra üç il ərzində Azərbaycan ərazisində ağır silahlarla təchiz edilmiş on mindən çox silahlı birləşməni saxlayan ölkəni təmsil edir: “44 günlük müharibə başa çatdıqdan sonra Ermənistanın hərbi xərcləri təqribən üç dəfə artaraq 2021-ci ildə təxminən 600 milyon dollardan 2024-cü ildə 1,6 milyard dollara çatıb. Üstəlik, bu yaxınlarda imzalanmış hərbi müqavilələrə əsasən, Ermənistan əsasən Azərbaycanın ərazilərinə uzaq məsafəli zərbələr endirə biləcək hücum silahları əldə etməkdədir”.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** Nikol Paşinyanın məqaləsini başdan-ayağa yalan



və təhriflərlə dolu yazı adlandırdı: “Azərbaycan heç vaxt Ermənistana qarşı ərazi iddiası irəli sürməyib. Bu gün də həmin sabit və dəyişilməz mövqedən çıxış edir. Görünür, Paşinyan Ermənistanın 30 il torpaqlarımızı işğal altında saxlaması faktını yaddan çıxarıb. Onu da unudur ki, Ermənistan ordusunun 10 mindən çox əsgəri son ana qədər Qarabağda yerləşdirilmişdi. Bəs, Paşinyan Xankəndidəki separatçı rejimin “müstəqillik günü” ilə bağlı İrəvandan göndərdiyi təbrik teleqramını niyə yada salmır? Ermənistanın hərbi büdcəsi 2021-ci illə müqayisədə 2024-cü ildə bir neçə dəfə artıb 1,6 milyard dollar təşkil edib. İrəvan xaricdən aldığı silahlarla kimə qarşı müharibə aparmaq istəyir? Düşməninin kim olduğunu açıq şəkildə desin.

Azərbaycan müharibə tərəfdarı deyil, sülh tərəfdarıdır. Heç kəsə təhlükə yaratmaq kimi bir planı da yoxdur. O ki qaldı Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışına, əlbəttə ki, burada beynəlxalq hüquq normaları, insan haqları ilə bağlı konvensiyalar, bəyannamələr var. Ermənistandan deportasiya edilən azərbaycanlılar məhz bu sənədlər əsasında ata-baba torpaqlarına qayıtmalıdırlar. Onlar əsrlər boyu həmin torpaqlarda yaşayıblar, Ermənistanda əhalinin böyük əksəriyyətini təşkil ediblər. Paşinyan bunu da unutmamalıdır. İndiki vəziyyətdə hayların baş naziri məlum məqaləni qələmə almaqla ya xaricdən onu dəstəkləyən qüvvələr, ya da daxili auditoriya üçün düşünülmüş tezisləri dövriyyəyə buraxıb. Bu isə Nikol Paşinyanın ciddi siyasətçi olmadığına dəlalət edir”.

Daha çox daxili auditoriyaya ünvanlandığı hiss olunan məqalədə baş nazir özünü dünyaya sülhsevər lider, “sülh göyərçini” kimi təqdim edir. Fəqət, onun məqalədə sülh sazişinin imzalanması üçün təklif etdiyi saxta şərtlərə diqqət yetirin: “Sülh müqaviləsinin razılaşdırılmış hissəsi kifayət qədər ciddi və imzalanmaq üçün yetişib. Baxmayaraq ki, Ermənistan razılaşdırılmamış iki maddə üzrə hərtərəfli həll yolları təklif edib və Azərbaycandan müsbət cavab gözləyir”. Baş nazirin “sülhpərvərcəsinə” irəli sürdüyü silahlara nəzarət mexanizminin yaradılması barədə təklifinə gəldikdə isə deməliyik ki, 30 ildən artıq müddətdə Ermənistan bu mexanizmi ən kobud şəkildə pozub, deqradasiyaya uğradıb. İndi isə Fransadan, Hindistandan aldığı kütləvi qırğın silahlarını beynəlxalq nəzarət mexanizmindən gizlətməyə çaslışır. Amma İrəvanın bu qanunsuz və təxribatçı hərəkətləri Bakıya yaxşı məlumdur və buna qarşı lazımi tədbirlərini görür. Yenə yalan, yenə faktların və həqiqətin təhrif olunması. Aşkar görünür ki, Paşinyan özünün feyk-tezislərini təkcə yerli auditoriyaya deyil, həm də xaricdəki tərəfdaşlarının menyusuna üfürür. O, Azərbaycanla Naxçıvan arasında yolun açılması üçün əməli addımlar atmaq əvəzinə, diqqəti bu prosesdən yayındırmağa çalışır. Yəni, mahiyyətcə heç bir əhəmiyyəti olmayan təkliflər irəli sürməklə anlaşılmazlıq yaradır, reallığı təhrif edir.

*

XİN rəsmisi şərhində haqlı olaraq qeyd edir ki, Ermənistan baş nazirinin 2022-ci il Praqa görüşünə, 1991-ci il Alma-Ata Bəyannaməsinə, sülh sazişi layihəsinin Ermənistanın həqiqətən Azərbaycana qarşı heç bir iddiasının olmadığını və olmayacağını təsbit etmək üçün nəzərdə tutulan bəndlərinə istinadları Paşinyan tərəfindən bir neçə ay sonra, 2023-cü ilin sentyabrında Azərbaycan ərazilərindəki qondarma rejimin “müstəqilliyi” ilə bağlı təbrik mesajı göndərilən zaman, eləcə də Ermənistanın konstitusiyasında yer alan ərazi iddialarına və Alma-Ata Bəyannaməsinə qoşulan zaman edilmiş qeyd-şərtlərə göz yumması nəticəsində heçə endirilib. Bunlar inkarolunmaz dəlillərdir.

Bu gün Bakıda müharibə cinayətlərində təqsirləndirilən şəxslərin məhkəmə prosesini “səhnələşdirilmiş tamaşa” adlandıran Paşinyan Ermənistanın onilliklər ərzində Azərbaycana və dinc sakinlərimizə vurduğu yaralardan xəbərsiz kimi davranır. Çünki, o, məhkəmənin üzə çıxaracağı həqiqətlərlə üzləşməkdən qorxur.

Nikol Paşinyanın məqaləsində Hayastanın revanşist mahiyyətini ortaya qoyan qeydlərinə diqqət yetirin: “Bakıda keçirilən “teatrlaşdırılmış məhkəməni” Azərbaycanın milyardlarla dollar dəyərində silah alması və rəsmi Bakının aqressiv ritorikası ilə müqayisə etsək, aydın olar ki, Azərbaycanda Ermənistanın təhlükəsizliyinə real təhdidlər yaranır”.

Yəni, özünün “dərin diplomatik” mülahizələrində Paşinyan o qədər də irəli gedib ki, Azərbaycana qarşı hərbi cinayətlərdə təqsirləndirilən şəxslərin məhkəməsini “teatral görüntü” adlandırır. Əslində, onun ədalət məhkəməsinə hörmətsizliyi, Azərbaycan xalqına qarşı hərbi cinayətləri dəstəklədiyi anlamına gələn bu məqaləsi elə separatizmin təbliğatına yönəlib. Sülh danışıqalrında rəsmi İrəvanın qeyri-konstruktiv mövqeyini pərdələmək istəyən Paşinyan ikitərəfli dialoqda irəliləyişi faktiki olaraq yalnız sərhədin delimitasiyası və demarkasiyası prosesi ilə məhdudlaşdırıb. Əgər Ermənistanın havadarları tərəfindən sürətlə silahlanması olmasaydı, bu, ziddiyyətlərin aradan qaldırılması üçün müsbət amil sayıla bilərdi.

Sülhün səmtini hələ də İrəvan–Paris marşrutunda axtaran Ermənistan baş naziri sanki haylarla müsyölərin saatları sinxronlaşdıracağı ana ümid edir. Demokratların Ağ evi tərk etməsindən sonra İrəvanla Vaşinqton arasında gizli bağların, emosional əlaqənin zəifləməsi fonunda Paris marşrutu tamamilə məntiqi sayılmalıdır. Digər tərəfdən, Parisin İrəvanın “məğlubedilməz” imicini saxlamaq istəyinin nə dərəcədə səmimi olduğuna Ermənistanın özündə şübhə ilə yanaşanların sayı kifayət qədərdir.

*İmran BƏDİRXANLI*
*XQ*

# Azərbaycan pozuculuq meydanı ola bilməz

**“Bakıdakı “Rus evi” ətrafında sosial şəbəkələrdə yayılan dezinformasiyalar məlum təlimatlara əsaslanır və Rusiya Azərbaycan münasibətlərinə xələl gətirmək məqsədi daşıyır”. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin bəyanatında deyilir. Bəyanatda daha sonra bildirilir ki, sosial şəbəkələrdə “bakılıları və rus irsinə, mədəniyyətinə dəyər verən və hörmət edən hər kəsi “Rus evi”nə dəstək aksiyasında iştirak etməyə çağırışlar var. Bu materiallar feykdir”.**

Həmçinin vurğulanıb ki, nəşrlər “Rus evi”nin rəsmi simvollarından, müvafiq dizayn elementlərindən və əlaqə məlumatlarından istifadə ediblər. O da qeyd edilib ki, bu saxtakarlıq kütləvi auditoriyanın emosional reaksiyasını oyatmaq üçün nəzərdə tutulub: “Söhbət yaxşı planlaşdırılmış üslubdan gedir. Aydındır ki, bu saxtakarlığın müəllifləri Azərbaycan vətəndaşlarını ölkəmizə qarşı qoymağa, etnik ədavəti qızışdırmağa və Rusiya ilə bağlı hər şeyə Qərb üslubunda “yanaşmaya, ölkələrimizin qarşılıqlı fəaliyyətinə, o cümlədən humanitar və mədəni əlaqələrinə xələl gətirməyə çalışırlar”.

Diplomatik qurum MDB-də anti-Rusiya kampaniyalarından məlum olan metodologiya və alətləri ayrıca qeyd edib: “Biz bu cür məlumatların sızdırlma mənbələrinə daha yaxından nəzər salmağı tövsiyə edirik”.

Rusiya Xarici İşlər Nazirliyi daha sonra əlavə edib: “Üslub tanışdır və məqsəd aydındır. “Rus evi”ni Azərbaycan ictimaiyyətinə qeyri-adekvat şəkildə təqdim etmək istəyirlər. Vəziyyətin absurdluğunu pul təzminatı vədi (xüsusən də rusiyalılara, aksiya iştirakçılarına, reklamlardan istifadə etməmək) daha da ağırlaşdırır”.

Qeyd edək ki, Bakıdakı “Rus evi”nin adından başqa saxta məlumatlar da yayılıb. Xaricdə Azərbaycan əleyhinə fəaliyyət göstərən bəzi “Youtube” kanalları da həmin məlumatlara istinadən materiallar yayıb.

Əlavə edək ki, bir neçə gün bundan əvvəl Azərbaycan “Rus evi”nin fəaliyyətinə xitam verilməsi barədə Rusiyaya nota göndərib. XİN-in məlumatında bildirilib ki, Azərbaycan ərazisində bu kimi təşkilatların fəaliyyəti milli qanunvericiliyə, ölkələr arasında əməkdaşlıq prinsipinə və ikitərəfli əsasda əldə olunmuş razılıqların tələblərinə uyğun olaraq tənzimlənir. Azərbaycan tərəfinin ölkədə “Rus evi”nin fəaliyyətinə xitam verilməsi barədə qərarından irəli gələrək Rusiya tərəfindən bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsi gözlənilir. Azərbaycan XİN-nin tələbi ilə əlaqədar, “Rossotrudniçestvo”nun nümayəndəliyi Bakıdakı “Rus evi”nin öz fəaliyyətini dayandırdığını bildirib. Artıq mərkəzin adının rus dilində yazılan hissəsi götürülüb.

Beləliklə, Rusiyanın və Azərbaycanın münasibətlərinin pisləşməsində maraqlı olan qüvvələr tərəfindən idarə olunan KİV Bakının "Rus evi"ni bağlamaq qərarını anti-Rusiya addımı kimi təqdim edirlər. Bəzi ekspert və politoloqlar iki ölkə arasındakı münasibətlərin yenidən nəzərdən keçirilməsini, Rusiyada yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə çağırışlarını irəli sürürlər.

Əvvəlcə qeyd etmək lazımdır ki, iki ölkənin tarixində daxili siyasi qərarların ikitərəfli münasibətlərə təsir etdiyi hallar yeni deyil. Belə ki, hələ 2008-ci ildə Bakıda “26 Bakı komissarı” abidəsinin sökülməsi qərarı qəbul edilmişdi. Bu, qarşı tərəfin narazılığına səbəb olmuşdu. Təxminən on il sonra Rusiyada məhkəmə qərarı ilə Azərbaycan diasporunun ən böyük təşkilatı (VAK) bağlandı ki, bu da Bakının mənfi reaksiyasına səbəb oldu. Lakin bu, ikitərəfli münasibətlərin strateji pisləşməsinə gətirib çıxarmadı. Beş il sonra tərəflər Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzaladılar. Bu gün Azərbaycan–Rusiya münasibətləri növbəti dəfə möhkəmlik sınağından keçir. Beynəlxalq münasibətlər tarixində tərəfdaşlar arasında bu cür hallar çox olub. Və inanırıq ki, tezliklə bu iki ölkə arasında ortaya çıxan bütün problemlər öz həllini tapacaq.

**Azərbaycan Respublikası Milli Məclisinin deputatı Elşad Musayev** ilə söhbətimiz də bu barədədir. Deputatın fikrincə, hazırda Azərbaycanla Rusiya arasında münasibətlər kifayət qədər sərtləşib:





“Müxtəlif dairələr bu münasibətlərin kəskinləşməsi istiqamətində addımlar atırlar. Bunlardan biri sosial şəbəkələrdə “bakılıları və rus irsinə, mədəniyyətinə dəyər verən və hörmət edən hər kəsi “Rus evi”nə dəstək aksiyasında iştirak etməyə çağırışla bağlıdır. Rusiya XİN-i bununla bağlı təkzib verdi. Azərbaycan rəsmi orqanları hər hansı rəsmi mövqe bildirməyib. Amma nəzərə alaq ki, Azərbaycanın özündə vəziyyəti gərginləşdirmək istəyən qüvvələr var. Müəyyən qismi ölkədən kənardadır. Buna baxmayaraq, daxildə onların təsirində olan agentura şəbəkəsi mövcuddur və vəziyyəti gərginləşdirməyə çalışırlar. Ona görə də, bütün hallarda ehtiyatlı olmalıyıq. Azərbaycanın yalnız hüquq-mühafizə orqanları deyil, eyni zamanda, vətəndaşları da hazırlıqlı olmalıdırlar. Hər hansı bir təxribat baş verərsə, ona qarşı tədbir görülməlidir.

Bir şeyi də nəzərə almaq lazımdır ki, bəzi xarici qüvvələr ölkəmizin qonşu dövlətlərlə münasibətlərinin gərgin olmasında maraqlıdırlar. Bu niyyətdə olan yaxın qonşularımız da az deyil”.

Musayev daha sonra qeyd etdi ki, hər halda təyyarə qəzası ilə bağlı Rusiyanın Azərbaycana qarşı tutduğu mövqe ədalətsizdir: “Moskva AZAL-ın qəzaya uğrayan təyyarəsinə görə üzr istəməli, bu hadisədə əli olanlar barəsində tədbir görməlidir. Təəssüflər olsun ki, bugünədək təyyarəmizi vuran cinayətkarlar əl-qolunu sallayaraq sərbəst gəzirlər. Onlara qarşı heç bir tədbir görülmür. Bu, azmış kimi, Rusiya tərəfindən Azərbaycana qarşı təxribat xarakterli çıxışlar olur. Moskvanın mövqeyi məkrlidir. Unutmamalıdır ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil siyasət həyata keçirir. Bu, böyük dövlətlərin çoxunu, o cümlədən də Rusiyanı qane etmir. Onlar öyrəniblər ki, ətraf ölkələrə təzyiq etsinlər. Müstəqil siyasətimiz Rusiyanın müəyyən dairələrində də qıcıqla qarşılanır. Bütün hallarda, istər Azərbaycan təyyarəsinin vurulması, istərsə ondan sonrakı hadisələrdə Moskvanın davranışı Azərbaycan dövlətçiliyinə qarşıdır”.

O ki qaldı “Rus evi”nə, onun bağlanması ölkəmizin qanunvericiliyinə uyğun həyata keçirilib. Rusiya tərəfi də bunu qəbul etməlidir.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru Mətin Məmmədli** isə bildirdi ki, sosial şəbəkələrdə



“Rus evi”nə dəstək aksiyasında iştirak etməyə çağırışlar qeyri-sağlam məqsədlərə xidmət edir: “İlk növbədə hesab edirəm ki, bu çağırışı yayanların məqsədi ölkədə vəziyyəti gərginləşdirmək, vətəndaşlar və ayrı-ayrı sosial qruplar arasında nifaq salmaqdır. Düşünürəm ki, onların bu cəhdləri bir nəticə verə bilməz. Azərbaycan xalqı öz dövlətinə bağlıdır. Dövlətinin maraq və mənafeyini birmənalı olaraq müdafiə edir. Azərbaycan xalqı kifayət qədər yüksək siyasi şüura, intellektual səviyyəyə malikdir. Belə bir xalqı çaşdırmaq, ölkədə nifaq salmaq cəhdləri nəticə verə bilməz. Azərbaycan pozuculuq fəaliyyəti üçün meydan deyil”.

M.Məmmədli daha sonra vurğuladı ki, Azərbaycanın heç bir dövlətlə münasibəti gərginləşdirmək məqsədi, niyyəti yoxdur. Ölkəmiz bütün dövlətlərlə, o cümlədən qonşuları ilə faydalı əməkdaşlığın tərəfdadır. Ancaq təəssüf ki, hər şey bizim istəyimizdən asılı deyil. Görünən otur ki, Rusiya hakim dairələrində də bu reallığı aydın dərk etməyənlər var. “Rus evi”nin fəaliyyəti də ilə bağlı mövqeyimiz ilk növbədə hüquqa əsaslanır. Bu mərkəz, məlum olduğu kimi, qeyri-qanuni fəaliyyət göstərib. Ümumiyyətlə, qeydiyyatı olmayıb və Azərbaycanın daxili qanunvericiliyini pozub.

Mediada yayılan məlumatlardan aydın olur ki, “Rus evi”nin Rusiya kəşfiyyatı ilə də əlaqəsi olub . Yəni Azərbaycan bu “evi” bağlamaqda tamamilə haqlıdır.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Qəhrəmanlıq Vətənə borcunu sonadək anlamaqdır...



**Qarabağı işğaldan azad etməklə ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmiş zəfər savaşımız çağdaş hərb sənətinə mükəmməl döyüş kimi daxil oldu. Müsahibimiz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik Anar Mirzəyev xalqımıza bu tarixi qələbəni qazandıran qeyrətli oğullardandır.**

**Bu qəhrəman haqqında ilk dəfə Şuşanın giriş qapısına Azərbaycan bayrağını sancan, Qarabağ ordenli Rəşad Aslanovdan eşitmişdik. O demişdi: "Döyüşlər zamanı Zoğalbulaqda yanımda bir komandir ağır yaralandı. O, Anar Mirzəyev idi. Düşündük ki, artıq şəhid olub. Anar o komandirlərdən idi ki, tabeçiliyindəki hərbi hissəni yüksək peşəkarlıqla, bacarıqla idarə edirdi. Onun döyüşçüləri Anarla nəfəs alırdılar. Anar Mirzəyev kimi Azərbaycan zabitlərinin ömür yolu bugünkü və gələcək nəsillər üçün örnəkdir. Şükür Allaha ki, bu gün Anar sağdır və Vətənə xidmətini davam etdirir".**

**Vətən müharibəsinin canlı qəhrəmanı Anar Mirzəyevin sorağı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gəlib onunla müsahib olduq.**

**– Vətən Müharibəsi Qəhrəmanı kimi Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi vəzifəsi sizə etibar ediləndə hansı hisslər keçirdiniz?**

– Bu hərbi lisey həqiqətən, müqəddəs yerdir. 1971-ci ildən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan bu liseyin yüzlərlə məzunu içərisində Azərbaycanın Milli Qəhrəmanları, Vətən Müharibəsi Qəhrəmanları, igid zabitlər, generallar var. Ümummilli Lider deyirdi ki, məhz bu məktəbin sayəsində Azərbaycanın milli hərbi kadr bazası formalaşmışdır: "Bu lisey mənim üçün doğma övlad kimidir. Hərbi lisey həmişə mənim qəlbimdədir. Hər il mən bu məktəbə gəlmişəm. Kursantlarla, müəllimlərlə, zabitlərlə görüşmüşəm".

Belə bir məktəbin rəisi kimi onu deyə bilərəm ki, Vətən qarşısında borcum vicdan haqqımdır. Vətən Müharibəsi Qəhrəmanı kimi hərbi andıma sadiqliyimi əməli işimdə yerinə yetirməyi özümə borc bilirəm. Birinci gündən bu vəzifədə fəaliyyətimə belə bir ruhla başlamışam. Bu müqəddəs məkanda təhsil alan kursantlar qalib Ordumuzun gələcək milli kadrları olacaqlar. Bütün bunlar o deməkdir ki, Vətən qarşısında bacardığımı sevə-sevə yerinə yetirməliyəm. Bu hərbi liseyin Azərbaycan Ordusuna töhfəsi yetərincədir. Tanınmış hərbiçilərin, qəhrəmanların döyüş məharətinin təməli burada qoyulub. Vətən müharibəsində döyüşlərdə şücaət göstərən yüzlərlə cəsur döyüşçü bu məktəbin yetirmələridir.

**– Elə isə gəlin, ömür yolunuza əvvəldən nəzər salaq.**

– Mən 1982-ci il oktyabr ayının 25-də İsmayıllı rayonunda doğulmuşam. 2000-ci ildə tam orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil oldum.

Nəyə görə hərbçi oldum? 90-cı illərin Qanlı Yanvar hadisələri ilə mənim yaşım arasında müəyyən zaman fərqi olsa da, hələ uşaq yaşlarımdan sual edirdim: nəyə görə bu hadisələr Azərbaycanda baş verib?! İşğal olunan torpaqlarımız, köçkün, qaçqınların faciələr yaşaması bir gənc kimi məni çox ağrıdırdı. Yüzlərlə, minlərlə hərbçinin qisas haqqı bizim taleyimizə yazılmışdı. Döyüşmək üçün əmr gözləyirdik.



44 gündə öz torpaqlarımızda döyüş apardıq. Halal yurd-yuvamız üçün silaha sarıldıq. Faciəmiz bilirsiniz nədə idi?! Bizi öz evimizin içində qırmışdılar, öz torpaqlarımızda didərgin, qaçqın, köçkün olmuşduq. Dünya bu haqsızlığı, ədalətsizliyi görmürdü? Ocaqlarımız söndürülmüşdü, külü göylərə sovrulmuşdu. Xidmətə başlayan gündən hərbçi yoldaşlarıma demişdim ki, bizim bu xalqa verəcəyimiz borc var. Bu borcu ödəməyin bir gün zamanı yetişəcək. Dövlət və xalq qarşısında şərəf və qürur hissinin məsuliyyətini dərk edirdik. Bəli, biz hərbçilər hərb meydanında bu borcu yerinə yetirdik.

**– 27 sentyabr tariximizə xilas və qisas günü kimi yazıldı.**

– Həmin günün təəssüratı o qədər böyükdür ki, sözlə ifadə etmək mümkün deyil. Ordumuz düşmən həmləsinə cavab olaraq əks-hücum əməliyyatına keçmişdi. Torpaqlarımız bizi haraylayırdı. Yalnız Qələbə naminə hərb meydanına girmişdik. 27 sentyabr şanlı hərb tariximizin yeni bir salnaməsinin, Zəfərimizin başlandığı gündür. Müzəffər Ali Baş Komandanın "Dəmir yumruq" şüarı altında Ordumuz əks-hücum əməliyyatlarına başladı. Bu barədə danışanda xalqımızın – arxa cəbhənin "Dəmir Birliyini" də xüsusi olaraq vurğulamalıyıq. Bizə müqəddəs analarımız, atalarımız xeyir-dua vermişdi. Ona görə də torpaq uğrunda verdiyimiz canın dəyərini bilirdik. Döyüşləri belə sevə-sevə qarşılayırdıq, Vətən sevgisi yaralarımızın sarğısı idi.

Hərbi hissəmiz Füzuli istiqamətindən irəliləyirdi. O zaman silahları götürməyimiz, o soyuq dəmir parçasına toxunan isti barmaqlar, yanan nəfəslər, maşınlara minməyimiz gözlərim önündə kino lenti kimi canlanır. Bu, bir ümidin, qisas gününün yaddaş salnaməsidir. Hərbi hissəni tərk edən zaman gördüm ki, döyüşçü yoldaşlarım tankın üstündə belə bir şüar yazıb: "Ya Qarabağ, ya olüm!" Dedim ki, ölüm sözünü silin. Bizə ölümmü yaraşır?! Yalnız Qələbə deyib meydana girməliyik: "Yalnız Qarabağ! Şüarımız budur: İgidlər, biz Qarabağı – doğma yurd yerlərimizi almağa gedirik. Sentyabrın 27-də döyüşlər başlanan gündən içimizdəki döyüş əzminin, eşq-məhəbbətin bir adı var idi: Vətən, Torpaq!

**– Tankın üzərindən ölüm sözünü sildirmisiniz. Bəs elə bir an oldumu ki, siz ölümlə üz-üzə qaldınız?**

– Təbii ki, müharibə qurbansız, itkisiz olmur. Hər an şəhidlik zirvəsi qarşımızda idi. Zəfərə doğru müqəddəs bir yolda idik. Düşmənin bağrını yaran əfsanəvi qəhrəmanlarımızın şəhidlik məqamına yüksəlməsi hünər, qeyrət epopeyası idi. Bu, yaxınlaşan Zəfərimizin uvertürası idi.

Həyatla ölüm arasında döyüşürdük. Sevgi hissi ilə şəhidlik zirvəsinə yüksəlməyin möcüzəsini yaşayırdıq. Yaralı döyüşçülər də meydanı tərk etməyərək canlarını torpağa qurban verirdilər. Azərbaycan Ordusunun bütün qüvvələrinin cəbhəboyu sürətlə irəliləməsi Vətən sevgisi üstündə köklənmişdi. Ön cəbhənin döyüş qüdrəti bizi Zəfərə yaxınlaşdırırdı.

Düşmənin 30 ilə yaxın mühəndis istehkamları qurması və Qarabağın relyefinin mürəkkəbliyi, sıx meşə zolaqlarının çoxluq təşkil etməsi o demək idi ki, biz ağır döyüşlərə başlamışıq. Bəli, döyüş çox amansız idi. Amma xalqın bizə olan inamı, əzmkarlığı, xüsusilə vahid ordu komandanlığı hamımıza güc verirdi. Hər bir əsgər, zabit bilirdi ki, Ali Baş Komandanlıqdan aldığı əmr onu uğura doğru aparır. Hamı Ali Baş Komandanı səngərdə, öz yanında hiss edirdi.

**– Bu, 30 illik Qələbə həsrətinin, qisas aclığının yaratdığı qüdrət idi.**

– Bəli, Azərbaycan Ordusunun hər bir əməliyyatı Zəfərimizə hədəflənmişdi, saatbasaat kəndləri, qəsəbələri, yüksəklikləri azad edirdik. Müharibədən əvvəl Ağdamda xidmət edirdim. Ön xətlə tanış olanda həmin bölmənin komandiri məndən xahiş etdi ki, səngərdə gəzərkən ehtiyatlı olaq, dik gəzməyək, düşmən hər an bizi vura bilərdi. Bu sözlər məni o qədər ağrıtmışdı ki... Öz Vətənimdə, öz torpağımda dimdik gəzə bilmirdimsə mən niyə yaşayırdım?! Bax buna görə də, bütün varlığımızla son nəfəsimizə qədər döyüşürdük. Biz qalib gəldik. Axır ki, öz doğma yurd yerlərimizdə başıuca gəzə bildik. Döyüşlərin birində boğazımdan qəlpə yarası aldım. Tez yanımdakı sarğı ilə özümə ilk yardımı etdim və irəli getdim. Biz yalnız qələbə üçün döyüşürdük, istiqamətimiz isə Şuşaya idi. Günün sonuna qədər komandir kimi öz borcumu yerinə yetirdim. Sonra əməliyyat keçirdim, boğazımdan qəlpə götürüldükdən sonra, yenə döyüş yoldaşlarımın yanına qayıtdım. Mən komandir kimi döyüş meydanında yoldaşlarımı tək qoya bilməzdim.

**– Bu inam, yenilməz ruh düşməni məğlub etdi.**

– Biz əzəli və əbədi torpaqlarımız uğrunda qətiyyətlə döyüşdük. Kimsə bizi yıxa bilməzdi. O ki qaldı komandiri. Şəxsi heyət sanki bir ailədir. Komandir isə bu ailənin başçısıdır. Sən bir mayak olmalısan ki, irəli gedən yol aydın görünsün. Oktyabrın 25-i – doğum günümdə Xocavənd uğrunda gedən döyüşlərdə, Qırmızı Bazar istiqamətində düşmənin güclü atəşi ilə üzüzə gəldik. Onların müəyyən qrupları meşə zolağında qalmışdı. Gərgin döyüş gedirdi. O an düşündüm ki, bu gün mənim doğum günümdür. Və bu gün şəhid olsam, şərəfli bir son olacaq. Belə düşünmək mənə qürur verirdi. Beləcə, ölümlə savaşaraq Zəfərə doğru gedirdik.

Çox böyük bir əzmlə özümüzdə güc toplayıb düşmənə qalib gəldik. Güllələr qulağımızın dibindən keçərək, göz açmağa aman vermirdi.

Azərbaycan Ordusunu yaşadan və qələbəyə doğru aparan belə oğullar oldu.

Döyüşlər vaxtı deyirdim: "Ya Rəbbim, Sən bizi xalqın qarşısında utandırma. Sən bizə güc, qüvvət ver. Biz qələbəni xalqımıza yaşadaq. Zəfər Azərbaycan xalqının haqqı idi". Bu qələbəni xalqımıza bəxş etmək isə Azərbaycan zabiti kimi bizim vəzifə borcumuz idi. Şüarımız belə idi: bir cana min can almalıyıq! Şəhidlərimizin qanı yerdə qalmadı. Onların qisasını sona qədər aldıq. Bütün şəhidlərimizin ruhu, onların ailələri qarşısında baş əyirik. Onların ruhu isə rahatdır. Çünki Qarabağ Azərbaycana qaytarıldı.

**– Bəs Qələbəni harada qarşıladınız?**

– Biz koordinatları verdikcə düşmən hədəfləri vurulurdu. Döyüşlərin birinin gedişatında artilleriya bölmələrinə yenə də koordinat verdik və uğur qazandıq. Çox təəssüf ki, oktyabrın 26-da mərmi qəlpəsi ilə Zoğalbulaqda çox ağır yaralandım. İki döyüşçümüz orada şəhid oldu, bir çoxu yaralandı. Mən isə huşsuz halda hospitala yerləşdirilmişəm. Yaşamaq ehtimalım sıfıra bərabər imiş. Həkimlərin gecəli-gündüzlü səyi, bacarığı nəticəsində yenidən həyata qayıtmışam.

Qələbə sözünü də, Vətən Müharibəsi Qəhrəmanı adını da hospitalda eşitdim. Mənə sağlamlığımı qaytaran həkimlərə ömür boyu borcluyam. Azərbaycanın fədakar həkimləri Vətən Müharibəsində əsl qəhrəmanlıq göstərdilər. Onlar bir daha sübut etdilər ki, bu xalqın həkimi də, zabiti də, bütün vətəndaşları Vətən torpaqlarının xilası naminə "Dəmir yumruq" kimi birləşdilər. Məni "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq bilən komandanlığıma, Ali Baş Komandana ürəkdən təşəkkürümü bildirirəm.

**– Qəhrəman zabit kimi sizin üçün qəhrəmanlıq nədir?**

– Qəhrəmanlıq məqsəd deyil. Məqsəd Vətən qarşısında borcunu sonadək anlamaqdır. Elə bir an çatır ki, sənin bu borcu yerinə yetirməyinin nəticəsi qəhrəmanlıq sayılır.

**– Hərbi Liseyin qəhrəman rəisinin yetirmələri də gərək bu hikməti dərindən anlayıb özləri də qəhrəmanlığa hazır olsunlar...**

– Bizim hərbi liseyə gələn hər bir kursant mənim doğma övladımdır. Onlar Azərbaycanın gələcək tarixini yazan hərbçilər olacaqlar. Bizim xilas etdiyimiz torpaqları əbədi olaraq göz bəbəyi kimi qorumaq onların üzərinə düşür. Ona görə də, burada təhsil alan hər bir kursantın həyatı, təhsili, gələcəyi mənim üçün çox önəmlidir. Onların milli zabit kadrları kimi formalaşmasının, hərbçi kimi yetişməsinin bünövrəsi burada qoyulur. Onu da deyim ki, övladını isti ana qucağından ayırıb bu Vətənə xidmət etməyə göndərmək üçün böyük ürək lazımdır. Vətənə hərbçilər yetişdirmək üçün oğullar verən analar, atalar var olsunlar.

Sonda xatırladım ki, bu Hərbi lisey Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə yaradılmışdır. 1997-ci ildə Ulu Öndərin sərəncamı ilə bu liseyə Azərbaycanın görkəmli hərbçisi, 1937-ci il repressiyasının qurbanı Cəmşid Naxçıvanskinin adı verilmişdir. Hərbi liseyin 11 məzunu "Azərbaycanın Milli Qəhrəmanı", 19 nəfər isə "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adlarına layiq görülmüşlər. Bu gün hərbi təhsil ocağına onların xatirəsinin əbədiləşdirilməsinin rəmzi olan "Şəhidlər muzeyi" fəaliyyət göstərir.

Qoy bizim övladlarımız Vətənə və torpağa sevgi, məhəbbətlə bağlansınlar. 44 günlük Vətən Müharibəsi onu sübut etdi ki, Azərbaycan xalqının vətənpərvər övladları hər zaman olub, olacaq da. Onları dünyaya gətirən anaların qarşısında baş əyirik.

**– Maraqlı müsahibə üçün sağ olun. Rəhbərlik etdiyiniz hərbi liseyə daha böyük uğurlaq arzulayırıq.**

*Kəmalə ABDİNOVA*
*XQ*

---

## Ehtiyatlı olun!

# Elektron siqaret tüstündən də təhlükəlidir

**Son illərdə elektron siqaretlər də dünyada milyonlarla insanın gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib. Adi siqaretlərdən fərqli olaraq çox istifadəli bu cihazlar, xüsusilə, gənclər və qadınlar arasında geniş yayılıb. Səhiyyə Nazirliyi və AQTA-nın elektron siqaretlərlə bağlı vətəndaşlara müraciətində deyilir:**



– Rəngarəng dizaynlar, müxtəlif meyvə və şirniyyat dadı, sosial mediada geniş reklam olunması elektron siqaretləri gənclər üçün cazibədar hala gətirir. Bu məhsulların əsas hədəfi siqareti tərgitmək istəyənlər olsa da, son illərin statistikaları göstərir ki, əvvəllər siqaret çəkməyənlər, xüsusən yeniyetmələr və gənclər də ondan istifadə etməyə başlayıblar.

Araşdırmalar bu cihazların ənənəvi tütün məhsulları qədər, hətta daha təhlükəli olduğunu ortaya çıxarıb. Onların daxilində müxtəlif kimyəvi maddələr, o cümlədən nikotin, ağır metallar və insan orqanizminə təsir edən bir çox zərərli komponentlər mövcuddur. Elektron siqaretlərin tərkibində tütün olmadığı üçün onların daha az zərərli olması yanlış təsəvvürdür. Nikotinin yüksək dərəcədə asılılıq yaratması ilə yanaşı, ürək-damar, tənəffüs və sinir sisteminə mənfi təsirləri elmi araşdırmalar tərəfindən təsdiqlənib.

Müraciətdə daha sonra qeyd edilir ki, elektron siqaretlərdən havaya buraxılan buxar yalnız istifadəçi üçün deyil, ətrafdakı insanlara da təhlükə yaradır: "Bu isə xüsusilə uşaqlar, hamilə qadınlar və tənəffüs xəstəlikləri olan şəxslər üçün ciddi təhlükə yaradır. Bundan əlavə, elektron siqaretlərin xoş qoxusu onlardan qapalı məkanlarda istifadəsini daha da artırır. Əgər siqaretin tüstüsü və qoxusu dərhal hiss edilirsə, bu aerozollar az nəzərə çarpır. Bu səbəbdən bəzi istifadəçilər ondan ictimai yerlərdə çəkinmədən istifadə edirlər. Bu isə cəmiyyət üçün daha ciddi problem yaradır. Bu cihazlardan uzaq olun".

Tibb elmləri doktoru, professor Musa Qəniyev elektron siqaretlərin zərərli təsiri ilə bağlı XQ-yə açıqlama verib. Bildirib ki, elektron siqaretlər yüksək dispers aerozol yaradan elektron sistemdir. Onun rezervuar hissəsindəki mayenin tərkibində nikotin, aromatik əlavələr, həlledici (məsələn: propilenqlikol, qliserin) və 10–20 faiz su olur. Bəzi markalarda bu tərkibdə tetrahidrokannabinolun olması da istisna deyildir. Elektron siqaretin buxar şəkilli aerozolunda karbonil birləşməsi, nitrozamin, xrom, nikel, kadium, gümüş, civə, alüminium, anabazin, duasetil, benzaldehid, formaldehid, və s. ümumilikdə, 4 mindən artıq maddə olur. İstifadəçi tənəffüs havası ilə aerozol buxarını ciyərlərinə çəkərkən bu maddələr onun bütün orqan və sistemlərinə yayılır. Marketinq maraqlarına görə deyilməsə də, əslində, elektron siqaretdə nikotin və digər zərərli maddələrin miqdarı göstərilən normativlərdən 10–30 faiz çox olur.





**Professor elektron siqaretlərin adi siqaretlərdən daha təhlükəli olduğunu vurğulayıb:**

– Bu siqareti çəkərkən buxar halında olan aerozol, ağız boşluğu və tənəffüs yolu selikli qişasını yandırdığından çox ciddi xəstəliklərə səbəb ola bilir. Elektron siqaretin xərçəng, kəskin ağ ciyər və ürək xəstəlikləri törətmə potensialı adi siqaretdən dəfələrlə yüksəkdir. Digər tərəfdən, aerozolun ultrakiçik hissəcikləri (diametri 2,5 mikromillimetrdən kiçik, yaxud həmin ölçüyə bərabər) ağ ciyər toxumasının dərinliyinə nüfuz edir, selik baryerinə təsir göstərərək mukosiliar klirensi zəiflədə, perebronxial iltihab və fibroza səbəb ola bilir. Aerozolun tərkibində olan bəzi maddələrin, xüsusən akroleinin mutagen təsir göstərməsi, xromosom aparatında ciddi dəyişikliklər törətməsi mümkündür.

Əvvəllər elektron siqaret çəkməmiş şəxs, cəmi 20 dəfə bu tüstünü ciyərlərinə alıb-verərsə, alveolların makrofaqlarında 60-dan artıq genin ekspresiyasında, irsiyyətə verilmə ehtimalı olan dəyişiklik baş verir. Aerozolun tərkibindəki formaldehidin çox güclü kanserogen (xərçəngtörətmə) olması isə, məlum həqiqətdir. Bu siqaretdən daimi istifadə, orqanizmin toxumalarını fermentlərin destruktiv təsirindən qoruyan zülal-inhibitorların aktivliyini kəskin şəkildə azaldır. Asılılıq törətmə potensialına görə isə adi siqaretdən heç də geri qalmır. Elektron siqaretdən ümumi istifadə, hepatit, vərəm və bu kimi qorxulu və öldürücü infeksiyalara yoluxmaya 100 faizli zəmin yaradır.

Belə siqaretin ağ ciyərə təsiri, klinik gedişinə görə koronavirusdan praktik olaraq fərqlənməyən atipik gedişli, ikitərəfli kəskin ağ ciyər pnevmoniyasına səbəb ola bilir. Məsələn, "Nyu York Tayms" qəzetinin 5 avqust 2019-cu il sayında haqqın-da məlumat verilən, yanvar ayına qədər 2,5 mindən artıq insanın yoluxduğu və 60 nəfərin ölümünə səbəb olan atipik pnevmoniyanın koronavirus etiologiyalı olduğu iddia olunsa da, aparılan monitorinq bunun məhz elektron siqaretlə əlaqədar olduğunu təsdiq etdi. Odur ki, bu xəstəlik ümumdünya elmi ədəbiyyatında EVALI (ing. E-ciggarete or vaping product associate lung injury) adını aldı.

Unutmaq olmaz ki, həmin siqaretdən, hətta qısamüddətli istifadə olunsa belə, ağ ciyərlərin bərpası 2–3 aya qədər, asinusların regenerasiyası isə 12 ay və daha uzun müddətə bərpa olunur. Qeyd edək ki, ölkəmizdə məhsulun 18 yaşa çatmamış şəxslərə əvəzli və ya əvəzsiz verilməsi, həmçinin 18 yaşa çatmamış şəxslər tərəfindən istifadəsi qadağandır.

**M.Qəniyev bildirib ki, elektron siqaretin marketinqi hazırda əsasən internet və sosial şəbəkələr vasitəsilə edilir. Bu təbliğatın əsas istiqaməti və obyekti yeniyetmələr və uşaqlardır. Ona görə ailələr daha diqqətli olmalıdırlar. Professor açıqlamada valideynlərə müaraciət edib:**

– Elektron siqaret, guya "qorxusuz su buxarı hasil edir" – fikri tamamilə yanlış və əsassızdır. Siz çalışın, övladlarınızı elektron siqaret bəlasından qoruya biləsiniz...

Ölkəmizin gəncləri arasında elektron siqaretdən istifadənin artması, səhiyyəmizin potensial problemi hesab olunmalıdır. Gənclərimizi bu bəladan qorumağın yeganə yolu, bu siqaretlərin ölkəyə gətirilməsi və istifadəsinə mütləq və qeyd-şərtsiz olaraq qadağanın qoyulmasıdır. Eyni zamanda, elektron siqaretin orqanizmə vurduğu zərər, yaratdığı fəsadlarla bağlı roliklər çəkilməli, maarifləndirici video-çarxlar hazırlanmalı, KİV nümayəndələri mütəxəssis fikirləri ilə əhalini məlumatlandırmalıdırlar.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Nəqliyyat probleminin modernləşdirilməsinə

**Bu gün dünyanın bütün iri şəhərlərində olduğu kimi, Bakının nəqliyyat sistemi də iqtisadi və demoqrafik artım fonunda bir sıra çağırışlarla üzləşib. Bu çağırışlara cavab olaraq paytaxtımız "avtomobil mərkəzli şəhər" yanaşmasından "insan yönümlü" yanaşmaya keçid edib. Belə bir keçidlə nəqliyyat sistemində dövlət tənzimlənməsi reallaşmaqla bərabər, sakinlərin nəqliyyat tələbləri də dəyişib, diqqət, ilk növbədə, keyfiyyətə yönəlib. Keyfiyyət isə küçələrin müasir tələblər əsasında qurulmasına, avtobusların sayının yetərli olmasına, dəmir yolu və metro infrastrukturunun genişləndirilməsinə əsaslanıb.**

Bütün bu məsələlərlə bağlı redaksiyamızda təşkil olunan "dəyirmi masa"da qonaqlarımız Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) Bakı Regional İdarəsinin müdiri Tərlan Səfərov, ictimai nəqliyyat şöbəsinin müdiri Emin Məcidov, taksi və fərdi nəqliyyat vasitələri ilə iş şöbəsinin müdiri Orxan Şıxıyev və qurumun Nəqliyyat strategiyası departamentinin direktoru Hüseyn Abdullayev idi.

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov "dəyirmi masa"da qonaqları salamlayaraq bildirdi ki, respublikamızda son 21 il ərzində nəqliyyat sahəsində əsaslı islahatlar aparılıb, infrastruktur yenidən qurulub, idarəetmə təkmilləşdirilib, təhlükəsizlik tədbirləri həyata keçirilib. Nəqliyyat əməliyyatlarında informasiya –kommunikasiya texnologiyalarından istifadəyə geniş şərait yaradılıb. Eyni zamanda, bu sahədə idarəetmə müasirləşdirilib. Dövlət başçısının 19 aprel 2023-cü il fərmanı ilə ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmənin və nəzarətin həyata keçirilməsi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilib. Eyni fərmanla, AYNA Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindəki "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin ona qoşulması formasında yenidən təşkil olunub.

**Əflatun Amaşov daha sonra dedi:**

– Bütün bunlarla bərabər, paytaxtın nəqliyyat sistemində hələ çox iş görülməlidir. Küçə və yol infrastrukturu optimallaşdırılmalı, avtobusların sayı daha da artırılmalı, dəmir yolu və metro xətləri genişləndirilməlidir. Digər tərəfdən, dövlət tənzimləməsi vasitəsilə parklanma tariflərinin tətbiqi, avtobus zolaqlarının pozulmasına görə cərimələrin sərtləşdirilməsi və tələbin idarə edilməsinə yönələn digər tədbirlər yeni nəqliyyat vərdişlərinin formalaşmasına şərait yaratmalıdır.

Baş redaktor daha sonra qonaqları işgüzar, səmərəli müzakirəyə dəvət edərək vurğuladı ki, son illərdə qəzetimizin səhifələrində ölkənin ictimai-siyasi, iqtisadi həyatının bütün sahələri, eləcə də nəqliyyat layihələrinin reallaşdırılması, bu sahədə nəzərə çarpan problemlərin işıqlandırılması ilə bağlı məqalələr dərc edilib və bu, hazırda da davam edir. Bu gün sizinlə bir arada olmaq, fikirlərinizi dinləmək də böyük sevincdir.

*

**– Ölkə Prezidenti İlham Əliyev bu il yanvarın 30-da imzaladığı sərəncamla "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nı təsdiqləyib. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində bu mühüm sənədin icrası istiqamətində nə kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur?**

**Tərlan SƏFƏROV, AYNA-nın Bakı Regional İdarəsinin müdiri:**



– Məlum olduğu kimi, bu il yanvarın 28-də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə nəqliyyat məsələlərinə həsr olunmuş müşavirə keçirildi. Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, bu toplantı Azərbaycanın nəqliyyat tarixində çox mühüm bir hadisə idi. Tədbirdə çıxış edən dövlət başçısı Bakı şəhəri və onun ətrafında yerləşən ərazilərlə bağlı yeni dövlət proqramının qəbul edilməsinin zəruriliyini diqqətə çatdırdı. Ölkə rəhbəri bunun çox böyük, iri maliyyə tutumlu bir proqram olacağını vurğulayaraq sənədin bütün aidiyyəti qurumlardan birgə fəaliyyət və səmərəli iş tələb edəcəyini bildirdi.

Bundan cəmi 2 gün sonra, yanvarın 30-da "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalandı. Beləliklə, paytaxtımızın yol-nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı müühm bir dövlət sənədi həyata vəsiqə aldı. Yeri gəlmişkən, proqramın giriş hissəsində onun prinsipləri və məqsədləri barədə ətraflı məlumat verilir. Sənəddə Bakı şəhərində nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması, paytaxtda bütün yol hərəkəti iştirakçıları üçün təhlükəsiz bir mühitin formalaşdırılması, eyni zamanda, əlçatanlığın, inklüzivliyin artırılması və bu proseslərdə müasir texnologiyalardan istifadə edilməsi əsas tutulur. Heç şübhəsiz, əsas məqsəd vətəndaş məmnunluğunun artırılması, ictimai nəqliyyatın inkişaf etdirilməsi ilə bağlıdır. Bununla yanaşı, qarşıda duran əsas vəzifələrdən biri də Bakının ekoloji təmiz bir şəhərə çevrilməsini təmin etmək məqsədilə atmosferə atılan zərərli tullantıların miqdarının azaldılmasıdır.

Eyni zamanda, proqramda qeyd olunan tədbirlərin təhlillərinin arxasında çox ciddi rəqəmlər durur. Məlum olduğu kimi, artıq 2 ildir ki, Bakı şəhərinin rəqəmsal əkizi



hazırlanır. Paytaxtda tətbiq ediləcək yol və ya ictimai nəqliyyat infrastrukturu ilə bağlı bütün layihələr bu rəqəmlər vasitəsilə hesablanır və onların şəhərin ümumi nəqliyyat sisteminə necə təsir göstərəcəyi təhlil edilir. Yeni Dövlət Proqramı isə Bakı şəhərinin yol-nəqliyyat infrastrukturu ilə bağlı bütün məsələləri tam əhatə edir. Yeri gəlmişkən, müşavirədə səsləndirildiyi kimi, paytaxtımızın avtomobil mərkəzli şəhərdən daha çox insan yönümlü şəhərə keçidi nəzərdə tutulur. Belə ki, proqramın əksər bəndləri, ilk növbədə, ictimai nəqliyyatın inkişaf etdirilməsinə fokuslanıb. Bu barədə həmkarlarım da ətraflı məlumat verəcəklər.

Sənəddə xüsusi önəm kəsb edən məsələlərdən biri də paytaxtda fəal mobilliyin, yəni piyada yürüşlərinin təşviq edilməsi ilə bağlıdır. Bu isə əlverişli infrastrukturun qurulmasını, eyni zamanda, mikromobilliyin, yəni xüsusi nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsini və velosiped yollarının genişləndirilməsini tələb edir. Bununla yanaşı, proqramda digər vacib məsələlər də öz əksini tapıb. Əsas hədəflərdən biri də nəqliyyat növləri arasında ictimai nəqliyyatın pay bölgüsünün mövcud 30 faizdən 40 faizə qaldırılmasıdır. Bütün bunlar isə gələcəkdə Bakı şəhərində mobilliyin artırılmasına, eləcə də insanların şəxsi minik avtomobillərindən ictimai nəqliyyata, fərdi mobillik vasitələrinə keçid etməsinin təmin olunmasına hesablanmış addımlardır.

Proqramın konkret hədəflərindən biri də Bakı şəhərində avtobus zolaqlarının genişləndirilməsi ilə bağlıdır. Belə ki, 2023-cü ilin əvvəlində paytaxtda avtobus zolaqlarının uzunluğu 65 kilometr olduğu halda, hazırda bu rəqəm 110 kilometr təşkil edir. Yəni bu sahədə, təqribən, 2 dəfə artım var. Yeni sənədə əsasən isə, 2030-cu ilədək həmin zolaqların uzunluğunun 160 kilometrə çatdırılması planlaşdırılır. Amma bu da son deyil.

2024-cü ilin əvvəlində velosiped yolları ilə bağlı hədəfimiz 17 kilometr olsa da, ilin sonuna bu rəqəmi 35 kilometrə çatdırdıq. Proqramda isə hədəf olaraq 100 kilometr nəzərdə tutulur. Onu da qeyd edim ki, bu rəqəm də minimumdur. Çünki velosiped yollarının təşkili ilə bağlı biz gündəlik müzakirələr aparırıq. Bu da velosiped yollarının təşkili ilə bağlı bir çox amillərin nəzərə alınmasının vacibliyindən irəli gəlir. Çünki bu zaman yolun zolaqları, mailiiliyi, ətrafdakı müəssisələr və s. kimi hallar nəzərə alınmalıdır. Yalnız bu imkanlar olduğu təqdirdə həmin layihəni reallaşdırmaq mümkün olur.

Dövlət Proqramında qarşıya qoyulmuş vacib hədəflərdən biri də təhlükəsizliklə bağlıdır. Bu da yol-nəqliyyat hadisələri zamanı ölüm hallarının 50 faizədək azaldılmasına hesablanmış addımdır. Yeri gəlmişkən, bu gün Azərbaycanda yol-nəqliyyat hadisələri zamanı ölüm sayı hər 100 nəfərə 8 nəfər təşkil etdiyi halda, Avropa ölkələrində bu göstərici 4 nəfər səviyyəsindədir. Yeni sənəd yol qəzaları zamanı ölüm göstəricisini Avropa səviyyəsinə endirməyi hədəfləyir. Buna da nəyin nəticəsində nail olmaq mümkündür? Məlum olduğu kimi, ölkəmizdə yol-nəqliyyat hadisələri zamanı piyada ölümlərinin sayı çoxluq təşkil edir. Bu göstərici Bakı şəhəri üzrə 50 faiz, bölgələrdə isə 60 faiz səviyyəsindədir. Proqrama əsasən, piyadaların təhlükəsizliyini təmin etmək məqsədilə keçidlərin işıqlandırılmasına diqqət artırılacaq. Hazırda piyada keçidlərində daha qalıcı və işıqqaytarıcı vasitələrdən istifadə edilir, küçə və prospektlərdə yol nişanları yenilənir. Göründüyü kimi, proqramda daha təhlükəsiz infrastrukturun yaradılmasına geniş yer ayrılıb. Bundan başqa, sənəddə piyada təşviqi ilə bağlı məsələr də geniş əksini tapıb. Hazırda Qış parkı ilə Fəvvarələr meydanını birləşdirən küçələrdə piyada zonalarının təşkili üzərində iş gedir. Eyni zamanda, Təbriz küçəsində pilot layihə nəzərdən keçirilir. Məqsəd ondan ibarətdir ki, sözügedən küçə piyadaların hərəkəti üçün daha münasib vəziyyətə gətirilsin.

Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına yönələn bu proqram 3 əsas məqsədi qarşıya qoyub. Bunlar daha sürətli, daha təhlükəsiz, daha ekoloji mobillik imkanlarının yaradılmasıdır. Bu məqsədlərə nail olunması üçün alt məqsədlər də müəyyənləşdirilib. Bunlar sakinlər üçün şəhər konsepsiyasına keçidin təmin edilməsidir. Burada ictimai nəqliyyatdan istifadənin genişləndirilməsindən, əlavə və yeni mobillik imkanlarının yaradılmasından, piyadaların hərəkətinin, eləcə də mikromobilliyin genişləndirilməsindən danışılır. Eyni zamanda, sərnişin təcrübəsinin tamamilə rəqəmsallaşdırılması və bəzi sistemli dəyişikliklərin də həyata keçirilməsi nəzərdə tutulub. Bunlar daha az tıxacın yaranması, cazibə mərkəzlərinə daha sürətli çatma imkanları, eyni zamanda, daha təhlükəsiz və daha ekoloji mobillik mühitinin yaradılmasıdır. Proqramın icrası nəticəsində əlavə müsbət sosial-iqtisadi effektlər yaranacaq. Bütün bu amillər birlikdə Bakı şəhərinin beynəlxalq reytinqlərdə ən yüksək reytinqə, ən yaxşı şəhərlər reytinqinə daxil olmasını təmin edəcək.

Rəqəmsal əkizin yaradılması üçün milyardlarla data istifadə edilib. Burada avtobus dataları, metro dataları, hətta mobil operatorların 6 milyarddan çox datası istifadə olunmuşdur. Rəqəmsal əkiz həm şəhər axınlarının, eləcə də infrastrukturun bu axınlara təsirinin, eyni zamanda, yeni infrastruktur layihələrinin səmərəliliyinin qiymətləndirilməsinə imkan yaradır və bundan sonra verilmiş qərarların hər biri öncədən rəqəmsal əkizdə simulyasiya edildikdən sonra müvafiq qaydada təqdim edilib.

**Hüseyn ABDULLAYEV, Nəqliyyat strategiyası departamentinin direktoru:**



– Bakı şəhərində və ətraf ərazilərdə yerləşən nəqliyyat infrastrukturunun inkişafı hər zaman diqqətdə saxlanılıb. Son illər ərzində bu istiqamətdə bir çox təşəbbüslər gerçəkləşdirilib, böyük infrastruktur layihələri icra olunub. Lakin bütün bunlara baxmayaraq, paytaxtda tıxac problemi hələ də aradan qaldırılmayıb. Şübhəsiz ki, belə bir şəraitin mövcudluğunun müxtəlif səbəbləri var. Bu sıxlıq, ilk növbədə, Bakı şəhərinin əhalisinin ildən-ilə artması ilə bağlıdır. Hesablamalara əsasən, ötən 30 il ərzində ölkə əhalisinin sayı 7 milyon nəfərdən 10 milyonu ötüb. Əgər keçən illər ərzində bu istiqamətdə zəruri tədbirlər həyata keçirilməsəydi, yol infrastrukturu davamlı olaraq yenilənməsəydi, eləcə də paytaxtda metro tikintisi aparılmasaydı vəziyyət indikindən daha ağır, daha acınacaqlı olardı, nəqliyyat iflic vəziyyətinə düşərdi.

Bu fikrin təsdiqi olaraq diqqəti bəzi məqamlara yönəltmək istərdim. Belə ki, Bakı şəhərində son 20 ildə 2 min kilometrdən çox yol çəkilib, yenidən qurulub və ya təmir edilib. Bu dövrdə paytaxtda 83 yol ötürücüsü, 99 yeraltı və yerüstü piyada keçidi inşa olunub. Təbii ki, bütün bu qurğuların istismara verilməsi avtomobil sıxlığının və tıxacların aradan qaldırılmasına, avtomobil yollarından rahat və təhlükəsiz şəkildə istifadə olunmasına müsbət təsir göstərib.

Dövlətimizin başçısı yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə bu barədə ətraflı bəhs edərək bildirdi ki, bütün ölkə üzrə son illər ərzində bir çox nəqliyyat layihələri icra edilib, kənd, şəhərlərarası, magistral yollar genişmiqyasda yenilənib. Bakı şəhərinin heç bir standarta uyğun gəlməyən yolları təzələnib. Lakin bütün bu tədbirlərə baxmayaraq nəqliyyat sistemində yaranan və ciddi narahatlıq doğuran problemləri aradan qaldırmaq mümkün olmayıb. Bax, elə buna görə də paytaxtın monosentrik şəhərə çevrilməsi probleminin kompleks həlli məqsədilə maliyyə tutumlu xüsusi proqramın qəbuluna zərurət yaranmışdı və artıq həmin proqram dövlətimizin başçısı tərəfindən təsdiqlənib, onun icrası üçün isə data əsaslı qərarların verilməsi məqsədilə ölkəmizə beynəlxalq məsləhətçi şirkət dəvət olunmaqla şəhərin rəqəmsal əkizi yaradılıb.

Rəqəmsal əkizin yaradılması üçün milyardlarla data istifadə edilib. Burada avtobus, metro, hətta mobil operatorların 6 milyarddan çox datası istifadə olunub. Rəqəmsal əkiz həm şəhər axınlarının, eləcə də infrastrukturun bu axınlara təsirinin, eyni zamanda, yeni infrastruktur layihələrinin səmərəliyinin qiymətləndirilməsinə imkan yaradır və bundan sonra verilmiş qərarların hər biri öncədən rəqəmsal əkizdə simulyasiya olunduqdan sonra müvafiq qaydada təqdim edilib.

Burada narahatedici bir araşdırma faktını xatırlatmaq istərdim. Rəqəmsal əkizlə bağlı ilk rəqəmlər belə bir nəticəyə gəlməyə əsas verdi ki, Bakı şəhərində bir il ərzində 2 milyarddan çox səfər həyata keçirilir və bu səfərlərin strukturunda ictimai nəqliyyatın payı 30 faiz, fərdi nəqliyyat və taksilərin payı isə 50 faiz olur. Beynəlxalq təcrübə isə bunun tamamilə əksini tələb edir. Bülə ki, beynəlxalq təcrübədə ictimai nəqliyyatın payının ən azı 39-40 faiz, fərdi nəqliyyat vasitələri istifadəsinin payının isə 30 faiz civarında olması tələb olunur ki, bu da rəvan mobillik mühitinin yaranması ilə əlaqədardır. Sadə hesablamalar onu göstərir ki, yalnız ictimai nəqliyyatda rəvan mobil mühit yaranması üçün illik əsasda 300 milyon səfərin ötürülməsi vacibdir. Bir zəruri məqam isə odur ki, hesablamalara başlanarkən vəziyyətin trendi daha da pisləşmək üzrə idi. Yəni şəhərdə ictimai nəqliyyatın payının azalması, fərdi nəqliyyat vasitələrinin payının isə artması trendi var idi.

**– Əhalinin ictimai nəqliyyatdan, xüsusən də avtobuslardan istifadəyə marağının artırılması istiqamətində hansı işlər görülür?**

**Emin MƏCİDOV, AYNA-nın ictimai nəqliyyat şöbəsinin müdiri:**



– İctimai nəqliyyatın inkişaf etdirilməsi, ilk növbədə, paytaxtda mövcud nəqliyyat növləri arasında ədalətli pay bölgüsünə nail olunmasını tələb edir. Düşünürəm ki, bu məsələdə həm ictimai nəqliyyata, həm də mikromobillik vasitələrinə üstünlük verilməlidir. Çünki biz inkişaf etmiş digər ölkələrin təcrübəsinə nəzər yetirdikdə görürük ki, ictimai nəqliyyatın inkişaf etdirilməsi üçün ədalətli pay bölgüsünə daha çox diqqət yetirilir. Ölkəmizdə əhali sayı fərdi nəqliyyat vasitələrindən daha çox olduğu üçün ictimai nəqliyyatın inkişaf etdirilməsi olduqca vacibdir. Bu, ilk növbədə, əhalinin mobillik imkanlarının artırılmasına imkan yaradır. İctimai nəqliyyatın inkişaf etdirilməsinin bir sıra yolları var ki, bunlardan ən mühümü avtobus zolaqlarının tətbiq edilməsindən ibarətdir. Heç şübhəsiz, bu, ictimai nəqliyyatın cəlbediciliyini xeyli artırır. Ötən müddətdə Bakı şəhərinin 37 küçəsi üzrə 110 kilometr uzunluğunda avtobus zolaqları yaradılıb. Həmkarımın da qeyd etdiyi kimi, dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş Dövlət Proqramında bunun 160 kilometrə çatdırılması nəzərdə tutulur. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Eyni zamanda, paytaxtın avtobus parkının yenilənməsi də qarşıda duran mühüm vəzifələrdəndir. Bu da təsadüfi deyil. Çünki avtobus parkının yenilənməsi ilə sərnişindaşımada xidmətin keyfiyyəti yaxşılaşır. Belə olan halda isə fərdi nəqliyyatdan ictimai nəqliyyata keçid sürətlənir. Nəzərinizə çatdırmaq istəyirəm ki, ötən il Bakı şəhərinə elektriklə işləyən 166 avtobus gətirilib. Ekoloji cəhətdən təmiz və komfort şəraiti olan həmin nəqliyyat vasitələri artıq vətəndaşların istifadəsinə verilib. Bununla yanaşı, müxtəlif daşıyıcı şirkətlər tərəfindən il ərzində sıxılmış təbii qazla işləyən avtobuslar alınaraq paytaxta gətirilib. Bu da şəhərin mövcud avtobus parkının ekoloji təmiz nəqliyyat vasitələri ilə əvəz olunmasına və sərnişindaşıma xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasına imkan yaradır. Bu il də sahibkarlar tərəfindən ekoloji cəhətdən təmiz 100-dən artıq avtobusun alınaraq xəttə buraxılması nəzərdə tutulur.

Yaxın vaxtlarda ölkəmizdə elektriklə işləyən avtobusların istehsalına başlanılması planlaşdırılır. Elektrikli avtobusların istehsalı nəticəsində paytaxtın avtobus parkının əhəmiyyətli dərəcədə yenilənməsi həyata keçiriləcək. Bu da istismar müddətini başa vurmuş avtobusların sərnişindaşıma sahəsindən kənarlaşdırılması ilə daha müasir, komfortlu avtobusların sərnişindaşımaya cəlb olunmasına imkan yaradılacaq.

Qarşıda duran mühüm vəzifələrdən biri də ictimai nəqliyyata əlçatanlığın təmin edilməsi ilə bağlıdır. Bu, həm də ictimai nəqliyyatın cəlbediciliyini artıran amillərdəndir. Hazırda həm şəhərdaxili, həm də ətraf qəsəbələr üzrə əlçatanlığın artırılması həyata keçirilir. Artıq ötən il ərzində 11 marşrut üzrə yeni şəbəkənin tətbiqinə başlamışıq. Onu da qeyd etmək istəyirəm ki, yeni şəbəkənin tətbiqi, Tərlan müəllimin də qeyd etdiyi kimi, Bakı şəhərinin rəqəmsal əkizinə əsaslanaraq həyata keçirilir. Belə ki, rəqəmsal əkizdən əldə olunan göstəricilər və məlumatlar əsasında yeni şəbəkə formalaşdırılır. Bunun da nəticəsində ətraf ərazilərdə ictimai nəqliyyata əlçatanlıq daha da artır.

# həlli paytaxtın növbəti töhfə olacaq

Yeni şəbəkənin tətbiqi ilə paralel olaraq yeni marşrutların yaradılması və marşrutlar üzrə avtobusların yenilənməsi prosesi də həyata keçirilir. Ötən il ərzində marşrutlar üzrə 210-dan artıq avtobusun yenilənməsi həyata keçirilib. Nəticə etibarilə sərnişin sayında artıma nail olunub. Belə ki, 2024-cü ildə əvvəlki illə müqayisədə 28 milyon sərnişin əlavə olaraq ictimai nəqliyyata cəlb edilib. Düşünürəm ki, bu tendensiya cari ildə də davam edəcək. Beləliklə də, biz ictimai nəqliyyatın daha da inkişaf etdirilməsinə və daha çox sərnişinin bu növ nəqliyyata yönləndirilməsinə nail olacağıq.

Hazırda gün ərzində 2160-a yaxın müxtəlif tutumlu avtobus xəttə buraxılır. 2 il əvvəl bu rəqəm 1700 ətrafında idi. Yaxın gələcəkdə isə marşrut avtobuslarının sayının 2800-ə çatdırılması hədəflənib. Bu da sərnişin avtobuslarına olan tələbatı ödəməyə imkan yaradacaq. Yeni avtobuslar ölkəyə gətirildikcə park yenilənir. Ölkədə təşkil olunacaq yeni istehsal da həmin hədəfə çatmağa imkan verəcək.

Əhalinin ictimai nəqliyyatdan, xüsusən də avtobuslardan istifadəyə marağının artırılması istiqamətində görülən işlər sırasında mobilliyin transformasiyası mühüm önəm daşıyır. Bu çərçivədə reallaşdırılan layihələrin nəticələrini ifadə edən bir neçə rəqəmi xatırlatmaq istərdim. Belə ki, sərnişindaşıma tezliyinin artırılması, hərəkət sürətinin təmin edilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi üçün çəkilən zolaqlar sayəsində avtobusların həm sürəti, həm göstərilən xidmətlərin keyfiyyəti yüksəlib. Zolaqlar istifadəyə veriləndən sonra şəhər daxilində avtobusların orta sürəti 18 kilometrdən 22 kilometrə qədər çoxalıb. Sıxlıq çox olan bəzi küçələrdə, məsələn, Atatürk prospektində sürət 12 dəqiqə azalıb.

**– Yeri gəlmişkən, ictimai nəqliyyatla sərnişindaşıma sahəsində problemlər də az deyil. Məsələn, Tarif (qiymət) Şurasının avtobuslarda gediş haqqının tənzimlənməsi ilə bağlı məlum qərarlarından sonra bəzi şəhərətrafı marşrutlarda hələ də istismara yararsız, köhnə avtobuslarla sərnişindaşıma hallarına rast gəlinir. Bununla yanaşı, günün müəyyən vaxtlarında, xüsusən də axşam saatlarında bəzi sürücülər marşrutdan yayınırlar ki, bu da sərnişinlərin haqlı narazılığına səbəb olur. Eyni zamanda, həm avtobus, həm də taksi sürücüləri ilə sərnişinlər arasında anlaşılmazlığa, kobud davranışlara təsadüf olunur. AYNA tərəfindən belə xoşagəlməz halların qarşısının alınması üçün nə kimi tədbirlər görülür?**

**– Emin MƏCİDOV:** – Sürücülərin marşrutdan yayınmasının, axşam saatlarında xəttə çıxmamasının əsas səbəbi iqtisadi amillərlə bağlıdır. Məlum olduğu kimi, ayrı-ayrı marşrutlar üzrə daşınan sərnişinlərin sayı fərqlidir. Bu baxımdan şəhər daxilində hərəkət edən avtobuslarla şəhərətrafı marşutlar üzrə işləyən avtobuslara nisbətən daha çox sərnişin daşınır. Bu da ona gətirib çıxarır ki, bəzi daşıyıcılar sərnişindaşımaya çəkdikləri xərcləri qarşılmağa çətinlik çəkirlər. Bununla belə, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində məsələ ilə bağlı lazımi tədbirlər görülür, sərnişinlərin təhlükəsizliyini təmin etmək məqsədilə istismara yarasız nəqliyyat vasitələri dərhal xətdən kənarlaşdırılır. Harda ki sərnişin sıxlığı azdır, orda axşam saatlarında avtobus sayı da az olur. Çünki daşıyıcılar qazanclarını ancaq sərnişinlər hesabına təmin edirlər. Hazırda bu problemi həll etmək üçün müxtəlif variantlar üzərində iş gedir. Bu məqsədlə hökümətə müəyyən təkliflər verilib ki, bu məsələ öz həllini tapsın.

Avtobusların yenilənməsinə gəldikdə isə, qeyd etməliyəm ki, dövlətə məxsus daşıyıcı şirkət olan "Bakubus" bu məsələdə lazımi dəstək ala bilir. Yeni avtobuslar alınıb paytaxta gətirilir. Bu da həmin marşrutların rentabelli işləməsinə imkan yaradır. Amma bir sıra daşıyıcı şirkətlərin imkanları məhdud olduğundan xəttə buraxmaq üçün kifayət qədər avtobusları yoxdur. Amma bu məsələ sərnişini maraqlandırmır. Çünki sərnişin hər bir halda keyfiyyətli xidmət istəyir. Biz də hazırda həmin mexanizm üzərində işləyirik. Çalışırıq ki, hər bir marşrut xəttində eyni xidmət səviyyəsinə nail olaq, daşıyıcılar daha çox avtobus ala bilsinlər.

Hələlik bəzi marşrutlar nağd ödəniş sistemi əsasında fəaliyyət göstərir. Nağdsız, kart sistemi ilə işləyən marşrutlara nəzarət olunur. Əməkdaşlarımız sistem və monitorinq mərkəzi vasitəsilə avtobusların iş saatını, intervalını görür, prosesi izləyə bilirlər. Həmçinin bəzi avtobuslarda sürücü davranışını, onun iş fəaliyyətini izləmək üçün kamera görüntülərinə baxılır.

**Tərlan SƏFƏROV:** – AYNA-ya daxil olan hər bir şikayət mütləq şəkildə araşdırılır. Daşıyıcı şirkətin rəhbərliyi dəvət edilir, ona xəbərdarlıq olunur. Əgər məsələ ciddidirsə, həmin sürücü xətdən kənarlaşdırılır. Onu da deyim ki, bizdə sürücülərin elektron bazası var. Əgər hər hansı bir sürücü qara siyahıda qeydə alınıbsa, bu o deməkdir ki, onun digər bir marşrutda işləməsinə imkan verilməyəcək. Sürücü ilə sərnişin arasında baş vermiş münaqişənin səbəbləri araşdırılarkən kamera görüntüləri çıxarılır. Əgər sürücünün günahkar olması təsdiqini tapırsa, onun haqqında mütləq şəkildə tədbir görülür. Hadisənin ciddiliyindən asılı olaraq həmin tədbirlər işdən çıxarılmaya qədər gedə bilir.

**Emin MƏCİDOV:** – Ümumilikdə isə, ictimai nəqliyyat sisteminə ayrı-ayrılıqda baxılmamalıdır. Metro, dəmir yolu, avtobuslar, əslində, vahid bir sistem kimi çalışmalıdır. Bu, sərnişinlər üçün mümkün qədər rahat və mümkün qədər az vaxt alan bir sistemə çevrilməlidir. Bəlkə də ilk dövlət proqramıdır ki, orada hər bir ictimai nəqliyyat, hətta perspektiv ictimai nəqliyyat növlərinə diqqət ayrılıb, konkret tapşırıqlar verilib. Gördüyünüz kimi, metro və şəhərətrafı dəmir yolu sistemində inkişaf var. Yeni proqramda tramvay və sürətli avtobus sistemləri, eləcə də nəqliyyat mübadilə məntəqələrinin inkişaf etdirilməsi vurğulanıb. Bu da ictimai nəqliyyat növləri arasında güclü inteqrasiyanın yaradılması məqsədi daşıyır. Biz də bu istiqamətdə lazımi işlər görürük. Ötən ildən etibarən metronun "28 May" stansiyası ətrafındakı meydan həm piyadalar üçün, həm də ictimai nəqliyyat üçün rahat bir məkana çevrilib. Eyni zamanda, metronun "Koroğlu" və "Gənclik" stansiyalarının yaxınlığında yeni mübadilə məntəqələri yaradılıb. Bu istiqamətdə tədbirlər davam etdiriləcək. Məqsəd də, qeyd etdiyim kimi, vahid bir inteqrasiya sisteminin yaradılmasına nail olmaqdır.

Yəni paralel olaraq bu proses gedir. Biz marşrutları müsabiqəyə çıxarırıq. Müsabiqənin nəticəsi olaraq avtobuslar yenilənir və eyni zamanda, kartla ödənişə keçilir. Belə olan halda həmin marşrutların fəaliyyətinə nəzarət xeyli asanlaşır. Düzdür, tərəfimizdən ərazi üzrə də nəzarət həyata keçirilir. Qaydaları pozan daşıyıcılar və sürücülər barəsində tədbirlər görülür. Müsabiqələrimiz də intensiv şəkildə davam etdirilir. Köhnə, istismara yararsız avtobusların mövcud olduğu marşrutlar müsabiqəyə çıxarılır.

**– Taksi xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə nə deyə bilərsiniz?**

**Orxan ŞIXIYEV, taksi və fərdi nəqliyyat vasitələri ilə iş şöbəsinin müdiri:** – Bakı şəhərində taksi fəaliyyəti son



illər ərzində mühüm inkişaf yolu keçib. Ənənəvi taksilərlə yanaşı, mobil tətbiqlər vasitəsilə fəaliyyət göstərən taksi sifarişi də şəhər nəqliyyatının səmərəliyinə müsbət təsir göstərib. Bu tətbiqlər sərnişinlərə taksi tapmağı asanlaşdırmaqla nəqliyyat marşrutlarını optimallaşdırıb və xidmətin keyfiyyətini yüksəldib.

Taksi fəaliyyətinin tənzimlənməsi istiqamətində atılan addımlar, normativ hüquqi aktların təkmilləşdirilməsi istiqamətində görülən işlər vətəndaşlara keyfiyyətli vətəhlükəsiz xidmət göstərilməsinə, sərnişinlərin və fərdi məlumatların təhlükəsizliyinin təmin edilməsinə, qeyri-formal məşğulluğun qarşısının alınmasına, bu sahədə qanuni fəaliyyət göstərən bütün sahibkarların maraqlarının qorunmasına hədəflənib, həmçinin nəqliyyat vasitələrinin texniki baxışı, buraxılış vəsiqəsi və kartı, eyni zamanda, sürücülərə dair təlimlərin təşkili xidmətinin keyfiyyətinin artmasına gətirib çıxarıb. Bu tədbirlər qısaməsafəli səfərlərin sayının 30 faiz, illik taksi səfərlərinin 40−50 milyon azalmasına və taksi parkının orta yaşının 14,6-dan 8 ilədək enməsinə səbəb olub. Görülən işlər həm taksi xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə, həm də ekoloji və texniki təhlükəsizlik standartlarının artırılmasına yönəlib.

Taksi xidmətlərinin keyfiyyətini artırmaq məqsədilə son illərdə sürücülərin peşəkar biliklərinin və davranış standartlarının təkmilləşdirilməsinə yönəlmiş təlimlər keçirilib. Bu təlimlər təhlükəsiz sürücülük, müştəri xidmətləri və etik davranış sahəsində irəliləyişlərə səbəb olub. Nəticədə xidmətin etibarlığı və sərnişin məmnuniyyəti artıb, bu amillər nəqliyyat sisteminin dayanıqlığına müsbət təsir göstərib.

Təlimlərin davamlı təşkili bu sahədə inkişafın təminatıdır. Dövlət büdcəsi hesabına alınmış sərnişin avtonəqliyyat vasitələrindən səmərəl istifadəni təmin etmək və Bakı şəhərində taksi xidmətlərinin keyfiyyətini artırmaq məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 30 mart tarixli qərarına əsasən "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilib. Cəmiyyətin taksi parkında 700 nəqliyyat vasitəsi mövcuddur ki, bunların 35 faizdən çoxu ekoloji cəhətdən təmiz elektrik mühərrikli avtomobillərdən ibarətdir.



Taksi parkının yenilənməsi istiqamətində hökumət tərəfindən tədbirlər davam etdirilir. Ötən il ərzində ölkəyə 153 yeni elektrikli taksi minik avtomobili gətirilib və şəhər sakinlərinin istifadəsinə verilib. Bu, ekoloji davamlılıq və müasir texnologiyaların tətbiqi baxımından əhəmiyyətli bir addım olub.

Taksi xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə gəldikdə isə demək olar ki, bu sahədə də islahatlar keçirilməzdən əvvəl həm xidmətin özündən, həm sürücülərdən, həm də avtomobillərdən ciddi, eyni zamanda, haqlı narazılıqlar var idi. İslahatlar zamanı 35 min sürücü təlimlərə cəlb olundu və bunların hər biri ilə imtahanlar keçirildi. Sürücülərdən 29 mini imtahanlardan keçə bildi. İmtahanlar Dövlət İmtahan Mərkəzi tərəfindən reallaşdırıldı.

Ancaq layihələrin icrası nəticəsində müsbət göstəricilər əldə edildi: taksilərin sayı 67 mindən 30 minə, taksilərin orta yaşı isə 15-dən 8-ə endirildi. Ən əsası isə şəhər mərkəzinə doğru sıxlıq yaradan qısa məsafəyə səfərlərin sayı kəskin azaldıldı, bu,təxminən, 32 faizə salındı. Hazırda isə, ümumiyyətlə, 15 ildən köhnə olan avtomobillər xidmətdən kənarlaşdırılıb və şəhərdə eyni rəngdə – ağ rəngdə olan hibrid və elektrik taksi avtomobillərinin sayı bizdən xüsusi icazə almaqla durmadan artmaqdadır. Bu gün AYNA informasiya sisteminin tərkibində yaradılan "Etaksi" sistemi vasitəsilə artıq taksi xidmətlərinə, taksi hərəkətlərinə tamamilə nəzarət həyata keçirilir.

**– Paytaxtda mikromobilliyin təşkilinin əhəmiyyəti və bu sahədə həyata keçirilən tədbirlər barədə nələri qeyd etmək olar?**

**Hüseyn ABDULLAYEV:** – Son zamanlar paytaxtımızda mikromobilliyin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər əhali tərəfindən rəğbətlə qarşılanır. Bu da velosiped və skuterlərdən istifadəyə marağın gedtkcə artmasına səbəb olur. Ötən müddətdə sahibkarlar tərəfindən paytaxta 900 velosiped gətirilib. Bu yalnız paylaşılanların sayıdır. Bundan əlavə, şəxsi istifadədə olan velosipedlərin sayı da həddindən artıq çoxdur. Eyni zamanda, ayrı-ayrı şirkətlər tərəfindən paytaxta 4 minə yaxın skuter gətirilib. Bu növ nəqliyyat vasitələrindən qısa və orta səyahətlərin həyata keçirilməsində istifadə olunur. Bu zaman 3-5 kilometrlik məsafələr nəzərdə tutulur. Təcrübə göstərir ki, Bakı şəhərində 5 kilometrlik məsafəyə səyahətləri mikromobillik vasitələri ilə rahatlıqla həyata keçirmək mümkündür.

Biz bu analizə başlamazdan öncə, əsasən taksi aqreqatorlarının və digər qurumların məlumatlarına, eləcə də rəqəmsal əkizdə olan rəqəmlərə arxalanaraq gördük ki, şəhər daxilində səyahətlərin çox böyük, əhəmiyyətli hissəsi 5 kilometrə qədər olan məsafəni əhatə edir. Bəzi hallarda isə hətta 3 kilometrdən aşağıdır. Şəhərin mərkəzində fərdi avtomobillərlə və taksilərlə edilən səyahətlərin çox böyük hissəsi məhz bu qısa məsafələrdə olur. Əslində, bu səyahətləri mikromobillik vasitələri ilə həyata keçirmək olduqca rahatdır. Hətta bu zaman istifadəçilər səyahətlərinə daha az vaxt sərf edirlər. Çünki səyahətçi fərdi avtomobilini park edərkən və tıxaclar səbəbindən taksi gözləməsinə daha çox vaxt sərf etməli olur. Mikromobillik vasitələrindən istifadə edən şəxs isə həmin problemlərlə qarşılaşmır. Hətta bəzən elə şərait yaranır ki, velosiped və ya skuter avtomobildən daha tez hərəkət edir.

Bundan irəli gələrək biz qərara aldıq ki, mikromobillik zolaqları şəbəkəsini genişləndirək. Bu plan üç mərhələdə həyata keçirilir. Hazırda mikromobillik zolaqlarının yaradılması prosesi ilk iki mərhələ üzrə davam edir. Bu şəbəkə getdikcə artacaq, təxminən, 100 kilometrə çatdırılacaq. Hazırda isə 35 kilometr təşkil edir. Ən azından bu şəbəkə Bakı şəhərinin bütün mərkəzi hissəsini əhatə etməlidir ki, insanlar səyahət zamanı alternativlərdən istifadə imkanları əldə etsinlər. Yəni insanlar avtobus, taksi və ya fərdi minik vasitəsi ilə yanaşı, mikromobillik vasitələrindən də istifadə edə bilsinlər. Düşünürəm ki, insanlar onu dəyərləndirəcəklər. Yeri gəlmişkən, dünya praktikasına nəzər yetirdikdə görürük ki, bir sıra şəhərlər bunu stimullaşdırdıqları üçün velosipedlərdən və digər mikromobillik vasitələrindən istifadə getdikcə artır.

**Tərlan SƏFƏROV:** – Mən bəzi rəqəmləri diqqətə çatdırmaq istəyirəm. Burada qeyd edildi ki, mövcud 35 kilometrlik velosiped zolaqlarının 100 kilometrə çatdırılması planlaşdırılır. Eyni zamanda, mikromobilliyin təşviqində əsas məsələlərdən biri də onun əhatə dairəsinin genişləndirilməsindən ibarətdir. Bu məqsədlə zolaqların genişləndirilməsi və parklanma yerlərinin sayının artırılması nəzərdə tutulur. Hazırda paytaxtda velosiped paylaşım xidmətləri üçün 74 parklanma yeri yaradılıb. Bu, təkcə icarəyə verilən velosipedlər üçün nəzərdə tutulmayıb. Eyni zamanda, insanlar öz şəxsi velosipedlərini də həmin yerlərdə park edə bilərlər.

Bununla yanaşı, ötən müddətdə skuterlər üçün 320 parklanma yeri təşkil olunub. Bir çox hallarda xüsusi konstruksiyalar quraşdırılıb ki, velosipedi ora bağlamaq mümkün olsun. Skuterlərdə isə bu məsələ, sadəcə, boya ilə həll olunur. Yaxın gələcəkdə velosipedlər üçün parklanma yerlərinin sayının 500-ə çatdırılması plalaşdırılır. Bu da paytaxtda mikromobilliyin genişləndirilməsinin birmənalı təsdiqidir. Təbii ki, bu, gələcəkdə bizə imkan verəcək ki, həm də səyahətlərin hansı istiqamətlərdə çoxluq təşkil etməsini dəqiqləşdirək və həmin küçələrdə zolaqları genişləndirək. Eyni zamanda, müşavirədə çox vacib bir məsələyə toxunulmuşdu. Qeyd olunmuşdu ki, hazırda aylıq səyahətlərin sayı 200 min ətrafındadır. Bu, əsasən, 4 paylaşım şirkəti üzərindən əldə olunan rəqəmlərdir. Bununla yanaşı, şəxsi istifadədə olan, eləcə də kuryer xidməti sahəsində istifadə ediilən velosipedlər də var. Onları da əlavə etsək, bu rəqəm 250 min ətrafında ola bilər. Nəzərə alaq ki, indi soyuq aylar olduğu üçün velosiped və skuterlərfən istifadə edənlərin sayı azdır. Növbəti illər üçün planımız isə aylıq 200 min göstəricisini 2 milyona çatdırmaqdır.

Yeri gəlmişkən, velosiped yollarının təşkili ilə bağlı bir amili də diqqətə çatdırmaq istəyirəm. Bu gün təşkil etdiyimiz 35 kilometrlik velosiped yollarının, təxminən, 85 faizinə avtomobillər üçün nəzərdə tutulmuş zolaqların sayını azaltmadan nail olmuşuq. Məsələn, 8 Noyabr prospektində mövcud 4 zolağı saxlamaqla kənarda velosiped yolu təşkil etmişik. Parlament prospekti, Mikayıl Müşfiq, 28 May və Dilarə Əliyeva küçələrinin hamısında yenidən təşkil vasitəsilə, avmobillər üçün zolaqların sayını azaltmadan əlavə olaraq velosiped yolları təşkil etmişik. Əvvəlki standartlar əsasında təşkil olunmuş zolaqlar çox enli idi (təxminən 3,75-4 metr). Bu da standartdan daha böyük olmaqla yanaşı, həm də təhlükəsizlik səviyyəsini aşağı salırdı. Zolaq nə qədər geniş olsa, avtomobillərin sürəti də bir o qədər artıq olur. Bunun da nəticəsində qəzaların başvermə ehtimalı artır və ölüm sayı çoxalır. Velosipedlər üçün zolaqların təşkil edilməsi ilə həm mobilliyin inkişafı təmin olunur, həm də küçə və prospektlərdə təhlükəsizlik səviyyəsi artırılır.

**Hüseyn ABDULLAYEV:** – Bu məqamda onu da qeyd edim ki, şəhər mobilliyinin transformasiyasının uğurlu olması onun sistemli və kompleks yanaşılması ilə bağlıdır. Bu mənada layihə çərçivəsində yaradılmış rəqəmsal əkiz həyata keçirilən təşəbbüslərin səmərəsini öncədən proqnozlaşdırmaq baxımından xüsusi önəm daşıyır. Bu, eyni zamanda, yol-nəqliyyat infrastrukturuna yatırılacaq dövlət investisiyalarının səmərəlilik dərəcəsini müəyyənləşdirməyə və planlaşdırılan layihələri prioritetləşdirməyə imkan verir.

Bakı şəhərində mobillik strategiyası çərçivəsində piyada infrastrukturunun yaradılması şəhər nəqliyyatı sisteminin optimallaşdırılması və şəhər mühitinin sakinlər üçün daha rahat və təhlükəsiz hala gətirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Son 20 il ərzində Bakı şəhərində piyadalaşma təşəbbüslərinə dəstək olaraq 126 ədəd yeraltı və yerüstü piyada keçidi inşa edilib. Bu keçidlər piyadaların təhlükəsizliyinin təmin edilməsi, avtomobil hərəkətinin tənzimlənməsi, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və şəhər nəqliyyatı sisteminin daha dayanıqlı idarə olunması məqsədi daşıyır. Gələcəkdə də piyadaların şəhər mobilliyində əsas yer tutması üçün əlavə layihələrin icrası nəzərdə tutulur.

Burada bir həqiqəti də unutmaq olmaz. Belə ki, fikrimcə, ictimai nəqliyyatın (avtobusların) payının 60 faizə çatdırılması üçün kütləvi daşımanı təmin edə biləcək metro və dəmir yolları infrastrukturu da genişləndirilməlidir. Məlumat üçün həm də qeyd edim ki, bu istiqamətdə gerçəkləşdiriləcək layihələrin Bakı şəhərinin Baş planına uyğunlaşdırılması nəzərdə tutulub və möhtərəm Prezidentimiz İlham Əliyevin tapşırığına əsasən, şəhərin inkişafına, polisentrik yanaşmaya uyğun həyata keçiriləcək. Yeri gəlmişkən, ölkə rəhbərinin müvafiq sərəncamı ilə yaradılan AZCON daxilində sərnişindaşıma xidmətini həyata keçirən dövlət müəssisələrinin bir araya gətirilməsi də onların keyfiyyətli və balanslaşdırılmış sərnişindaşıma təcrübəsini yaratmalarına xidmət edir.

Paytaxtın yol-nəqliyyat infrastrukturunun yenilənməsi sahəsində görülən işlərdən danışarkən, ilk növbədə, onu qeyd edə bilərəm ki, son illərdə iqtisadiyyatın sürətlə inkişafı və əhalinin rifah səviyyəsinin yüksəlməsi paytaxtda avtomobilləşməni kəskin artırıb. Bundan sonra isə yollarda tıxacların azaldılması, paytaxtın ekoloji probleminin həll edilməsi və nəhayət, Bakı şəhərinin mobilliyinin transformasiyası layihəsinə başlanılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Xatırladım ki, Bakı şəhərinin yol-nəqliyyat infrastrukturunun yenilənməsi məqsədilə həyata keçirilən layihənin koordinasiyası üçün dövlətimizin başçısının müvafiq fərmanı ilə yaradılan Nəqliyyatı Əlaqələndirmə Şurası səmərəli fəaliyyət göstərir və bu qurum şəhər nəqliyyatı sisteminin yaxşılaşdırılması sahəsində mühüm uğurlar əldə edir.

Yeri gəlmişkən, paytaxtımızın nəqliyyat problemi təkcə Azərbaycanda müşahidə edilmir. Ümumiyyətlə, bu, dünyanın bütün iri şəhərlərində nəzərə çarpan, cəmiyyətdə ciddi narahatlıq doğuran bir çətinlikdir. Belə bir çətinliyi isə iqtisadi və demoqrafik artım şərtləndirir. Vəziyyəti normal məcraya yönəltmək üçün "avtomobil mərkəzli şəhər" yanaşmasından "insan yönümlü" yanaşmaya keçid çağırışı gerçəkləşdirilməlidir. Problemin optimal həll yolu isə dövlət-cəmiyyət tərəfdaşlığının tənzimlənməsindən keçir.

Yuxarıdakı fikri bir qədər də konkretləşdirib deyə bilərəm ki, nəqliyyat probleminin həllində şəhər sakinlərinin nəqliyyat davranışlarının dəyişməsi son dərəcə zəruri olan bir məsələdir. Çünki uzun bir müddət digər nəqliyyat növlərinə uyğunlaşan və vərdiş halını alan davranışın dəyişməsi müəyyən zaman tələb edir. Küçə və yol infrastrukturu optimal təşkil edilərsə, avtobusların sayı nəzərdə tutulan həddə çatdırılarsa, dəmir yolu və metro infrastrukturu genişləndirilərsə, həmin zaman müddəti də xeyli qısala bilər.

Belə bir tələbin gerçəkləşməsi ilə yanaşı, dövlət tənzimlənməsi vasitəsilə parklanma tarifləri də müəyyənləşdirilməli, avtobus zolaqlarına riayət olunmamasına görə cərimələrin tətbiqi diqqətdə saxlanılmalıdır. Bütün bunlarla bərabər, skuterlər və velosipedlər üçün uyğun infrastrukturun qurulmasına da xüsusi diqqət və qayğı ilə yanaşılmalıdır. Əks təqdirdə, mikromobilliyin önəmi arxa plana keçir.

**"Dəyirmi masa" ətrafında söhbəti çapa hazırladılar:**

**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ,**
**Cavid QAÇAYEV (Foto)**
**XQ**

# “Rəqəmsal məktəb”in auditoriyası genişlənir

**Ötən günlərdə Bakının orta təhsil müəssisələrində ilk dəfə “Rəqəmsal məktəb” platforması istifadəyə verilib. Sınaq müddətində olan layihə 324 məktəbdə 500 mindən çox şagirdi və 30 mindən çox təhsil işçisini əhatə edir. Test mərhələsi uğurla həyata keçirilsə, yeni platforma ölkənin bütün təhsil ocaqlarını əhatə edəcək.**




“Rəqəmsal məktəb”in istifadəyə veriləcəyi haqqında ilk məlumatı Elm və təhsil naziri Emin Əmrullayev fevralın 6-da jurnalistlər üçün keçirdiyi brifinqdə demişdi. Bu platforma Avropa, Amerika və Uzaq Şərqin inkişaf etmiş təhsil ölkələrində çoxdan tətbiq olunur və ildən-ilə yenilənir.

Bu, Azərbaycan təhsili adına yeni bir mərhələnin başlanğıcıdır. Təhsildə elektronlaşmanı, innovativ yanaşmanı gücləndirən, köhnə ənənələrdən məktəb mühitini xilas edən bir platformadır. Təhsil platforması müasir təlim texnologiyaların tədris prosesinə tətbiqi, interaktivlik və əlçatanlıq üçün prosesləri təkmilləşdirmək, həmçinin şəffaflığı artırmaq məqsədini daşıyır. Platformada şagird, valideyn, müəllim və məktəb rəhbəri üçün fərdi kabinetlər mövcuddur. Bu da hər bir istifadəçi qrupunun ehtiyaclarına uyğun fərdi funksionallıq təqdim edir. Burada hər qrupun əldə edə biləcəyi faydalı resurslar var.

“Şagird” fərdi kabinet platforması onlara təhsil prosesində daha səmərəli iştirak etmək imkanı yaradır. Bu kabinetdə hər bir şagird hər gün üçün fənlər üzrə müəyyən olunmuş dərsləri və mövzularını, müvafiq tədris materiallarını, dərs cədvəlini, fənlərə aid dərslikləri, videodərsləri görə biləcəklər. Həmçinin hər bir mövzunun dərinləşdirilmiş izahı, ev tapşırıqları, biliklərinin yoxlanılması və daha yaxşı mənimsəməsi üçün interaktiv testlər və digər qiymətləndirmə vasitələri şagirdlərə təqdim ediləcək. “Rəqəmsal məktəb” platformasında ibtidai siniflər üzrə riyaziyyat, Azərbaycan dili və ingilis dili fənlərini əhatə edən 932 mövzu yer alır. 5-ci, 6-cı və 7-ci sinif şagirdlərinin təhsil ehtiyaclarını qarşılamaq üçün isə Azərbaycan dili və tarixi, təbiət, coğrafiya, fizika və kimya fənləri olmaqla, ümumilikdə, 367 mövzu platformaya yerləşdirilib. Digər sinif və fənlər üzrə mövzuların əlavə edilməsi növbəti mərhələlər üçün nəzərdə tutulub.

“Valideyn” kabineti vasitəsilə valideynlər övladlarının təhsil prosesini yaxından izləyə bilir və onlarla bağlı məlumatlara asan çıxış imkanı əldə edirlər. Onlar sinif rəhbərləri, fənn müəllimləri və məktəb rəhbərliyi ilə birbaşa əlaqə saxlaya bilərlər. Övladlarının tədris prosesi ilə bağlı fənn müəllimləri və sinif rəhbərləri tərəfindən verdilən rəy və təklifləri görürlər. Şagirdlərin məktəbdəki davranışlarına dair ayrıca bölmədə valideynlər övladlarının nizam-intizam qaydalarına riayət etməsi, mümkün qayda pozuntuları barədə bildirişləri izləyə bilərlər.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin sektor müdiri Fidan Nəcəfova bildirib ki, valideynlər “Sima” tətbiqi üzərindən şəxsiyyət vəsiqəsinin fərdi identifikasiya nömrəsi vasitəsilə platformadan qeydiyyatdan keçib övladını da əlavə edə bilərlər: “Valideynlər övladlarının nailiyyətləri, gündəlik qiymətləri və ümumi nəticələr barədə məlumatlara real vaxt rejimində çıxış əldə edə bilərlər. Bu, şagirdin təhsil irəliləyişini effektiv şəkildə izləməyə və lazımi tədbirlər görməyə şərait yaradır”.




“Rəqəmsal məktəb” platformasında “müəllim” kabineti təhsilverənlərin gündəlik iş yükünü tənzimləməklə yanaşı, tədris prosesini nizamlı şəkildə həyata keçirməyə dəstək olur. Eyni zamanda müəllimlər üçün vacib məlumatlara çıxışı asanlaşdırılır, tədris prosesinin idarə olunması keyfiyyəti artır. Elektron jurnal platformasına birbaşa çıxış vasitəsilə qiymətlər və qeydlər onlayn rejimdə görünür. Bu platformanın funksionallığını optimallaşdırmaq məqsədilə yaxın günlərdə e-jurnal mobil tətbiqi müəllimlərin istifadəsinə veriləcək. Mobil tətbiqin istifadəyə verilməsi müəllimlərin iş yükünü azaltmaqla yanaşı, onların tədris fəaliyyətlərini çevik həyata keçirməsinə kömək edəcək. Başqa sözlə, bu yenilik müəllimləri kağız materiallarından xilas edir. Platformada müəllimlər gündəlik, həftəlik və aylıq dərs cədvəllərini görə bilirlər. Bu funksionallıq vasitəsilə onlar dərs saatlarını, sinif otaqlarını və fənlər üzrə bölgünü rahat şəkildə izləmək imkanı əldə edirlər.

“Direktor” kabineti məktəb rəhbələrinə platformanın məlumatları əsasında rəqəmsal tədrisin effektivliyini qiymətləndirmək və davamlı olaraq təkmilləşdirmək üçün təhlillər aparmaq imkanı yaradır. Bu funksiyalar direktolara məktəbin idarə edilməsini daha şəffaf, sistemli və effektiv həyata keçirmək imkanı yaradır. Təhlillər və hesabatlar vasitəsilə məktəbin ümumi inkişaf strategiyalarının hazırlanması və tətbiqi mümkün olur. “Direktor” kabineti vasitəsilə məktəb rəhbərləri öz müəssisələrinin pedaqoji heyəti və təhsilalanlar haqqında məlumatları izləyə bilərlər. Bu məlumatlar tədris planı üzrə dərs saatlarının bölgüsü, fənlər və siniflər üzrə dərs cədvəlləri, dərnək və fakültətiv məşğələlərin siniflər üzrə idarəetmənin effektivliyini artırmaq məqsədilə sistemləşdirilmiş şəkildə təqdim olunur. Platformada hər bir şagird üçün xüsusi “şəxsi iş” bölməsi də mövcuddur. Bu bölmədə şagirdlərin şəxsi məlumatları ilə yanaşı, qiymətləndirmə nəticələri və ümumi təlim nailiyyətləri əks olunur. Direktorlar bu məlumatları izləməklə, şagirdlərin inkişafını sistematik şəkildə təhlil edə bilərlər. “Direktor kabineti”ndə siniflər üzrə keçirilmiş kiçik və böyük summativ qiymətləndirmə, eləcə də digər imtahan nəticələri əks olunur. Bu məlumatlar əsasında direktorlar müəssisə səviyyəsində hesabatlar hazırlaya bilərlər.

“Rəqəmsal məktəb” platformasında inkişaf mərhələsi çərçivəsində bir sıra funksionallıqların artırılması nəzərdə tutulub. Belə ki, hər bir tədris müəssisəsi üzrə valideynlərin iştirakını artırmaq məqsədilə xüsusi “valideynlərin rəyləri” funksiyası tətbiq ediləcək. Platformada tədris müəssisəsi üzrə valideynlər üçün yaradılmış xüsusi bölmədə onlar sorğularda iştirak edəcəklər. Sorğunun keçirilməsində məqsəd təhsil prosesində müəllimlərin fəaliyyətinə dair valideynlərin rəy və təkliflərini toplamaqdır.

Elm və Təhsil Nazirliyinin rəsmi elan və xəbərləri birbaşa “müəllim” kabinetində yerləşdirilib. Bu, müəllimlərə təhsillə bağlı yeniliklər, mövcud qaydalar və müvafiq tədbirlər barədə operativ məlumat əldə etmək imkanı yaradır. Pedaqoqlar tədris prosesində baş verən dəyişikliklərdən, yeni metodik göstərişlərdən və peşəkar inkişafla bağlı təklif olunan proqramlardan vaxtında xəbərdar ola bilirlər.

Digər bir məsələ isə, texniki, internet, İT imkanlarının yaxşı olması şərtidir. Bu məsələlərlə bağlı problemlər yaşansa, platforma öz faydasını tam göstərə bilməz. Ola bilsin ki, rayonlarda, xüsusilə də ucqar kənd məktəblərində texniki imkanlar artırılmalıdır. Ümumilikdə, platforma müsbət çalarları ilə bizi qarşılayır.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Hər kitab bir dünyadır

## Cabbarlının pyesləri Türkiyədə




**Türkiyənin nüfuzlu ədəbi qurumu olan Türk Ədəbiyyatı Vəqfı Azərbaycan Yazıçılar Birliyi ilə ədəbi əməkdaşlıq müqaviləsi çərçivəsində daha bir mühüm ədəbiyyat layihəsini həyata keçirib.**

Azərbaycan ədəbiyyatında və teatr sahəsində xüsusi yeri olan, unudulmaz dramaturq C.Cabbarlının anadan olmasının 125-ci ildönümü münasibətilə yazıçının “Seçilmiş pyeslər” kitabı qardaş ölkədə ədəbiyyatsevərlərə təqdim olunub.

Türk Ədəbiyyatı Vəqfının rəhbəri, şair Sərhat Kabaklı türk mətbuatına açıqlamasında belə bir kitabın nəşrinin son dərəcə vacib olduğunu vurğulayıb: “Cəfər Cabbarlı təkcə Azərbaycan ədəbiyyatının deyil, bütün türk dünyasının ortaq mədəni irsinin ən mühüm nümayəndələrindən biri hesab olunur. Qələmə aldığı şeirləri, hekayələri, xüsusən də səhnə əsərləri ilə geniş oxucu kütləsi qazanan dramaturqun yaradıcılığında əsas yeri cəmiyyətin problemlərinə güzgü tutan pyesləri təşkil edir. Onun əsərlərini oxuyanda və ümumtürk mədəniyyəti üçün gördüyü böyük işləri incələyəndə türk oxucusuna belə bir ərməğan etmək qərarı verdik. Hesab edirəm ki, çağdaş türk gəncliyi qardaş xalqımızın nələrdən keçib zirvələrə necə ucaldığını həm də Cabbarlının yaradıcılığından öyrənəcək. Azərbaycan Yazıçılar Birliyi və əziz ustadımız, yaşayan Dədə Qorqudumuz Anarın belə layihələrimizə dəstək olması, xeyir-dua verməsi bizlərdən ötrü xəzinədir”.

## Yapon nəsrinin “Qar dənəsi”




**Yapon ədəbiyyatının klassiki Rünoske Akutaqavanın (1892–1927) hekyələr toplusu belə adlanır.**

Yapon qısa hekayəsinin atası hesab olunan Akutaqava yaradıcılığında həm klassik, həm də müasir elementləri birləşdirərək yapon ədəbiyyatına yeni nəfəs gətirmişdir. “Raşomon” və “Meşədə” kimi hekayələri, xüsusilə Akira Kurosavanın “Raşomon” filminə təsir edərək bütün dünyada şöhrət qazanıb.

35 yaşında yüksək dozada yuxu dərmanı içərək intihar edən Akutqavanın qısa, lakin zəngin həyatı onun yapon ədəbiyyatında əbədi yerini təmin edib. Onun adı ilə adlandırılan Akutqava mükafatı, müasir Yapon yazıçıları üçün ən prestijli ədəbi mükafatdır.

...Qar dənəsi adlı köpək xain hərəkəti üzündən dönüb his kimi qara olur. Yeni rənginə nifrət edən və xətasına görə möhkəm peşman olan bu it yenidən ağ rəngli olmağa can atır. Təhlükələrə qarşı durur və insanları ölümdən qurtarır.

Tərbiyəvi təsir məramı ilə yazılan bu kimi hekayələr insan ruhunun sonsuzluğu və psixologiyanın sirləri barədədir. Müəllifin qısa ömründə 150 novellası, essesi, onlarla miniatürü, ssenarisi, şeirləri çıxıb. Onun mövzularının əksəriyyəti qədim xronikalardan, orta əsrlərə aid lətifələrindən, feodal eposlardan götürülüb. özünün parlaq istedadı və yumor hissi ilə ölməz əsərlərin müəllifinə çevrilib.

## Oğuzlu müəllifin “Sülh kitabı”

**Elza Rəşad Gülməmmədovanın bu toplusu sülhün sənət prizmasından tədqiqi kimi maraq kəsb edir.**

Oğuz rayonunun sakini və indiyədək 6




kitab müəllifi olan Elza xanım bu əsərində sülhlə bağlı sonsuz insan arzusunu bənzərsiz və güclü perspektivdə qələmə alıb. Kitabda sxolastik estetikadan üstündür, müxtəlif düşüncə tellərini birləşdirmək yolu ilə sülh fəlsəfəsinin özəyi araşdırılır. Kitab qeyri-zorakılıq və mərhəməti vurğulayan qədim müdriklik ənənələrindən (Buddizm və Caynizm) dialoq, diplomatiya və münaqişələrin həllini dəstəkləyən müasir sülhyaratma hərəkatlarına qədər zəngin ideyalar qobeleni təsiri bağışlayır.

İllər uzunu kitabxana müdiri işlədiyi üçün geniş mütaliə sahibi olan Elza xanımın bədii ifadə vasitələri bu dərin anlayışların rahat qavranılmasını təmin edir. Müəllif duyğuları təbii emosiyalar oyadır, perspektivlərə qapı açır və oxucunu bütün bəşəriyyətin bir-birinə bağlılığı haqqında düşüncələrə kökləyir.

“Sülh kitabı”na ön söz yazanlardan biri amerikalı ədəbi məsləhətçi Staci Modisette, digəri isə Azərbycan İqtisad Universitetinin müəllimi, yüksəık texnologoyalar üzrə ekspert Əflatun Məmmədovdur.

*XQ*

# Rənglərin Zəfər hekayəti

**İmişli şəhərindəki Differensial Təhsil Tədris Mərkəzində '”Konstitusiya və Suverenlik İli” çərçivəsində ”Zəfərimiz rəssam Gülnarənin rənglər dünyasında'” adlı sərgisi açılıb.**



Sərginin təşkilatçısı – Mirvarid Dilbazi Poeziya Məclisinin sədri, Kəlağayı Muzeyinin direktoru, AYB-nin üzvü Güllü Eldar Tomarlı ötən illərdə qurumun təşəbbüsü ilə düzənlənən rəsm sərgilərindən danışıb və gənc rəssam Gülnarə Məmmədovanın yaradıcılığı haqqında məlumat verib.

Açılışda Differensial Təhsil Tədris Mərkəzinin direktoru Elşən Şəmmədli, İmişli Rayon İcra Hakimiyyətinin məsul əməkdaşı Rüfət Muradov, Sabirabad Rayon İcra Hakimiyyəti başçısının 1-ci müavini Həsən Həsənov, qazi-jurnalist Səbuhi Rəhimli, Mirvarid Dilbazi Poeziya Məclisinin üzvü Səyalı Dadaşova, ziyalılar Hüseyn Minbaşıoğlu, Əlibayram Əliyev, şəhid anaları Tahirə Mehdiyeva, Solmaz Əliyeva, Sevil Hüseynova və başqaları çıxış edərək rəssama uğurlar diləyiblər.

Sonda Gülnarə Məmmədova sərginin düzənlənməsində zəhməti olan hər kəsə və ziyarətçilərə təşəkkürünü bildirib və yaradıcılığının son uğuru kimi ulu öndər Heydər Əliyevin kətan üzərində yağlı boya ilə işlədiyi portretini təqdim edib.

Rayon rəsmiləri, idarə və təşkilatların nümayəndələri də sərgini ziyarət edib, gənc rəssamın əsərləri ilə tanış olublar.

*XQ*

# Uşaqlar “Sənətkarın dostu”durlar

**Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı, Azərbaycan Dövlət Uşaq Filarmoniyası və Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin dəstəyi ilə “Sənətkarın dostu” layihəsi çərçivəsində Azərbaycan Dövlət Rəqs Ansamblının bədii rəhbəri, Xalq artisti, xoreoqraf Rüfət Xəlilzadə ilə görüş keçirilib.**



Uşaq Filarmoniyasında keçirilən görüşdə Mərkəzin direktoru vəzifəsini icra edən Vüqar Hümbətov, Uşaq Filarmoniyasının direktoru Dilarə Əliyeva və Mərkəzi İncəsənət Məktəbinin direktoru Könül Hüseynova çıxış ediblər. Bildirilib ki, layihə uşaq və gənclərin sənətə sağlam köklərlə bağlanması, həmçinin inkişafı baxımından vacibdir. Rüfət Xəlilzadə isə xoreoqrafiya və milli rəqs ifaçılığı sənətinin tarixi, inkişafı, müasir zamanda milli ənənələrin qorunması və dəyərlərin yaşadılması, tədris üsulları, rəqs geyimlərimiz, həmçinin gənclərin milli rəqslərə marağının artırılması mövzularından söhbət açıb.

Görüşdə Azərbaycan Dövlət Uşaq Filarmoniyasının və Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin gənc istedadlarının və Azərbaycan Dövlət Rəqs Ansamblının solistlərinin ifasında rəqs kompozisiyaları təqdim olunub.

Ustad dərsi formatında keçirilən tədbirdə iştirakçıları maraqlandıran sualları cavablandırılıb.

Layihə mədəniyyətin təşviqi, uşaq və gənclərin yaradıcılığının stimullaşdırılması, görkəmli mədəniyyət xadimləri ilə gənc istedadların zəngin təcrübə mübadiləsinin təşkili məqsədilə həyata keçirilib.

*XQ*

**Bu gün beynəlxalq müstəvidə ən çox müzakirə olunan və həlli üçün ardıcıl səylər göstərilən problemlərdən birincisi Rusiyanın Ukraynaya təcavüzüdür. Bir tərəfdən, bu amansız müharibə ilə bağlı ayrı-ayrı ölkələr, xüsusən ABŞ tərəfindən aparılan danışıqlar, digər tərəfdən isə Rusiyanın elan etdiyi xüsusi hərbi əməliyyat fasiləsiz davam edir.**

Son günlərdə ABŞ prezidenti Donald Tramp Rusiya lideri Vladimir Putinlə telefon danışığı apardığını elan edib. Bu, müharibənin bitməsini istəyən ictimaiyyət tərəfindən razılıqla qarşılansa da, ABŞ liderinin mövqeyini bölüşməyən



# Ukrayna: tərəflər hiddətlənir, döyüşlər şiddətlənir

bəzi Avropa ölkələrində narahatlıq yaradıb. Doğrudur, cənab Tramp hələ apardığı danışıqların məğzini açıqlamağa tələsmir, amma niyyətinin müharibəyə son qoymaq olduğu aydındır. O, hətta özündən əvvəlki hakimiyyəti bu müharibənin başlanmasına yol verməklə böyük xəta işlədiyini bildirib.

Tramp Ukrayna müharibəsini bitirmək üçün konkret planı olduğunu vurğulayıb, ancaq planın nədən ibarət olduğunu hələ açıqlamır. Sadəcə, prezident Vladimir Putinlə danışıqlarda "irəliləyiş" olduğuna işarə edib. "Putinlə belə bir söhbətim olub. Mən daha çox belə danışıqlar aparmağı gözləyirəm. Biz bu müharibəni bitirməliyik", – deyə Tramp bildirib.

O, eyni zamanda, etiraf edib ki, ətraflı məlumat vermək istəməsə də, "irəliləyiş əldə edilir". Onun sözlərinə görə, hər iki tərəflə danışıqlar gedir və müsbət nəticəyə ümid bəslənilir. İndi siyasi analitiklər inanırlar ki, fevralın 14-də işə başlayacaq Münhen Təhlükəsizlik Konfransı çərçivəsində də Ukrayna ilə danışıqlar aparılacaq. Hətta danışıqlarda ABŞ prezidentinin Ukrayna üzrə xüsusi nümayəndəsi Kit Kelloq və vitse-prezident Ceyms Devid Vensin Ukrayna prezidenti Volodimir Zelenski ilə görüşünün gözlənildiyi barədə məlumatlar mövcuddur.

Bununla yanaşı, cənab Tpamp dünən ABŞ-ın əvvəlki administrasiyasının Ukraynaya hərbi yardım üçün xərcləməyə imkan tapmadığı 4 milyard dollara yaxın vəsaitdən istifadə etməyə hazır olduğunu təsdiqləməyib. O, Ağ evdə jurnalistlərin bu barədəki sualına, sadəcə, "görəcəyik", – deyə cavab verib.

Müharibə isə bütün şiddəti ilə davam etməkdədir. Elə son sutka ərzində də Ukrayna ərazisi Rusiya tərəfindən geniş raket hücumuna məruz qalıb. Cəbhə zonasında tək bir gündə Ukrayna müdafiə qüvvələri ilə rus qoşunları arasında 95 döyüş toqquşması qeydə alınıb. Dünən ruslar Ukrayna bölmələrinə və yaşayış məntəqələrinə 3 raket zərbəsi endirib, 20 raketdən istifadə edib, həmçinin 89 hava zərbəsi endirib, 149 idarə olunan bomba atıb, 2354 kamikadze pilotsuz uçuş aparatından istifadə edib.

Rusiya ordusu, xüsusilə, Qremyaçka, Krasnopolye, Çerneççina, Zoloçev, Baytarlıq, Osinovo, Zelyoni Qay, Stupochki, Drujkovka, Yekaterinovka, Aleksandro-Şultino, Pokrovsk, Leontoviçi, Muravto Qrohovka, Omelnik, Pridneprovskoye istiqamətində hücum edib. Kupyansk istiqamətində Rusiyanın yeddi hücumu baş verib. Müdafiə qüvvələri Kondraşovka, Petropavlovka, Novaya Kruqlyakovka və Zaqrızovoye yaxınlığındakı hücumları dəf edib.



Liman, Seversk, Kramatorsk, Toretsk, Pokrovsk istiqamətlərində də rus qoşunları irəliləməyə cəhd edib, ancaq Ukrayna müdafiəçiləri bu hücumları dayandırmağa nail olublar. Novopavlovsk istiqamətində rus qoşunları səkkiz dəfə Konstantinopol yaxınlığından keçməyə cəhd ediblər. Xarkov, Orexov, Dnepr, Volın və Polesie istiqamətlərində Rusiya son 24 saat ərzində heç bir hücum əməliyyatı keçirməyib.

Məlumata görə, Kursk vilayətindəki əməliyyat zonasında Ukrayna müdafiə qüvvələrinin bölmələri dünən Rusiya hərbçilərinin həyata keçirdiyi 15 hücumu dəf edib. Ruslar 56 idarə olunan bombadan istifadə etməklə 40 hava zərbəsi endirib, 634 artilleriya hücumu həyata keçirib, o cümlədən 29 reaktiv yaylım atəşi sistemlərindən atəş açıb. Ümumiyyətlə, son 24 saat ərzində Ukrayna qoşunları işğalçı qüvvələrin 1150 canlı qüvvəsini məhv edib.

Fevralın 12-nə keçən gecə rus qoşunları "İsgəndər-M" ballistik raketi ilə Kiyev və Krivoy Roq şəhərlərinə zərbələr endirib. Bu barədə Ukrayna Hərbi Hava Qüvvələri məlumat yayıb. Bundan əlavə, işğalçılar Ukraynaya 123 ədəd "Şahed" tipli hücum PUA-ları və digər dronlarla hücum ediblər: "Düşmənin 40 pilotsuz uçuş aparatı vurulub. Düşmənin hücumu nəticəsində Kiyev, Dnepropetrovsk (Krivoy Roq), Sumı, Poltava və Çerniqov vilayətləri zərər görüb".

Fevralın 12-nə keçən gecə paytaxt Kiyevə endirilən raket zərbəsi nəticəsində bir nəfər ölüb, üç nəfər yaralanıb. Kiyev məri Vitali Kliçkonun sözlərinə görə, ölən və yaralananlar şəhərin Obolonski rayonundadırlar. Qurbanlar arasında xəstəxanaya yerləşdirilən 9 yaşlı qız da var. Rayonda iki inzibati bina dağılıb, onlardan birində yanğın başlayıb.

Rusiya tərəfi də, öz növbəsində, həyata keçirdiyi döyüş əməliyyatları barədə məlumat yayıb. Ukraynanın bir sıra hərbi obyektlərinin, eləcə də pilotsuz təyyarələrlə Ukrayna Silahlı Qüvvələrinin anqarında ABŞ və Kanadanın zirehli texnikasının məhv edildiyi bildirilib.

***Paşa ƏMİRCANOV***
***XQ***

*Yaşıl adalar*

# İlisu – çeşməli-sulu dağlar

**Azərbaycanın əsrarəngiz təbiətli qədim yayayış məskənlərindən biri də Qax rayonunun İlisu kəndidir. Əsası hələ XIII əsrdə qoyulan bu yaşayış məntəqəsi öz gözəl mənzərələri, şəfalı bulaqları ilə tanınır.**



Böyük Qafqazın cənub yamaclarının flora və faunası çox zəngindir. Bu təbii sərvəti qoruyub gələcək nəsillərə ötürmək üçün Azərbaycan hökumətinin 20 fevral 1987-ci il tarixli qərarı ilə 9 min 45 hektar ərazidə İlisu Dövlət Təbiət Qoruğu yaradılmışdır. 2003-cü ildə qoruğun ərazisi genişləndirilərək 17 min 381 hektara çatdırılmışdır.

Qoruqda havanın orta illik temperaturu 5–12 dərəcə arasında tərəddüd edir. Hündürlüyə qalxdıqca yağıntının miqdarı 920 millimetrdən 1400 millimetrə qədər artır. İlisu qoruğunun ərazisində dağ-çəmən, dağ-çəmən-meşə, qonur dağ-meşə, çürüntülü-karbonatlı dağ-meşə və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır.

Burada endemik, nadir və nəsli kəsilmək təhlükəsi altında olan bitki növləri çoxdur. Ərazidə Şərq fıstığı, Qafqaz vələsi, Şərq palıdı, Litvinov tozağacı, Trautvetter ağcaqayını, kollardan quşarmudu, itburnu, böyürtkən, dovşanalması, topulqa, yabanı gilas, zoğal, moruq və s. bitkilər yayılmışdır. Giləmeyvəli qaraçöhrə və Radde ağcaqayını Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilmişdir.

Qoruğun ərazisində 35 növ məməli heyvan yaşayır: nəcib maral, Avropa cüyürü, köpgər, Şərqi Qafqaz turu, çöl donuzu,



qonur ayı, boz canavar, adi tülkü, Avropa vaşaqı, daşlıq və meşə dələsi, qaraquyruq gəlincik, adi porsuq, Amerika yenotu, meşə pişiyi, boz dovşan, adi və meşə süleysini, ağdiş, qonurdiş, kirpilər, nalburunlar və sair.

Ərazidə sürünənlərin isə 12 növü yaşayır. Onların 7-si kərtənkələlərə, 3-ü təlxələrə, 1-i adi ilanlara, 1-i isə koramallara aiddir. Burada suda - quruda yaşayanların 5 növü yayılmışdır. Quşların isə 11 dəstəyə aid olan 90-a qədər növü yayılmışdır. Onların təxminən 60-ı sərçəkimilər dəstəsinə aiddir.

Çaylarda qızılxallı çoxdur. Digər balıqlardan isə şərq qışovçusuna, Kür şirbitinə və Kür xramulyasına rast gəlinir ki, onlar da yalnız qoruğun aşağı sərhədindən keçən Kürmükçayda məskunlaşmışdır.

Qonşu Dağıstan ellərinə gedən karvan yolları vaxtilə məhz buradan keçirdi. İlisu turistlərin ən sevimli istirahət yerlərindən biridir. 2002-ci ildə burada İlisu dövlət tarix-mədəniyyət muzeyi yaradılmışdır.

İlisunun özəlliyi həm də ərazidə bir çox şəfalı bulaqların olması ilə bağlıdır. Onlardan daha məşhur olanı Beşbulaqdır. Yerli ustalar kəsmə çay daşından səliqəli bulaq kompleksi yaradıblar. Su divarda qoyulmuş beş borudan axıb töküldüyündən bura "Beşbulaq" adlanır.

Bulaq İlisunun düz mərkəzində yerləşir. 1863-cü ildə inşa edilmiş bulaq əsr yarım ərzində buz soyuqluğu, büllür şəffaflığı, gur suyu ilə İlisuya şan-şöhrət gətirib.

Deyilənlərə görə, tanınmış şair Əliağa Kürçaylı bu bulağın suyundan içəndən sonra çox ilhamlanaraq deyibdir:

***Qovub bir-birini bu yerdə illər,***
***İnsanlar doğulub, dünyadan köçüb.***
***Sənin atan, baban, neçə nəsillər,***
***Dostum "Beşbulağ"ın suyundan içib…***

Həqiqətən, bu tərəflərdə dağlar, meşələr, bulaqlar, xüsusilə, gözəldir! Təbii ki, bu yerlərin ən böyük sərvəti bu yurdun torpağa bağlı, yurd və əməksevər insanlarıdır!

Əziz oxucu, turist qardaşlarım və bacılarım! Yolunuz İlisu tərəfdən düşsə, bu gözəlliklərdən, həm də buranın saf, səmimi, xeyirxah sakinləri ilə ünsiyyətdən böyük zövq alacaqsınız.

***M.HACIXANLI***
***XQ***

# Nəhəng asteroidin ciddi həyəcanı

**İnternetdə Yerə düşə biləcək asteroid haqqında müzakirələr aparılır. İddia edilir ki, toqquşma baş verərsə, nəticələri dünya əhalisi üçün çox ağır olacaq. Alimlər təhlükəni diqqətlə izləyir və təhlükəli kosmik obyektlə bağlı vəziyyəti təhlil edirlər. Bəziləri də süni intellektlərin asteroidlə bağlı proqnozlarını öyrənməyə çalışırlar.**



Xatırladaq ki, alimlər asteroidin təhlükəli ola biləcəyini 2024-cü ilin sonunda öyrəniblər. Belə ki, ötən ilin dekabr ayında astronomlar 2024 YR4 adlandırdıqları asteroidi kəşf ediblər. Onun ölçüsü 50 ilə 90 metr arasında dəyişir. Mütəxəssislər bu ölçüləri Yer kürəsi üçün təhlükəli hesab edirlər. Məsələn, 2013-cü ildə düşən Çelyabinsk meteoritinin diametri təxminən 19,8 metr olub.

Kəşfdən bir neçə həftə sonra tədqiqatçılar 2032-ci il dekabrın 22-də asteroidin Yerlə toqquşması ehtimalının sıfırdan çox uzaq olduğunu müəyyən ediblər. Əvvəlcə toqquşma şansının 1,3 faiz olduğunu bildirmişdilər, lakin fevralın 7-də proqnoz 2,2 faizə qədər artırıldı. Alimlər xəbərdarlıq edirlər ki, asteroidin Yerə düşməsi bəşəriyyət üçün ciddi təhlükə yarada bilər.

Bəs süni intellekt proqramları asteroidin Yerə düşməsi barədə nə "düşünürlər"? Bununla bağlı "DeepSeek"-ə sual verilib. Qeyd edək ki, alimlərin hazırda asteroid haqqında çox az məlumatı var, buna görə də, süni intellekt proqramı 2025-ci ilin fevral ayının əvvəlinə olan bütün mövcud proqnozları vahid mətndə toplayıb. Bununla belə, neyron şəbəkənin proqnozları ciddi düşünməyə vadar edir. Belə ki, "DeepSeek"-in proqnozlarına görə, asteroidin düşməsindən yaranan partlayışın enerjisi təxminən 7-8 meqaton olacaq. Bu, 1945-ci ildə Yaponiyanın Xirosima şəhərinə atılan nüvə bombasından 500 dəfə güclüdür.

Bundan başqa, məlumat verilir ki, zərbə dalğası on kilometrlərlə uzaqlıqda olan bütün binaları məhv edə bilər. Eyni zamanda, istilik radiasiyası 20 kilometrə qədər radiusda yayılaraq yanğınlara səbəb olacaq. Bundan əlavə, zərbə 6–7 bal gücündə güclü zəlzələyə də səbəb ola bilər.

Digər təhlükəli ssenari asteroidin dənizə və ya okeana düşməsidir. Bu, dalğaları 30 metrədək yüksələn sunamiyə səbəb olacaq və nəticədə sahilyanı əraziləri su basacaq. Oxşar dalğalar 2004-cü ildə Hind okeanında baş verən zəlzələ zamanı da yaranmışdı. Xatırladaq ki, bu, müasir tarixdə ən ölümcül sunamiyə səbəb olmuşdu. Ümumilikdə, təbii fəlakət nəticəsində təxminən 230 min insan həyatını itirmişdi.

Daha dəhşətlisi odur ki, böyük şəhərə düşən asteroid onun infrastrukturunu məhv edəcək və bu, ciddi iqtisadi böhrana səbəb olacaq. Bərpa böyük miqdarda vəsait və vaxt tələb edəcək. Bundan əlavə, vaxtında təxliyə edilməsə, on minlərlə insan həlak olacaq.

Bundan başqa, zərbə nəticəsində çox miqdarda toz və hisin qəfil atmosferə yayılması fövqəladə vəziyyət zonasının da iqlimi daha da pisləşdirəcək. Bu, yerli ekosistemlərə, havanın keyfiyyətinə və kənd təsərrüfatına mənfi təsir göstərəcək. Vəziyyətin normallaşması üçün illər lazım olacaq.

Maraqlıdır ki, "DeepSeek"-in əsas rəqibi olan Amerika neyron şəbəkəsi ChatGPT-in də proqnozu ürəkaçan olmayıb. Hər iki süni intellekt proqramı təbii fəlakət ehtimalı ilə bağlı düzgün və ən aktual məlumatları təqdim edib.

Bəs nikbin proqnoz varmı? "The New York Times" Arizona Universitetinin mütəxəssisinə istinadən yazır ki, asteroidin düşmə ehtimalı Yer kürəsinin sakinlərinin yatmasına mane olmamalıdır. Vəziyyət təhlükəlidir, bununla belə, kosmik obyekt ancaq düşə biləcəyi arazi üçün təhlükəlidir. Ümumiyyətlə, alimlər bildirirlər ki, bəşəriyyət qlobal fəlakətlə üzləşməyəcək.

Ümid edək ki, "DeepSeek"-in də, Open AI-in də proqnozları reallaşmayacaq. Oxuduqlarımızı da yalnız növbəti "maraqlı xəbər" kimi yadda qalacaq.

***FİDAN***
***XQ***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı"
Qapalı Səhmdar Cəmiyyəti

*Cəmiyyətə məxsus nəqliyyat vasitələri (minik və yük avtomobilləri) üçün xidmətlərin satın alınması məqsədilə*

*Açıq Tender Elan Edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 11 mart 2025-ci il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu- +994 12- 599- 00 -03 (daxili 3706).**

**Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.**

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı"
Qapalı Səhmdar Cəmiyyəti

*rəsmi sosial şəbəkə hesablarının idarə edilməsi xidmətlərinin göstərilməsi üçün satınalma*

*Açıq Tender Elan Edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 26 fevral 2025-ci il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu- +994 12 -599- 00 -03 (daxili 3704).**

**Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 32 (30726) 13 fevral 2025-ci il, cümə axşamı

İdman

## Antalyada bürünc medal




**Azərbaycanın qadın taekvondoçusu Minayə Əkbərova Antalya şəhərində keçirilən Türkiyə Açıq beynəlxalq turnirində mükafatalayiq yer tutub.**

Taekvondo Federasiyasından verilən məlumata görə, G-2 kateqoriyalı turnirdə 46 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı 4 rəqibi üzərində qələbə qazanaraq yarımfinala yüksəlib. Bu mərhələdə türkiyəli idmançıya məğlub olan təmsilçimiz bürünc medalla kifayətlənib.

## UEFA Azərbaycanın 9 klubuna ödəniş edib

**UEFA "Həmrəylik ödəmələri və uşaq futbolunun inkişafı" proqramı çərçivəsində Azərbaycanın 9 klubuna ("Qarabağ" istisna olmaqla) ödəniş edib.**




AFFA-dan verilən məlumata görə, 2023/2024-cü illər mövsümü üçün 1 milyon 955 min avro maliyyə vəsaiti ayrılıb. Bu məbləğ milli assosiasiyanın vasitəçiliyi ilə "Neftçi", "Səbail", "Qəbələ", "Sumqayıt", "Sabah", "Araz-Naxçıvan", "Zirə", "Turan Tovuz", "Kəpəz" klublarının hesabına köçürülüb.

*Leylə URBANOVA*
*XQ*

## "Böyük Dəbilqə"də 33 cüdoçumuz yarışacaq

**Fevralın 14–16-da Bakıda Milli Gimnastika Arenasında keçiriləcək "Böyük Dəbilqə" turnirində çıxış edəcək Azərbaycan cüdoçuları bəlli olub. Azərbaycan Cüdo Federasiyasından mediaya bildirib ki, ölkəmiz yarışda 12 çəki dərəcəsində 33 idmançı (24 kişi və 9 qadın) ilə təmsil olunacaq.**



Kişilərin mübarizəsində Əhməd Yusifov, Hüseyn Allahyarov, Turan Bayramov, Balabəy Ağayev (hamısı 60 kiloqram), Yaşar Nəcəfov, Ruslan Paşayev, Rəşad Yelkiyev, Elşən Əsədov (hamısı 66 kiloqram), Rəşid Məmmədəliyev, İbrahim Əliyev, Vüsal Qələndərzadə, Qədir Hüseynov (hamısı 73 kiloqram), Zelim Tçkayev, Ömər Rəcəbli, Məhərrəm İmamverdiyev, Süleyman Şükürov (hamısı 81 kiloqram), Tuncay Şamil, Əli Qazıməmmədov (hər ikisi 90 kiloqram), Əjdər Bağırov, Davud Namazlı (hər ikisi 100 kiloqram), Uşanqi Kokauri, Camal Qamzatxanov, Kənan Nəsibov və Ramazan Əhmədov (hamısı +100 kiloqram) qüvvəsini sınayacaq.

Qadınlar arasında isə Leyla Əliyeva, Könül Əliyeva, Şəfəq Həmidova (hamısı 48 kiloqram), Fidan Qasımova, Fidan Əlizadə (hər ikisi 57 kiloqram), Nərgiz Hacıyeva (63 kiloqram), Südabə Ağayeva, Günel Həsənli (70 kiloqram) və Nigar Süleymanova (78 kiloqram) medal qazanmağa çalışacaqlar.

Turnirdə 38 ölkədən 270 cüdoçu mübarizə aparacaq.

*XQ*

Milli şahmat çempionatı

# Zəka yarışının qalibi kim olacaq?

**Fevralın 1-də start götürən Azərbaycan çempionatında milli komandanın bütün üzvləri, FIDE reytinqində yüksək yerlərdə qərarlaşanlar və 1-ci dəstədə ən yaxşı nəticə göstərən şahmatçılar çıxış ediblər. Ümumilikdə, yarışa ölkə çempionatlarının 19 qızıl medalçısı, 5 Avropa çempionu, Dünya kubokunun sahibi və beynəlxalq turnirlərin qalibləri qatılıb.**




Kişilərin çempionatında üçqat Avropa çempionları Şəhriyar Məmmədyarov (rapid üzrə dünya çempionu), Teymur Rəcəbov (Dünya kubokunun sahibi), Rauf Məmmədov, son ölkə çempionu Aydın Süleymanlı, o cümlədən Vasif Durarbəyli, İddiaçılar turnirinin iştirakçısı Nicat Abasov, qitə çempionu Eltac Səfərli, Məhəmməd Muradlı və digərləri mübarizə aparıb.

Qadınların yarışında isə Avropa çempionu Ülviyyə Fətəliyeva, milli komandanın üzvləri – qitə çempionatının medalçıları Günay Məmmədzadə, Gövhər Beydullayeva, Xanım Balacayeva, Gülnar Məmmədova, eyni zamanda, son çempion Ayan Allahverdiyeva, Türkan və Zeynəb Məmmədyarovalar və digərləri Azərbaycanda kimin daha güclü olduğunu müəyyənləşdirməyə çalışıblar.

İştirakçıların reytinqinə gəlincə, FIDE-nin fevral ayı üçün dünya sıralamasında ilk 100-lüyə düşən Azərbaycan şahmatçılarından Şəhriyar Məmmədyarovun 2732 (dünyada 20-ci), Teymur Rəcəbovun 2698 (32-ci), Rauf Məmmədovun isə 2656 reytinq xalı (71-ci) var.

Qadınlarda Günay Məmmədzadə 2412 (36-cı), Gövhər Beydullayeva 2404 (41-ci), Ülviyyə Fətəliyeva 2381 (64-cü) və Xanım Balacayeva 2355 reytinq xalına sahibdir (89-cu).

Olimpiya sistemi üzrə, yəni "uduzan çıxır" prinsipi ilə keçirilən yarışda şahmatçılar bir-biri ilə həm ağ, həm də qara fiqurlarla mübarizə aparırlar. İki oyundan sonra bərabərlik qeydə alındığı təqdirdə tay-breklər oynanılır. Yarışı daha maraqlı etmək üçün tay-brek olmadan mərhələ adlayan şahmatçıya yekunda bonus pul mükafatı da veriləcəyi bildirilir.

Azərbaycan çempionatının ümumi mükafat fondu 90 min manat – kişi şahmatçılarda 60 min, qadınlarda isə 30 min təşkil edir. Kişilərin yarışında qalib 20 min, qadınlarda isə 10 min manat qazanacaq.

Yanvarın 31-də "Landmark" Biznes Mərkəzində açılış mərasimində çıxış edən Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov bu turnirin əvvəlkilərdən bir çox xüsusiyyətlərinə görə fərqləndiyini bildirib: "Azərbaycan şahmatında müxtəlif dövrlər olub. Ancaq ilk dəfədir ki, ölkənin ən güclü şahmatçıları bir çempionatda toplaşıb. Hesablamalarımıza görə, bu, Azərbaycanın kişilər arasında 80-ci, qadınlar arasında isə 75-ci çempionatıdır. Ötən il etik prinsiplərlə bağlı təsdiqlədiyimiz sənəddə qeyd etmişdik ki, Azərbaycan çempionatlarında iştirak etməyən şahmatçılar federasiya tərəfindən nəzərdə tutulan dəstəkdən yararlana bilməyəcəklər. Sevindirici haldır ki, bu məqam şahmatçılarımızın qərarına təsir edib".




Ölkə çempionatı ərəfəsində fikirlərini açıqlayan şahmat üzrə Əməkdar məşqçi Fikrət Sideifzadə də budəfəki yarışın digərlərindən fərqləndiyini vurğulayıb: "Burada ən güclü şahmatçılarımız iştirak edəcəklər. Üstəlik, çempionatın yüksək mükafat fondu var. İndiyə qədər analoji yarışda belə rəqəmlər olmayıb. Yadımda deyil ki, Şəhriyar Məmmədyarovla Teymur Rəcəbov nə vaxtsa Azərbaycan çempionatında oynayıblar. Bu turnirdə, həmçinin Avropa çempionatında iştirak edəcək komandanın heyəti də müəyyənləşəcək" (İdman.biz).

Kişi şahmatçıların çempionatında mübarizəyə 26 şahmatçı başlayıb.

İlkin mərhələdə cütlüklərdə favorit sayılanlar 1/8 finala çıxıblar. Eltac Səfərli, Məhəmməd Muradlı və Fərid Abbasov iki qələbə, Vüqar Əsədli, Əhməd Əhmədzadə, Misrətdin İsgəndərov və Read Səmədov bir qələbə və bir heç-heçə ilə, Namiq Quliyev, Vüqar Rəsulov və Nicat Məmmədov isə tay-breklərdə bu mərhələni uğurla adlayıblar.

Daha yüksək reytinqə malik aparıcı qrossmeysterlər yarışa 1/8 finaldan qoşulublar. Bu mərhələdə onlardan Şəhriyar Məmmədyarov iki qələbə, Teymur Rəcəbov, Rauf Məmmədov və Aydın Süleymanlı bir qələbə və bir heç-heçə ilə yollarına davam ediblər.

Tay-breklərə qalan cütlüklərə gəlincə, Muradlıdan başqa, digər qarşılaşmalarda favoritlərin məğlub olması diqqəti çəkir. İkinci mərhələdə İsgəndərov daha yüksək reytinqə malik Nicat Abbasovu, Əhmədzadə də Vasif Durarbəylini, Əsədli isə Səfərlini mübarizədən kənarlaşdırıb.

Dörddəbir finalda Məmmədyarov Muradlı ilə oyunlarda iki qələbə qazanıb. İsgəndərov bu dəfə özündən reytinqdə daha üstün olan Süleymanlıya bir qələbə və bir heç-heçə ilə qalib gəlib.

Nəhayət, tay-breklərdə Rəcəbov Əsədlidən, Məmmədov isə Əhmədzadədən güclü olub.

Yarımfinallarda Məmmədyarov bu dəfə İsgəndərovun sensasiya etməsinə imkan verməyib – iki oyun və iki qələbə.

Rəcəbov - Məmmədov duelində isə mübarizə heç-heçələrlə davam etdiyindən qalib tay-breklərdə müəyyənləşib.

Yeri gəlmişkən, Rauf Məmmədov çempionatda, Rəcəbov və Məmmədyarov başda olmaqla, bütün tanınmış şahmatçıların çıxış etmələrinin gözəl təşəbbüs olduğunu və bunun davam etməsini istədiyini dilə gətirib: "Çünki Azərbaycan irəlidə gedən şahmat ölkəsidir. Biz ABŞ çempionatına baxsaq, orada bütün yüksək FIDE reytinqinə malik şahmatçıların mübarizə apardığını görə bilərik. Güclülər oynayanda həmişə maraqlı olur".

Qadınların yarışında isə 16 şahmatçı mübarizə aparıb. 1/8 finalda Gövhər Beydullayeva, Ülviyyə Fətəliyeva, Xanım Balacayeva və Gülnar Məmmədova iki qələbə, Zeynəb Məmmədyarova və Səbinə İbrahimova bir qələbə və bir heç-heçə ilə, Türkan Məmmədyarova və Günay Məmmədzadə isə tay-breklərdə rəqiblərinə qalib gəliblər.

İlk mərhələdə təcrübəli Zeynəbin reytinqdə ondan daha yüksəkdə olan Ayan Allahverdiyevanı, İbrahimovanın isə daha yüksək reytinqə malik Nərmin Abdinovanı məğlub etməsini qeyd etmək mümkündür.

Dörddəbir finalda, əsasən, favoritlər qalib gəlib. Fətəliyeva Zeynəbdən güclü olub – iki oyun, iki qələbə.

Tay-breklərə gedən görüşlərdə Məmmədzadə İbrahimovaya, Beydullayeva isə Məmmədyarova bacılarından kiçiyi Türkana qalib gəlib. Yalnız Məmmədovanın reytinqdə özündən yüksəkdə olan Balacayevanı məğlub etməsi diqqəti çəkir.

Türkanla bağlı maraqlı məqamı qeyd edək ki, o, ilk mərhələnin startında Nərmin Kazımovaya uduzsa da, sonra geridönüş edərək, mübarizədən qalib ayrılıb. 1/4 finalda isə əksinə - ilk oyunda Beydullayevaya qalib gəlsə də, sonra üstünlüyü əldən verərək məğlub olub.

Yarımfinallarda Məmmədova və ondan daha yüksək reytinqə malik Məmmədzadə hərəyə bir qələbə qazanaraq qalibi tay-brekdə müəyyənləşdiriblər.

Beydullayeva və reytinqdə ondan aşağıda olan Fətəliyeva isə iki heç-heçə ilə əlavə oyunlara ehtiyac duyublar.

Finalın ilk oyunu fevralın 13-də saat 15:00-da başlayacaq. İkinci görüş ertəsi gün yenə saat 15:00-da start götürəcək.

Əgər ümumi hesabda bərabərlik yaransa, fevralın 15-də tay-breklər oynanılacaq ki, onlar da saat 15:00, 16:30 və 18:00-a təyin olunub.

**P. S.** Tay-brekdə ümumi 3:2 hesabı ilə Teymur Rəcəbova qalib gələn Rauf Məmmədov finalda Şəhriyar Məmmədyarova rəqib olub.

Misrətdin İsgəndərov və Rəcəbov isə 3-cü yer uğrunda qarşılaşacaqlar.

Qadınların yaraşında hər iki yarımfinalda tay-breklərdə 2,5:1,5 hesabı qeydə alınıb. Qalib gələn Günay Məmmədzadə və Gövhər Beydullayeva finalda üz-üzə gələcəklər.

Məğlub olan Ülviyyə Fətəliyeva və Gülnar Məmmədova isə 3-cü yer uğrunda oynayacaqlar.

*Rasim MÖVSÜMZADƏ,*
*idman şərhçisi*

## "Hamlet" Rus Dram Teatrı səhnəsində

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı Uilyam Şekspirin ölümsüz "Hamlet, Danimarka şahzadəsi" pyesi əsasında hazırlanmış "Hamlet" faciəsini səhnələşdirib.**




Əsərə səhnə quruluşunu rejissor, Azərbaycanın Xalq artisti Aleksandr Şarovski verib. Tamaşanın quruluşçu rəssamı Azərbaycanın Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorov, geyim üzrə rəssamı Əməkdar mədəniyyət işçisi Olqa Abbasova, işıq dizayneri Nikolay Rudıçev, bəstəkarı Anar Yusufov, musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Vladimir Neverov, vizajçı Yekaterina Maşkovadır.

Tamaşada rolları Əməkdar artistlər Murad Məmmədov, Teymur Rəhimov, Salman Bayramov, Həcər Ağayeva, Mariya Dubovitskaya, teatrın digər aktyorları ifa edirlər.

Yeni tamaşanın təqdimatı martın 7-də olacaq.

*XQ*

Sağlamlıq

## Çərəz – olmasın mərəz

**Qoz-fındığın, əslində, beynə, zehnə və yaddaşa faydasının çox olduğu barədə həmişə oxumuşuq. Amma qastroenteroloq Lyudmilla Suxorukova jurnalistlərə açıqlamasında bu çərəzlərin beynə zərərli təsirinin də olduğunu bildirib.**



Həkim qoz-fındığın mərkəzi sinir sistemi üçün gözlənilməz təhlükəsini qeyd edib. Bu çərəzlərdən çox və aramsız yeyildikdə beynə zərər verə biləcəyindən danışıb:

"Əgər siz çoxlu qoz yeyirsinizsə, bu, beynin fəaliyyətində problemlər yarada bilər.

Böyük miqdarda fındıq beyin damarlarına mənfi təsir göstərir. Şəkərli diabet və ya diatezi olanlar üçün, ümumiyyətlə, fındıq yemək olmaz.

Müxtəlif çərəzlərin həddindən artıq istifadəsi orqanizmdə mənfi dəyişikliklər yaradar. Məsələn, badam böyrək problemlərinə, qoz-fındıq ciddi allergiyaya, uşaqlarda sədəf və ya ekzemaya səbəb ola bilər. Makadamiya qoz-fındığı, xüsusilə, yüksək kalorilidir. Bundan əlavə, məhsul toksin mənbəyidir. At şabalıdında belə zərər verən maddələr var".

Dietoloq Yevgeni Arzamastsev də qoz-fındığın bir az qədərindən artıq yeyilməsinin qan damarlarına mənfi təsir göstərə biləcəyini deyib. Bu barədə danışan mütəxəssis uzun müddət naməlum yerdə saxlanmış, qovrulmuş qoz-fındıq yeməməyi də tövsiyə edib. Bildirib ki, belə çərəzlər ətrafında qoyulmuş digər məhsulların təsirindən reaksiyaya uğrayar və onun xeyrindən çox zərəri olar.

*Z.HÜSEYNLİ*
*XQ*

HAVA

## Yağış və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 13-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Günün birinci yarısında bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Şimal-qərb əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 1-3° isti, gündüz 5-8° isti olacaq. Atmosfer təzyiqi 771 mm civə sütunundan 767 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 11-16°, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.**

*QQ ASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3111
SİFARİŞ 323
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00